RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 58 (9513) 15 mart 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Bakı Qlobal Forumu

## Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq forumlarla bir cərgədədir

√ Qlobal əhəmiyyət kəsb edən məsələlərin həlli üçün bu gün dünyanın, həqiqətən də, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinin və iştirakçılarının təcrübəsinə, biliyinə, onların dövlət, hökumət başçıları və xarici işlər nazirləri kimi təcrübəsinə ehtiyacı var.

------------

√ COP29-un Azərbaycanda keçirilməsi Azərbaycanın yaşıl keçidlə bağlı səylərinin qəbul edilməsidir.
Biz əminik ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi hazırlıq işləri və tədbirin keçirilməsi zamanı Azərbaycanın fəal tərəfdaşı olacaqdır. COP29 bizə onu nümayiş etdirməyə imkan verəcəkdir ki, müstəqil yaşayan və heç kəsdən asılı olmayan bir ölkə uğurla inkişaf edə bilər. Bu, həm də Azərbaycanın son 30 ildə apardığı düzgün siyasəti nümayiş etdirir.

------------

√ Fransa hökumətinin İkinci Qarabağ müharibəsinə və antiterror əməliyyatına münasibəti tamamilə qeyri-adekvat oldu. Onlar tərəfindən bu məsələlərin BMT Təhlükəsizlik Şurasına çıxarılmasına və Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsinə beş dəfə cəhd edilib - yəni etmədiyimiz bir əmələ görə. Biz beynəlxalq hüquqa zidd olan addım atmamışıq. Beş cəhdin hər biri uğursuz oldu, çünki Təhlükəsizlik Şurasının digər üzvləri bunu dəstəkləmədi. Daha sonra Avropa İttifaqı çərçivəsində Azərbaycana qarşı sanksiyaların tətbiqinə bir neçə cəhd edildi. Həmin cəhdlər də uğursuz oldu. Avropa İttifaqı ölkələrinin əksəriyyəti bunu dəstəkləmədi.




## "Parçalanmış dünyanın bərpası" mövzusunda keçirilən XI Qlobal Bakı Forumuna 68 ölkədən 400-dən çox qonaq qatılıb

### Prezident İlham Əliyev forumda iştirak edib

2-4

√ Azərbaycan qeyri-qanuni işğala, etnik təmizləməyə və soyqırımına məruz qalmışdı. Bütün bunlar hamımıza yaxşı məlum olan tarixi faktlardır.
Biz ədaləti və beynəlxalq hüququ özümüz bərpa etdik. Bizə heç kəs kömək etmədi, biz bunu özümüz etdik.

------------

√ Bizim dördillik sədrliyimiz nəticəsində 120 üzvlə BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatında xüsusi ab-hava yarandı. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan strateji tərəfdaşlığa dair bəyannamə imzalayıb. Biz 50-dən çox ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Yəni biz müxtəlif ölkələri bir araya gətirmək imkanına malikik və bu gün iqlim məsələlərinin həll edilməsi üçün məhz buna ehtiyac var.

------------

√ Fransada, Azərbaycanın şəhərlərinin biri ilə qardaşlaşmış Evian şəhərində vandalizm aktı baş verdi. Azərbaycan şairi Natəvanın heykəli vandalizmə məruz qaldı. Sizə həmin heykəli, üzərindəki qırmızı boyanı və heykəlin qırılmış burnunu təsvir edən şəkilləri nümayiş etdirmək istəyirəm. Bu hadisə Fransada baş verdi və buna səbəb BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqında Azərbaycanı cəzalandırmaq cəhdlərinin uğursuz olması idi.



# XI Qlobal Bakı Forumu

# "Parçalanmış dünyanın bərpası" mövzusunda keçirilən XI Qlobal Bakı Forumuna 68 ölkədən 400-dən çox qonaq qatılıb

## Prezident İlham Əliyev forumda iştirak edib

**Martın 14-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu işə başlayıb.**




AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev forumun açılış mərasimində iştirak edib.

Əvvəlcə xatirə fotosu çəkdirildi.

XI Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** dedi:

- Zati-aliləri Prezident Əliyev.

Xanımlar və cənablar.

Mənim adım İsmail Serageldindir.

Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədriyəm və sizin hamınızı XI Qlobal Bakı Forumunda salamlayıram.

Biz "Parçalanmış dünyanın bərpası" adı altında görüşürük. Dünya həqiqətən parçalanıb, hər yerdə ciddi çağırışlar var. Əslində, biz təhlükənin hökm sürdüyü vaxtda görüşürük. Lakin bizim görüş, həmçinin vədlər dövrünə də təsadüf edir. Təhdidlər ətrafdadır, yeni dünya düzəni yarandığı bir dövrdə böyük güclər formalaşmış düzənin quruluşunu parçalayır, mövcud sülh və təhlükəsizlik qaydalarının dəyişdirilməsi prosesinə cəlb olunurlar. Yenidən ayağa qalxan Rusiya BMT Baş Assambleyasının çağırışlarına məhəl qoymayaraq Ukraynada dağıdıcı müharibəyə başlayıb. Oktyabrın 7-də HƏMAS-ın törətdiyi dəhşətli hücumdan sonra Qəzzadakı müharibəyə gəldikdə, dünya qəti şəkildə humanitar xarakterli atəşkəsi tələb edir. Lakin ondan imtina edən İsrail ABŞ tərəfindən dəstəklənir.

Münaqişələr Afrikanın bir çox hissəsini caynağına alıb. Haiti xaos doğuran zorakılıq məngənəsinə düşüb. Cinayətkarlıq, zorakılıq əksər Latın Amerikası ölkələrində bəlaya çevrilib. Dünyanın çox hissəsində müharibələr gedir. Dövlətlərdə sabit milli idarəçiliyi sual altına qoyan və hər hansı immiqrasiya növünə mənfi təsir edən etnik, dini və siyasi ayırıcı xətlər bir çox qatları təşkil edir. Bu, hazırda qaçqınların və məcburi köçkünlərin sayının hətta 100 milyonu keçdiyi halda baş verir. Nəhəng Amerikanın böyük kölgəsi göstərir ki, onun dərindən parçalanmış siyasəti ayırıcı xətlərin daim yenidən çəkilməsi ilə müşayiət olunan tektonik platformalardan ibarət bu dünyada hər hansı ardıcıl iştiraka olan inamı sarsıdır. Bununla yanaşı, gücü artan Çin formalaşan yeni dünya düzənində haqlı olaraq əsas rol oynamağa çalışır.

Dünya özünün qəbul etdiyi dayanıqlı inkişaf yolunda uğursuz olmaqla yanaşı, təhdidlər də artır. İqlim dəyişmələri, biomüxtəlifliyin pozulmasından tutmuş qiymətli su ehtiyatlarının qeyri-düzgün idarə olunmasına qədər qlobal çağırışlar bütün bəşəriyyəti əhatə edir. Dünyanı bürümüş pandemiyadan yenicə çıxdığımız dövrdə növbəti belə hadisəyə hazır olmaq üçün heç bir dərs götürmədik. Qlobal çağırışlar qlobal cavab tədbirləri tələb edir. Lakin biz eyni zamanda elm, texnologiya və innovasiya sahələrində inanılmaz inqilabın astanasındayıq. Süni zəka hazırda hər şeyə təsir göstərir. O, bütün sahələrdə innovasiya tempini sürətləndirir və bütün növ mürəkkəb problemlərin həllinə yardım edir. İKT inqilabı yeni biologiya sahəsində yeni inqilabla müşayiət olunur. Elmə, texnologiyaya, innovasiyaya yönələn yeniləşmə prosesi elmin perspektivlərini qavramağa, konkret olaraq xəstəliklərin müalicəsi, aclığa qarşı mübarizə, təbiətə ahəngdar olacaq inkişafımızın yenidən müəyyən edilməsi, layiqli iş yerləri, özünüifadə üçün miqyasın yaradılması kimi məsələləri anlamağa yardım edir. Biz həmin eyni texnologiyaların təkcə dağıdıcı və məhvedici tərəflərinə diqqət yetirməli deyilik.

Zati-aliləri, xanımlar və cənablar, Qlobal Bakı Forumu məxsusi təcrübəyə və müdrikliyə malik, fərqli rəyləri söyləyən tanınmış insanları bir araya gətirən unikal azadlıq məkanıdır və orada onlar təhdidləri azaltmaq və vədləri həyata keçirmək üçün bütün həmin məsələlərlə bağlı öz fikirlərini ifadə edə bilərlər. Bütün bu və ya digər məsələləri müzakirə etmək, söhbətlərdə ümumbəşəri dəyərlərə sadiq olmaq, arqumentlərdə rasionallığı göstərmək üçün imkan yaranır və onlar öz müdrikliklərinə əsaslanaraq bilik və təcrübələrini təsdiq edirlər. Ümid edirik ki, həmin müzakirələrin nəticələri təhlillərə imkan yaradacaq və BMT-nin qarşıdan gələn sammitini və bu ilin sonunda COP29 görüşlərindəki müzakirələri zənginləşdirəcək. Cənab Prezident Əliyev həmin tədbirə evsahibliyi edəcək.

Beləliklə, Qlobal Bakı Forumunun başlanması məqsədilə mən sözü şərəf və iftixar hissi ilə Zati-aliləri Prezident İlham Əliyevə verirəm. Zati-aliləri, buyurun.

❖ ❖ ❖

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz. Sizin hamınızı bu gün burada, uzun illər bundan əvvəl qlobal miqyasda aparıcı beynəlxalq konfranslardan birinə çevrilmiş ənənəvi forumda görməkdən məmnunam. Hesab edirəm ki, Bakı Qlobal Forumu Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq forumlarla bir cərgədədir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin potensialı, iştirakçıların siyahısı baxımından biz həqiqətən də görürük ki, hər il Bakıda keçirilən müzakirələr müxtəlif mühüm beynəlxalq məsələləri daha yaxşı anlamağa imkan verir.

Dünya sürətlə dəyişir. Əfsuslar olsun ki, yeni qeyri-sabitlik və qarşıdurma ocaqları meydana çıxır. Ötən ilin martında müzakirə etdiklərimizlə bu gün müzakirə etdiklərimizi müqayisə etsək nəzərəçarpan dəyişikliklər görərik. Burada geosiyasi dəyişikliklər baş verir. Ona görə də qlobal əhəmiyyət kəsb edən məsələlərin həlli üçün bu gün dünyanın həqiqətən də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinin və iştirakçılarının təcrübəsinə, biliyinə, onların dövlət, hökumət başçıları və xarici işlər nazirləri kimi təcrübəsinə ehtiyacı var.

Zənnimcə, bu dəfə iştirakçıların sayı rekord həddədir. XI Forumda 68 ölkədən 400-dən çox qonaq iştirak edir. Beləliklə, biz coğrafiyanı da genişləndirmişik və qonaqlarımız arasında 40-dan çox hazırkı və sabiq dövlət və hökumət başçıları var. Bu, həqiqətən də forumun nəhəng intellektual potensialına dəlalət edir.

Dünən mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri ilə görüşdüm. Biz bir sıra məsələlər barəsində çox yaxşı və səmimi müzakirələr apardıq. Bizim forumdan əvvəlki görüşlərimizin artıq yaxşı bir ənənəyə çevrilmək xüsusiyyəti var. Dünən mən bir daha İdarə Heyətinin üzvlərinə fəaliyyətlərinə görə minnətdarlığımı bildirdim. Çünki il boyunca Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal gündəlikdə duran ən mühüm məsələləri dünyanın müxtəlif yerlərində qərar qəbul edənlərin diqqətinə çatdırmaq üçün böyük işlər görür.

Mən bir daha şəxsən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə - xanım Vike-Freyberqaya və cənab Serageldinə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə verdikləri davamlı töhfəyə, həmsədrlər kimi mükəmməl fəaliyyətlərinə görə minnətdarlığımı bildirmək istərdim. Onlar həqiqətən də çox özəl şəxsiyyətlərdən ibarət güclü heyət yaratmağa və mərkəzin fəaliyyətini nəticəyə yönəlmiş, bu gün qlobal miqyasda böyük hörmətə malik beynəlxalq QHT kimi qurmağa nail oldular.

Qeyd etdiyim kimi, ötən görüşümüzdən bu yana dünyada, eləcə də regionumuzda çox hadisələr baş verib. Regionumuzdakı dəyişikliklər lokal xarakterli kimi görünə bilər, əslində isə zənnimcə, onların daha geniş fəsadları var. Çünki bir il bundan əvvəl burada ötən görüşümüzdən bu yana baş verən əsas geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpasıdır. Bu, həqiqətən də çox ciddi geosiyasi dəyişiklikdir ki, fikrimcə həll olunmayan kimi görünən münaqişələrin həllinə çox müsbət təsir göstərəcək.

Uzun illər ərzində biz münaqişənin sülh yolu ilə həllini tapmaq üçün fəaliyyət göstərdik. Uzun illər ərzində, o cümlədən İkinci Qarabağ müharibəsindən əvvəl hər il burada keçirilən görüşlərimizdə biz hər zaman ədalətsizlik, işğal, beynəlxalq hüququn pozulması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl olunmaması barədə danışırdıq və bu barədə danışmağa davam edirdik, çünki bu məsələnin beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmasını istəyirdik. Biz ədalətin zəfər çalmasını istəyirdik, əfsuslar olsun ki, bu, sülh yolu ilə baş vermədi.

Keçmiş Minsk qrupunun 28 illik fəaliyyəti ərzində nəticə sıfra bərabər idi. İndi biz keçmişə nəzər salıb 28 ilin necə keçdiyini təhlil edəndə tam əmin oluruq ki, Minsk qrupunun əsas məqsədi münaqişəni həll etmək deyil, onu dondurmaq, Ermənistan işğalını əbədi etmək və işğalla barışmalı olduğumuzun qaçılmazlığı barədə bizimlə danışıqlar aparmaq olub.

Münaqişənin niyə sülh yolu ilə həll olunmamasının əsas səbəbi bu və həmçinin sözsüz ki, Ermənistan hökumətlərinin - 1990-cı illərin əvvəllərindən başlayaraq bu günə kimi müxtəlif hökumətlərin qeyri-konstruktiv mövqeyi idi. Dünyanın aparıcı paytaxtlarından bizə mütəmadi olaraq göndərilən başqa bir mesaj da var idi ki, münaqişənin hərbi yolla həlli yoxdur. Dedik yaxşı, biz bununla razılaşa bilərik, bəs alternativ nədən ibarətdir. Əgər alternativ işğalla razılaşmaq, bizim beynəlxalq səviyyədə tanınan ərazilərimizin təqribən 20 faizində separatçı rejimin mövcudluğu ilə razılaşmaqdırsa, bu, bizim razılaşa biləcəyimiz məsələ deyil.

Biz bir halda hərbi yolla həllin olmadığı ilə razılaşa bilərik ki, siz Minsk qrupu həmsədrləri, dünyanın aparıcı ölkələri, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri Ermənistan işğalçı qüvvələrini bizim torpaqlarımızdan geri çəkilməyə məcbur edəsiniz. Siz, Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qəbul edənlər bu qətnamələrə əməl olunmasını təmin etməlisiniz, əks halda münaqişə heç vaxt həll olunmayacaq.

Əfsuslar olsun ki, bizim münaqişənin sülh yolu ilə həllini tapmaq istiqamətində bütün cəhdlərimiz uğursuz oldu, səbəbini isə mən artıq izah etdim. Beləliklə, münaqişənin hərbi-siyasi yolla həlli faktiki olaraq göstərir ki, sülhə nail olmaq üçün bəzən hərbi variantdan istifadə edilməlidir. İndi baş verən də məhz budur. İndi biz Ermənistanla heç vaxt olmadığımız qədər sülhə yaxınıq. Cənubi Qafqazın müstəqillik tarixində heç vaxt sülh bu qədər yaxın olmayıb. Bu, İkinci Qarabağ müharibəsinin nəticəsidir. Bu, bizim ötən ilin sentyabrında 24 saatdan da az vaxt ərzində həyata keçirdiyimiz antiterror əməliyyatının nəticəsidir ki, Azərbaycanda separatçılığa birdəfəlik son qoyduq və suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etdik.

Məhz buna görə son 3-4 il ərzində Azərbaycanda baş verənlərin təkcə lokal xarakter daşıyan bir məsələ olmadığını deyirəm. Bunun artıq çox müsbət təsiri var və söhbət təkcə Cənubi Qafqazdakı vəziyyətdən getmir. Hesab edirəm ki, bu, həll olunmayan kimi görünən münaqişələrin həlli üçün bir model olaraq istifadə edilə bilər. Lakin ən başlıca məsələ, əlbəttə ki, bu, beynəlxalq hüququn alilik prinsipinin tətbiq olunması ilə baş tutmalıdır. Beynəlxalq hüququn normaları bizim tərəfimizdə idi, Azərbaycan qeyri-qanuni işğala, etnik təmizləməyə və soyqırımına məruz qalmışdı. Bütün bunlar hamımıza yaxşı məlum olan tarixi faktlardır. Biz ədaləti və beynəlxalq hüququ özümüz bərpa etdik. Bizə heç kəs kömək etmədi, biz bunu özümüz etdik.

Biz güclü siyasi iradə və eyni zamanda potensialı nümayiş etdirdik. Çünki güclü hərbi potensial və xalqın birliyi olmasa, güclü siyasi iradə uğura aparmayacaq. Beləliklə, bütün amillərin vəhdəti, bizim iqtisadi inkişafımız, bizim maliyyə imkanlarımız, müdafiə potensialımız, hərbi qulluqçularımızın təlimi, Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digərləri kimi bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyini tam dəstəklədikdə aktiv və proaktiv xarici siyasətin yürüdülməsi buna imkan verdi.

Münaqişənin hərbi yolla həllindən qaçmaq mümkün idimi? Bəli. Dünən biz İdarə Heyətinin üzvləri ilə bu məsələni geniş müzakirə etdik və mən azacıq olaraq pərdəarxası məqamları onlarla bölüşdüm. 2018-ci ildə Ermənistan hökumətində dəyişiklik baş verəndə razılığa gəlmək imkanı var idi. Ermənistanın yeni hökuməti bizi əmin etdi ki, onlar beynəlxalq hüquqa uyğun davranacaq və əraziləri geri qaytaracaqlar. Bizim belə gözləntilərimiz var idi və əgər o vaxt Ermənistanın yeni hökuməti indiki kimi davransaydı, onda suverenliyimizin güc yolu ilə bərpa edilməsinə ehtiyac qalmazdı.

Lakin əfsuslar olsun ki, 2019-cu ildə Ermənistanın yeni rəhbərliyi "Azərbaycan separatçılarla danışıqlar aparmalıdır, sülh müqaviləsinin əsasını təşkil edən bu vaxta kimi olan bütün məsələlər sıfırlanmalıdır və hər şey yenidən başlanmalıdır, Ermənistan işğal olunmuş ərazilərin bir santimetrini belə qaytarmayacaq" kimi tamamilə qəbuledilməz təkliflər irəli sürdü. Bundan əlavə, Ermənistanın baş nazirinin məşhur "Qarabağ Ermənistandır" şüarı səsləndi. Birincisi, bu, beynəlxalq hüquqa tamamilə zidd idi və ikincisi, bizim torpaqları əbədi saxlayacağını hesab edən ölkə üçün həddindən artıq iddialı bir addım idi.

Beləliklə, biz 2020-ci ilin sentyabr-noyabr aylarında onlara dərs vermək məcburiyyətində olduq və düşündük ki, bu dərs onlara kifayət edəcək və onlar başa düşəcəklər ki, xarici qüvvələrə güvənərək başqa ölkənin torpaqlarını işğal altında saxlamağın vaxtı artıq bitib.

Son 3-4 ildə sülhə nail olmaq imkanı var idimi? Bəli, var idi. Bunun üçün Ermənistan sülh müqaviləsinin tərəfimizdən hazırlanmış layihəsinə konstruktiv yanaşmalı və bu sülh müqaviləsinə dırnaqarası dağlıq qarabağ respublikasının statusunun daxil edilməsi üzərində israr etməməli idi. Birincisi, belə bir respublika mövcud deyil. O, ancaq onların xülyalarında və mifologiyasında mövcuddur. İkincisi də bizim mövqeyimiz yenə də beynəlxalq hüquqa tamamilə uyğun idi. Dövlətlərarası sazişlərdə daxili siyasət məsələləri yer almamalıdır.

2020-ci il noyabrın 10-da Ermənistanın imzalamaq məcburiyyətində olduğu kapitulyasiya aktına əsasən onlar o zaman bizim nəzarətimizdə olmayan Qarabağın qalan ərazilərindən işğalçı qüvvələrini çıxarmaq öhdəliyini üzərinə götürdülər. Lakin 3 il ərzində onlar bunu etmədilər. Onlar nəinki on beş minlik hərbi kontingentini ərazidən çıxarmadı, onlar İkinci Qarabağ müharibəsindən sonra kommunikasiya yolları üzərində nəzarətimizin olmadığından faydalanaraq silah, mina və sursatları qaçaqmalçılıq yolu ilə Qarabağa göndərdilər. Kommunikasiya yolları üzərində nəzarət bizə keçdikdən sonra qaçaqmalçılıq dayandı. Buna baxmayaraq, sonuncu antiterror əməliyyatı zamanı bizim ağır texnika və zirehli maşınlar da daxil olmaqla məhv edilmiş və qənimət olaraq götürülmüş hərbi sursatların dəyəri bir milyard dollara yaxın olmuşdur. İkinci Qarabağ müharibəsi zamanı hərbi qənimətlər və məhv edilmiş texnikanın, sursatın dəyəri 5 milyard dollara yaxın idi. Sual olunur ki, Ermənistan bütün bu pulu haradan əldə edib? Əlbəttə, aydındır ki, bizə qarşı istifadə etdikləri bütün silahlar onlara təmənnasız verilmişdir.

İndi isə Qarabağ məsələsi öz həllini tapdıqdan sonra biz sülhə çox yaxınıq. Biz belə hesab edirik. Azərbaycan sülh prosesini davam etdirməyə hazırdır. Hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində görüşlər bərpa olunub və indi biz düşünürük ki, sülhə nail olmaq mümkündür. Biz bunu istəyirik. Biz tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik və indi regionda düşmənçiliyə son qoymaq vaxtı yetişib.

Diqqətinizə çatdırmaq istədiyim bir məsələ bizim antiterror əməliyyatı ilə bağlı beynəlxalq reaksiyadır. Əksər hallarda bu reaksiya tamamilə adekvat olmuşdur. Beynəlxalq birlik, müxtəlif ölkə və beynəlxalq təşkilatlar öz açıqlamalarında, habelə bizimlə pərdəarxası təmaslarda qeyd edirlər ki, onlar bizim bunu etmək məcburiyyətində qaldığımızı anlayırlar. Anlayış var ki, antiterror əməliyyatından öncə Ermənistan iki qırmızı xəttimizi keçib və ümumilikdə beynəlxalq birliyin buna reaksiyası tamamilə müsbət olmuşdur.

Bəzi təfərrüatlar, sentyabrın əvvəlində nələrin baş verdiyi və antiterror əməliyyatının niyə sentyabrda həyata keçirilməsi haqqında sizə məlumat vermək istəyirəm. Çünki sentyabrın əvvəlində Ermənistanın baş naziri separatçı rejimə dırnaqarası müstəqillik günü münasibətilə təbrik məktubu göndərdi. Bunu gözləmirdik və bu, bizim üçün mənfi bir sürpriz oldu. Çünki Ermənistanın həmin baş naziri 2022-ci ildə Praqadakı görüşdə ictimai şəkildə Azərbaycanın ərazi bütövlüyünü tanımışdı və bir neçə dəfə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının olmadığını vurğulamışdı.

Yaxşı, o zaman bu təbrik nəyə lazım idi? Bu təbrik separatçılara ünvanlanmışdı və bu, Azərbaycanın suverenliyinin pozulması idi, tamamilə ziddiyyətli və qəbuledilməz hərəkət idi. Daha sonra sentyabrın 9-da dediyim kimi, yalnız müəyyən insanların xülyalarında mövcud olan dırnaqarası dağlıq qarabağ respublikası dırnaqarası prezident seçkiləri təşkil etdi və bu, növbəti qırmızı xətt idi.

Beləliklə, bu, bizim son həddimiz idi və antiterror əməliyyatının həyata keçirilməsinə səbəb oldu. Bu əməliyyat bir neçə saat davam etdi və 23 saatdan sonra separatçılar təslim oldular. Mülki əhali arasında itki olmadı və separatçılar təslim olan kimi biz əməliyyatı dayandırdıq və bu, həmin tarixçənin sonudur.

*Ardı 3-cü səh.*

# XI Qlobal Bakı Forumu

# "Parçalanmış dünyanın bərpası" mövzusunda keçirilən XI Qlobal Bakı Forumuna 68 ölkədən 400-dən çox qonaq qatılıb

## Prezident İlham Əliyev forumda iştirak edib

*Əvvəli 2-ci səh.*

Burada beynəlxalq reaksiya haqqında danışarkən mən bir ölkənin mövqeyini təəssüflə qeyd etməliyəm. Bu mövqe beynəlxalq ictimaiyyətin yanaşması ilə ziddiyyət təşkil edir. Bu ölkə Fransadır. Mən buna olduqca təəssüf edirəm, çünki 1990-cı illərin əvvəlindən Azərbaycan və Fransa arasında münasibətlər müsbət istiqamətdə inkişaf edib. Çoxsaylı yüksəksəviyyəli səfərlər baş tutub, biznes sahəsində fəal təmaslar olub, iki ölkənin 13 şəhəri digəri ilə qardaşlaşma münasibətlərinə malik olub.

Lakin Fransa hökumətinin İkinci Qarabağ müharibəsinə və antiterror əməliyyatına münasibəti tamamilə qeyri-adekvat oldu. Onlar tərəfindən bu məsələlərin BMT Təhlükəsizlik Şurasına çıxarılmasına və Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsinə beş dəfə cəhd edilib - yəni etmədiyimiz bir əmələ görə. Biz beynəlxalq hüquqa zidd olan addım atmamışıq. Beş cəhdin hər biri uğursuz oldu, çünki Təhlükəsizlik Şurasının digər üzvləri bunu dəstəkləmədi. Daha sonra Avropa İttifaqı çərçivəsində Azərbaycana qarşı sanksiyaların tətbiqinə bir neçə cəhd edildi. Həmin cəhdlər də uğursuz oldu. Avropa İttifaqı ölkələrinin əksəriyyəti bunu dəstəkləmədi.







Təəssüflər olsun ki, bundan sonra baş verənləri normal dərk etmək mümkün deyil. Fransada, Azərbaycanın şəhərlərinin biri ilə qardaşlaşmış Evian şəhərində vandalizm aktı baş verdi. Azərbaycan şairi Natəvanın heykəli vandalizmə məruz qaldı. Sizə həmin heykəli, üzərindəki qırmızı boyanı və heykəlin qırılmış burnunu təsvir edən şəkilləri nümayiş etdirmək istəyirəm. Bu hadisə Fransada baş verdi və buna səbəb BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqında Azərbaycanı cəzalandırmaq cəhdlərinin uğursuz olması idi.

Bu hadisədən sonra hakimiyyət orqanları boyanı yumaq və heykəli bərpa etmək əvəzinə onu, sadəcə, bükdülər və heykəl belə bükülmüş vəziyyətdə bir və ya iki ay qaldı. Vandalizmi dayandırmaqla bağlı bu ölkədəki səfirliyimiz və digər kanallarla Fransa hakimiyyət orqanlarına, Evian şəhərinin meriyasına müraciətlər edildi. Çünki heykəlin belə bükülmüş vəziyyətdə saxlanılması və hətta bu boyanın yuyulmasına cəhdin belə edilməməsinin özü vandalizm aktıdır. Nə Fransa hökuməti, nə də Evian meriyasının rəsmiləri tərəfindən buna heç bir reaksiya verilmədi.

Belə olan halda biz israr etdik ki, bu heykəl oradan təxliyə edilsin. Çünki bunu özümüzə təhqir hesab etdik. Bu, bizi alçaltmaq demək idi. Bir çox hallarda özünü mənəvi lider kimi qələmə verən Fransa kimi bir ölkədə belə hallar qəbuledilməzdir. Heykəlin Evian şəhərindən Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzinin qarşısında olan bağçaya təxliyə edilməsi üçün bizə bir neçə ay lazım oldu və hazırda Natəvanın abidəsi oradadır.

Bu, suverenliyimizi bərpa etdikdən sonra üzləşdiklərimizin bir nümunəsidir. Bu, ikili standartların göstəricisidir. Ukraynaya ərazi bütövlüyünü bərpa etməyə kömək üçün qoşun göndərəcəyini bəyan edən Fransa, öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanı cəzalandırmağa çalışır.

Sizinlə dünən ətraflı şəkildə müzakirə etdiyimiz daha bir mövzunu diqqətinizə çatdırmaq istərdim. Bu da COP29-dur. Biz əminik ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi hazırlıq işləri və tədbirin keçirilməsi zamanı Azərbaycanın fəal tərəfdaşı olacaqdır. COP29-un Azərbaycanda keçirilməsi Azərbaycanın yaşıl keçidlə bağlı səylərinin qəbul edilməsidir. Dəfələrlə ictimai bəyanatlarda da dediyim kimi, neft və qaz sərvətlərinə sahib olmağımız bizim günahımız deyil və biz buna görə tənqid edilməməliyik. Hesab edirəm ki, bizi tənqid etməyə cəhd göstərənlər və bu qlobal tədbirə evsahibliyi etmək şərəfinə bizi layiq görənlər anlamalıdırlar ki, bizim niyyətimiz iqlim məsələlərinə töhfə verməkdir. Artıq yaşıl keçidlə bağlı bütün gördüyümüz işlərin praktiki nəticələri var.

Ötən ilin oktyabrında biz Qafqazın və Mərkəzi Asiya regionunun 230 meqavat gücündə ən böyük günəş-elektrik stansiyasının açılışını etdik. Daha iki stansiya ilə bağlı hazırlıq və tikinti işləri gedir. Biz 2030-cu ilədək 5000 meqavat bərpaolunan enerji istehsalı potensialına malik olmağı planlaşdırırıq. Bu, tamamilə real hədəfdir, çünki bunun üçün çoxsaylı müqavilələr və anlaşma memorandumları imzalanıb.

Hazırda biz Xəzər dənizindən Qara dənizə və Avropaya qədər uzanacaq "yaşıl enerji" elektrik kabelinin inşası ilə fəal şəkildə məşğuluq və həmin layihənin texniki əsaslandırılması, demək olar ki, hazırdır.

Beləliklə, birincisi, COP29 bizə onu nümayiş etdirməyə imkan verəcəkdir ki, müstəqil yaşayan və heç kəsdən asılı olmayan bir ölkə uğurla inkişaf edə bilər. Bu, həm də Azərbaycanın son 30 ildə apardığı düzgün siyasəti nümayiş etdirir. Praktiki nöqteyi-nəzərdən isə bu, bizim üçün həmrəyliyə töhfə vermək fürsəti olacaq. Çünki bizim dördillik sədrliyimiz nəticəsində 120 üzvlə BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatında xüsusi ab-hava yarandı. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan strateji tərəfdaşlığa dair bəyannamə imzalayıb. Biz 50-dən çox ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Yəni biz müxtəlif ölkələri bir araya gətirmək imkanına malikik və bu gün iqlim məsələlərinin həll edilməsi üçün məhz buna ehtiyac var.

Bilirəm ki, gərgin proqramınız var və bundan artıq vaxtınızı almaq istəmirəm. Çıxışımın sonunda bir daha bizimlə birlikdə burada olan bütün iştirakçılara, xüsusilə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürümü bildirir və foruma uğurlar arzu edirəm.

❖ ❖ ❖

Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **Vayra Vike-Freyberqa** çıxış edərək dedi:

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev.

Zati-aliləri, ölkə prezidentləri və sabiq prezidentlər.

Sabiq və fəaliyyətdə olan hökumət başçıları.

Xanımlar və cənablar, hörmətli qonaqlar, Nizami Gəncəvi Mərkəzinin dostları.

Çıxışımın əvvəlində son 11 il ərzində bu Bakı forumlarında geniş dünya auditoriyasına göstərdiyi səmimi qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkürümü ifadə etmək istəyirəm. Biz bu toplantılarda tam əməkdaşlıq etmişik və bu tədbirlərimizdə sayı artmaqda olan qonaqları qəbul etməyə hazırıq. Onların hamısı xoş gəlib, hamının öz fikirlərini, əziyyət çəkdiyi ağrıları və dözdüyü haqsızlıqları bölüşmək imkanı olacaq. Biz bizi narahat edən ümumi bir məsələni birlikdə müzakirə edəcəyik. Bir çox şəkildə həqiqətən parçalanmış və bölünmüş dünyanı və bu çatları ən azından azalda və ya aradan qaldıra biləcək yolları, insan fəaliyyətini müzakirə edəcəyik. Ötən il burada, Bakıda keçirilmiş sonuncu forumdan bəri xəbər kanallarını və ictimai medianı izləyəndə çox pis xəbərlərin şahidi olmuşuq. Lakin haqqında yaxşı xəbərlər olan yerlər də var və onlardan biri də Prezident Əliyevin elə indi bizə haqqında bəhs etdiyi məsələdir. Azərbaycan dünyada nadir ölkələrdəndir ki, uzun müddət davam edən, 28 il ərzində dondurulmuş münaqişəyə, nəhayət ki, son qoyulub. Söhbət qonşu ölkə tərəfindən beynəlxalq hüquqa zidd olaraq əraziləri qeyri-qanuni işğal edilmiş ölkənin öz ərazilərini qaytarması, öz ərazi bütövlüyünü və ona məxsus olan torpaqlar üzərində suverenliyini bərpa etməsindən gedir. Eyni zamanda dünyada hələ də davam etməkdə olan əlli aktiv münaqişə ocağı var. Ukrayna qeyri-qanuni işğaldan və ərazilərinin anneksasiyasından əziyyət çəkir. Bu da İkinci Dünya müharibəsinin əvvəlində Stalinin Baltikyanı ölkələrə hücum etmək və anneksasiya etmək üçün istifadə etdiyi ssenarini xatırladır. Latviya, Litva və Estoniya ilk dəfə Sovet İttifaqının ordusu tərəfindən işğal olunduqda guya bu ölkələrin xalqları ölkələrinin Sovet İttifaqının tərkibinə daxil edilməsini xahiş etmişdir və bu şəkildə anneksasiya həyata keçirilmişdir. Ukraynada onun əraziləri ilə əlaqədar olaraq baş verən hadisələr isə eyni ssenarini və anneksasiyanın arxasında duran izahatları təkrarlayır və sanki bir komediyaya bənzəyir. Bu faciə və bu qədər insan təlefatı olmasaydı, insanlar əziyyət çəkməsəydi, bu, komik olardı. Prezidentin dediyi isə odur ki, yaşadığımız parçalanmış dünyanı yaxşılaşdırmaq olar. Biz ən azından bizi ayıran o çatların dərəcəsini azalda bilərik. Əvvəlcə biz fərqli nəzər nöqtələrinin, münasibətlərin və maraqların olduğunu qəbul etməliyik. Lakin bir araya gələrək çıxış yolunu tapmaq mümkündür və bunun da tələbləri var. Ən azından xoş məram, xoş niyyət olmalıdır. Məhz bu xoş məramın və xoş niyyətin olmaması bizim dünya miqyasında müşahidə etdiyimiz faciəvi fəsadlara gətirib çıxarır. Dünyada müəyyən prinsiplər qəbul olunub və beynəlxalq miqyasda birgəyaşayışın münaqişə olmadan və zor tətbiq etmədən mümkünlüyü ilə bağlı prinsipləri irəli sürməyə çalışan əhalinin xoşməramlı səylərindən sonra Birləşmiş Millətlər Təşkilatının təsis edilməsindən bəri, nizamnaməsinə uyğun olaraq və insan hüquqlarının deklarasiyalarından sonra bu prinsiplərin nədən ibarət olduğunu, qəddar və vəhşi dünyada yox, bəşəri və sivil dünyada yaşaya bilməmiz üçün nələrə əməl etmək lazımdır kimi məsələləri formulizə etməyə çalışmışdır.

Yeri gəlmişkən, bəşəriyyətin vəhşi təbiət və yırtıcı heyvan kimi olmasını söyləmək heyvanlar aləminə münasibətdə təhqiramiz bir ifadədir. Çünki bir çox ölkələr özlərini elə aparırlar ki, onların davranışı bəzi heyvanların təbii sağqalma instinktinin pozulması və qida zəncirinin bir hissəsi olması nəticəsində əldə etdikləri xüsusiyyətlərə bənzəyir. Latviyadan bir misal çəkə bilərəm. Sovet İttifaqı dönəmində Latviyada fermalarda norka yetişdirirdilər. Buna səbəb xəz dərisi istehsalının xarici valyutada yaxşı gəlir mənbəyinin olması idi. Bu norkalardan bəziləri fermalardan qaçmış, vəhşiləşmiş və minilliklər boyunca mövcud olmuş üzən adaları olan göldə məskunlaşmışdır. Yazda köçəri quşlar bu gölə gələrək burada yuva qurardı. Həmin qaçmış norkalar quşların yuva qurduğu bu adaya gələrək bütün quşları öldürmüş və onların cəsədlərini orada buraxmışdı. Onlar quşları yeməmişdi. Bu, təbiətə qarşıdır, bu, qida zəncirində yırtıcı cinslərə şamil olunan sağqalma instinktinə qarşıdır. Düşünürəm ki, eynilə bu şəkildə hərəkət edən ölkələr var. Digər insanları öldürmək istəyi insanın təbiətinə xas olan bir şeydir və bu, öz iradəsini digərlərinə güclə qəbul etdirmək istəyən qüvvələr tərəfindən istifadə və sui-istifadə olunur. Güc, xüsusilə müdafiə üçün istifadə edildikdə legitim güc ola bilər, lakin ondan tamamilə sui-istifadə də edilir və biz bunu dünyanın bir çox yerlərində görürük.

Beynəlxalq qurumlar tərəfindən ifadə və formulizə edilmiş prinsiplər qüvvədə qalır. Apardığımız bütün müzakirələrimizdə unutmamalıyıq ki, biz nəyisə yenidən ixtira etməməliyik. Biz dünyaya nə lazım olduğunu dəqiq bilirik. Dünyada qeyd-şərtsiz olaraq bütün insanlara, kişi və qadınlara, müxtəlif irqi mənşəyi olan insanlara hörmət lazımdır. Bizə insanların inancları və nəyəsə mənsubluğu olmadan hörmət lazımdır. Fərdlərin vətəndaş azadlıqları haqqında danışdıqda, bu məsələ heç bir əhəmiyyət kəsb etmir. Bizim dünyamız elə bir dünya olmalıdır ki, orada ölkələr kateqoriyalara bölünməməlidir. Bu Corc Oruelin təsvir etdiyi heyvan fermasına bənzəyir. Bu fermada bütün heyvanlar bərabər hüquqlara malikdir, lakin bəziləri digərləri ilə müqayisədə daha çox hüquqlara malikdir. Böyük ölkələrin avtomatik şəkildə qonşu ölkələrin bahasına istədiklərini etmək imtiyazı yoxdur. Orta məktəb proqramında hətta adlarını görmədiyimiz, heç vaxt eşitmədiyinizə baxmayaraq, kiçik ölkələrin də hüquqları var. Onlar mövcuddur. Biz bunu bilirik. BMT-nin Baş Assambleyasına nəzər saldıqda çoxlu sayda belə ölkələrin olduğunu görürük və əksəriyyətimiz heç onların adlarını da çəkə bilmir. Lakin onların hamısının, hər bir ölkənin kiçik, böyük və ya orta olmasından asılı olmayaraq, yaşamaq hüququ var. Onların ölçüsü xalqların özlərini idarə etmək hüququ baxımından əhəmiyyətli olmamalıdır.

Xanımlar və cənablar, siz buraya böyük həyat təcrübəniz ilə dünyanın bir çox yerindən təşrif buyurmusunuz. İstərdim ki, siz debatlarda səmimi və açıq iştirak edəsiniz. Əlbəttə ki, başqalarını təhqir etmədən. Çünki biz burada nəzakətli bir cəmiyyəti təmsil edirik. Görünmək, eşidilmək və başa düşülmək arzusu insanın təbiətinə xas olan bir şeydir.

*Ardı 4-cü səh.*

nizami

# XI Qlobal Bakı Forumu

# "Parçalanmış dünyanın bərpası" mövzusunda keçirilən XI Qlobal Bakı Forumuna 68 ölkədən 400-dən çox qonaq qatılıb

## Prezident İlham Əliyev forumda iştirak edib




*Əvvəli 3-cü səh.*

Bu, insan təbiətinin müsbət tərəflərindən biridir. Lakin görünmək, eşidilmək və başa düşülmək istəyiriksə, biz bunu başqalarına diqqət yetirməklə də etməliyik. Başqasını görməklə, eşitməklə və başa düşməklə etməliyik.

Növbəti günlərdə hamınıza məhsuldar debatlar arzulayıram və ümid edirəm ki, irəli sürdüyünüz fikirlər reallıqda və tətbiq edildiyi zaman bəhrə verəcək. Çünki dünyada baş verənlər əsasən insan fəaliyyətinin nəticəsidir. Parçalanmalar insan fəaliyyəti nəticəsində olur, onları da insan fəaliyyəti ilə aradan qaldırmaq və düzəltmək olar. Ümid edirəm ki, forumumuz uğurlu və çox maraqlı olacaq.

❖ ❖ ❖

Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

❖ ❖ ❖

Daha sonra forumda Albaniya Respublikasının Prezidenti **Bayram Beqay** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

Qlobal Bakı Forumu çərçivəsində məni qəbul etdiyinizə görə minnətdaram. Mən Prezidentə, bütün iştirakçılara, beyin mərkəzlərinə, o cümlədən müxtəlif xalqların və beynəlxalq təşkilatların təmsilçilərinə təşəkkürümü bildirirəm.

❖ ❖ ❖

Forumun işinə uğurlar arzulayan Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü **Jelka Tsviyanoviç** Azərbaycanla əlaqələri yüksək qiymətləndirdiyini vurğuladı. Qlobal Bakı Forumunun bir çox məsələlərin həlli üçün vacib platforma olduğunu qeyd edən Jelka Tsviyanoviç dedi:

- Bosniya və Herseqovina Rəyasət Heyətinin serb üzvü kimi qeyd etmək istəyirəm ki, mən Azərbaycanla münasibətləri çox yüksək dəyərləndirirəm. Bu, dost münasibətləridir. Biz hesab edirik bütün bu xoş ab-hava, təbii ki, məxsusi xarakter daşıyır. Hesab edirəm ki, bu cür forum əslində bütün məsələlərin müzakirəsi üçün müvafiq məkandır, multilateralizm böhranının aradan qaldırılmasına xidmət edə bilər və biz onların aradan qaldırılmasına müvəffəq ola bilərik. Ən vacibi ondan ibarətdir ki, belə tədbirlər bizim aramızda körpü sala, ünsiyyət yarada, müxtəlif ölkələr və beynəlxalq iştirakçılar arasında tərəfdaşlığı təşviq edə bilər.

❖ ❖ ❖

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru **Tedros Adhanom Qebreyesus** uzun illər ÜST-ə və onun məramına dəstək vermiş Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə və Azərbaycana təşəkkürünü ifadə edərək bildirdi:

- Çıxışıma Prezident İlham Əliyevin göstərdiyi səyləri alqışlamaqla başlamaq istəyirəm. Mən 3300-dən artıq tibbi xidməti əhatə edən icbari tibbi sığorta vasitəsilə universal səhiyyə paketinə doğru Azərbaycanın əldə etdiyi irəliləyişdən məmnunam. Həmçinin Azərbaycan hökumətinə və xalqına təşəkkürümü bildirirəm ki, bu ilin sonunda COP29-a evsahibliyi məsələsində siz öz rəhbərlik keyfiyyətlərinizi göstərdiniz.

Ümumdünya Səhiyyə Təşkilatı COP28-in tam bir gününü ilk dəfə səhiyyəyə həsr etmiş Birləşmiş Ərəb Əmirliklərinin ənənələrinə uyğun olaraq COP29-un gündəliyində səhiyyənin mühüm yerdə qalmasını təmin etmək üçün Azərbaycanın sədrliyi ilə işləməyi səmimiyyətlə arzulayıram.

❖ ❖ ❖

BMT Baş katibinin siyasət üzrə müavini Qay Rayder COP29-un uğurla təşkil olunması istiqamətində Azərbaycanda görülən işləri yüksək dəyərləndirdiyini qeyd edərək dedi:

- Azərbaycanda keçiriləcək COP29 da qlobalmiqyaslı, qeyri-adi əhəmiyyətə malik BMT tədbiridir. Biz BMT olaraq bu kimi tədbiri və ölkənizin bu sahədəki sədrliyini tam dəstəkləyirik.

❖ ❖ ❖

BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu/Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru **Vinni Byanyima** Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə hərəkatın beynəlxalq arenada nüfuzunun artmasında ölkəmizin rolunu xüsusi vurğulayaraq bildirdi:




- Mən bu fürsətdən istifadə edərək Zati-aliləri Prezident Əliyevə Qoşulmama Hərəkatına canlandırma gətirdiyinə görə təşəkkürümü bildirirəm. Mən Prezidentin bununla bağlı planlarını və islahatlarını alqışlayıram. O, Qoşulmama Hərəkatında bunu etdi. BMT-nin QİÇS-ə qarşı olan təşkilatı əslində sədrliyin göstərdiyi səyləri yüksək dəyərləndirdi ki, qadınlar da Qoşulmama Hərəkatında xüsusi yer tutsunlar. Bizim təşkilatımız Azərbaycan hökumətinin evsahibliyi etdiyi "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfransa dəstək verdi. Həmin konfransda Bakı Bəyannaməsi qəbul edildi. Bu sənəddə qadınların dayanıqlı inkişafdakı xüsusi rolu qeyd olundu və o, Qoşulmama Hərəkatının bürosu tərəfindən qəbul edildi.

❖ ❖ ❖

Forumun əhəmiyyətinə toxunan BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi **Migel Anxel Moratinos** təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edərək dedi:

- Biz Azərbaycan ilə BMT-nin Sivilizasiyalar Alyansı arasındakı əməkdaşlıqdan qürur hissi duyuruq. Mən həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkür edirəm ki, onlar XI Qlobal Bakı Forumunda iştirak etmək fürsətini yaratdılar. Qlobal Bakı Forumu ən tanınmış qlobal platformalardan birinə çevrilib və burada ən yaxşı beyin mərkəzləri bir araya gətirilir.

❖ ❖ ❖

Tədbirdə çıxış edən Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri **Binəli Yıldırım** dedi:

- Mən bu forumda böyük şərəf və iftixar hissi ilə iştirak edirəm və Türkiyə Respublikasının Prezidenti adından çıxış edirəm. İlk növbədə mən hər il uğurla keçirilən Qlobal Bakı Forumunun təşkilatçılarını, Azərbaycanın rəhbərliyini bu il növbəti çox uğurlu tədbiri keçirdiyinə görə təbrik etmək istərdim. Biz görürük ki, Qlobal Bakı Forumu artıq ənənəyə çevrilib.

Martın əvvəlində Antalyada üçüncü Diplomatiya Forumunun təşkil edildiyini xatırladan B.Yıldırım həmin tədbirdən sonra qardaş Azərbaycanda keçirilən Qlobal Bakı Forumunun "Parçalanmış dünyanın bərpası" mövzusunun böyük fundamental məsələ olduğunu söyləyib. Deyib ki, bu, bütün beynəlxalq ictimaiyyət üçün belədir. Biz bu gün həmin reallıqda yaşayırıq. Biz belə çağırışlara, yəni parçalanmış dünyada olan bütün maneələrə qarşı birgə mübarizə aparmalıyıq. Biz ətrafımıza baxdıqda görürük ki, regional münaqişələr davam edir və bu münaqişələr mənfi fəsadlarla nəticələnir.

Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri daha sonra deyib: "Biz Cənubi Qafqaza nəzər salsaq, cənab Prezidentin dəqiqliklə izah etdiyi kimi, son otuz il ərzində regionda nə baş verib? Nəhayət, bütün Qarabağ bölgəsi işğaldan azad olundu. İndi isə biz artıq sülhə, regionda firavanlığa yaxınıq. Tarix baxımından belə bir mühüm dövrdə görürük ki, dünya müxtəlif məqamlardan, dövrlərdən, mərhələdən keçir. Buna görə Qlobal Bakı Forumu bizə elə bir fürsət yaradır ki, bir-birimizi ilhamlandıran müzakirələr aparaq, fikirləri mübadilə edək və qlobal parçalanmanın həll variantları üzərində düşünək".

İqlim dəyişikliyi ilə bağlı çağırışlara toxunan Binəli Yıldırımın sözlərinə görə, müasir dövrdə bu, elə bir məsələdir ki, müəyyən ölkələr üçün çox böyük narahatlıq doğurur və bizdən bütün dünyada mübarizə aparmağımızı tələb edir. Biz bu məsələni noyabrda Azərbaycanda keçiriləcək COP29 konfransında geniş şəkildə müzakirə edəcəyik.

Regional məsələlərin həllində qarşılıqlı əməkdaşlığın önəminə toxunan Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri vurğulayıb ki, hazırda Türkiyə qardaş, dost ölkələrlə əlaqələri genişləndirmək sayəsində bölgədəki problemlərin aradan qaldırılmasına çalışır. "Hesab edirik, prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev tərəfindən 2020-ci ilin dekabrında irəli sürülən "3+3" formatı ilə bağlı təşəbbüs çox vacib bir platformadır ki, regional anlaşma daha çox olsun, bu və ya digər ölkələr arasında münasibətlər normallaşsın, Cənubi Qafqazda sülh və sabitlik bərqərar edilsin", - deyən B.Yıldırım bu il Türkiyənin həmin təşəbbüslə bağlı üçüncü görüşə evsahibliyi edəcəyini diqqətə çatdırıb. Qeyd edib ki, eyni zamanda regional təşkilatların, o cümlədən Türk Dövlətləri Təşkilatının (TDT) da imkanları gücləndirilməlidir. TDT bu sahədə aparıcı təşkilatlardan biridir ki, mədəni və tarixi birlik, həmrəylik ruhu onun mahiyyətini təşkil edir, fəaliyyəti sülhə və sabitliyə yönəlib. Bu mənada, türk dünyasının ümumi inkişafı üçün biz qlobal sülhü və ədaləti təşviq edirik. Bu baxımdan TDT-nin Ağsaqqallar Şurasının sədri kimi bəyan edirəm: "Hesab edirik ki, rifaha və sabitliyə töhfə nəinki bizim coğrafiyamızda, onun hüdudlarından kənarda da olmalıdır. Təbii ki, biz təşkilatımız daxilində təmaslarımızı artırırıq, əməkdaşlığımızı genişləndiririk. Bu kontekstdə mən sizin diqqətinizi bir fakta yönəltmək istərdim. İyulda təşkilatımızın qeyri-rəsmi sammiti Azərbaycanın Şuşa şəhərində keçiriləcək. Şuşa həmçinin türk dünyası üçün mühüm məkandır. Mədəni sahədə əməkdaşlıq təşkilatımız daxilində sülhün və sabitliyin təşviq olunmasına yönələcək".

❖ ❖ ❖

COP29 kimi mötəbər tədbirin Bakıda keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu qeyd edən və bu tədbirin iqlim dəyişiklikləri ilə bağlı müzakirələrə yeni nəfəs gətirəcəyini diqqətə çatdıran Birləşmiş Krallığın Azərbaycandakı səfiri **Ferqus Auld** Böyük Britaniyanın Baş naziri Rişi Sunakın forum iştirakçılarına məktubunu oxudu.

❖ ❖ ❖

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq platformaya çevrilib. Məhz bunun nəticəsidir ki, mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır.

Bu dəfə "Parçalanmış dünyanın bərpası" ("Fixing The Fractured World") mövzusuna həsr olunan XI Qlobal Bakı Forumuna bir çox ölkələrin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar.

Martın 16-dək davam edəcək forumda COP28-in nəticələri və COP29-a hazırlıq məqsədilə qlobal müzakirələr aparılacaq, yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, parçalanmış dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salınacaq, qarşıda duran çağırışların həlli yolları müzakirə olunacaq, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi problemlərinə toxunulacaq. Eyni zamanda qlobal idarəetmədə hərbi və iqtisadi ittifaqların rolu, regional perspektivlər, Avropa İttifaqı və onun qonşuları ilə münasibətləri, gənclər siyasəti, qlobal çağırışlara qarşı davamlılığı artırmağın yolları, qeyri-bərabərlik, təbii ehtiyatların azlığı və miqrasiya məsələlərinə toxunulacaq, süni intellekt, dronlar və kibersilahlar dövründə yeni təhlükəsizlik nümunələri barədə müzakirələr aparılacaq.

# XI Qlobal Bakı Forumu

## BMT COP29 ilə bağlı Azərbaycana tam dəstək verməyə hazırdır

### Prezident İlham Əliyev BMT Baş katibinin siyasət üzrə müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də BMT Baş katibinin siyasət üzrə müavini Qay Rayderi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Qay Rayder BMT-nin Baş katibi Antonio Quterreşin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını BMT Baş katibinə çatdırmağı xahiş etdi.

COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdıran qonaq BMT-nin də bu prosesdə Azərbaycana tam dəstək verməyə və ölkəmizlə işləməyə hazır olduğunu dedi.

Dövlətimizin başçısı buna görə öz təşəkkürünü bildirdi və qeyd etdi ki, Azərbaycan ilə BMT-nin müvafiq strukturları arasında COP29-un uğurla təşkil olunması istiqamətində artıq səmərəli əməkdaşlıq qurulub və nümayəndə heyətləri yaxından işləyir.

Azərbaycanın sədrlik etdiyi COP29-un builki gündəliyinin iqlim maliyyələşməsi mövzusuna həsr olunduğunu deyən Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan bu və digər mövzularda COP-un gündəliyinin irəli aparılması üçün səylərini əsirgəməyəcək. Belə ki, ölkəmizin müxtəlif beynəlxalq təsisatlarda fəal üzvlüyü, Qoşulmama Hərəkatında uğurlu sədrliyi bunun üçün yaxşı imkan və fürsət yaradır.

Qay Rayder BMT Baş katibi adından bu ilin sentyabr ayında Nyu Yorkda "Summit of the future" - "Gələcəyin Sammiti" devizi ilə keçiriləcək tədbirlə bağlı məlumat verdi. Söhbət zamanı BMT Baş Assambleyasının qarşıdan gələn gündəliyi ilə bağlı müzakirələr aparıldı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan BMT-nin davamlı inkişafa aid gündəliyinin irəli aparılmasında fəal üzvlərdən biri kimi bundan sonra da öz dəstəyini və töhfələrini verəcək.

Görüşdə Azərbaycanın 2026-cı ildə BMT sistemində ən vacib tədbirlərdən biri olan Ümumdünya Şəhərsalma Forumuna da evsahibliyi edəcəyi xüsusi vurğulandı.

Söhbət zamanı XI Qlobal Bakı Forumunun dünya gündəliyində duran məsələlərin müzakirəsi baxımından rolu qeyd edildi.

## Qarşılıqlı rəsmi səfərlər əlaqələrimizin möhkəmlənməsinə xidmət edir

### Azərbaycan Prezidenti İlham Əliyev Albaniya Prezidenti Bayram Beqay ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, Prezident İlham Əliyevin Albaniyaya dövlət səfərinin, Prezident Bayram Beqayın isə ölkəmizə rəsmi səfərinin əlaqələrimizin möhkəmlənməsində rolu qeyd edildi. Bu ilin martında Albaniyanin Baş naziri Edi Ramanın ölkəmizə səfərinin əhəmiyyətinə toxunuldu.

Söhbət zamanı "Cənub qaz dəhlizi"nin fəaliyyəti və bu layihənin enerji təhlükəsizliyinin təmin olunmasında rolu bir daha qeyd edildi. Azərbaycan tərəfindən Albaniyaya investisiya qoyuluşu məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə əlaqələrimizin inkişafında müsbət dinamizm məmnunluqla vurğulandı.

Söhbət zamanı XI Qlobal Bakı Forumunun beynəlxalq əməkdaşlığın güclənməsi işinə xidmət etdiyi qeyd olundu.

## Azərbaycan Bosniya və Herseqovina ilə əməkdaşlığın inkişafında maraqlıdır

### Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü Jelka Tsviyanoviçi qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü Jelka Tsviyanoviçi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Jelka Tsviyanoviç İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi və fəaliyyətində uğurlar arzuladı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Bosniya və Herseqovinaya ötən il rəsmi səfərini və səfər zamanı aparılmış müzakirələri məmnunluqla xatırladı.

Görüşdə ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə inkişafından məmnunluq ifadə olundu. Azərbaycanın Balkan regionu ilə əlaqələrinin, bu xüsusda Bosniya və Herseqovina ilə əməkdaşlığının inkişafı xüsusi qeyd edildi. Ölkələrimiz arasında enerji, investisiyalar, nəqliyyat, logistika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı XI Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu. Jelka Tsviyanoviç bu tədbirdə çox aktual məsələlərin müzakirə olunduğunu vurğuladı.

## "COP29-un uğurla keçirilməsi üçün Böyük Britaniya Azərbaycanın yanında olacaq"

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident Əliyev.

XI Qlobal Bakı Forumu münasibətilə Sizi təbrik edirəm.

Bu forum əhəmiyyətli bir dönəmdə keçirilir. Bakı noyabrda COP29-a evsahibliyi edəcək və bütün dünyanın diqqəti heç vaxt olmadığı qədər Azərbaycana yönələcək. Bilirəm ki, ölkəniz bu çağırışın öhdəsindən layiqincə gələcək və ənənəvi qonaqpərvərliklə mükəmməl tədbir təşkil edəcəksiniz.

Dubayda COP28 çərçivəsində keçirilmiş qlobal dəyərləndirmə təcili fəaliyyətə ehtiyac olduğunu nümayiş etdirdi. Bu il razılaşdırdığımız iddialı öhdəliklərin həyata keçirilməsi baxımından diqqət Azərbaycanın üzərində olacaq. Biz birlikdə mərhələli şəkildə yanacaq enerji növlərindən və davamlı kömür istifadəsindən imtina yolu ilə enerji keçidlərini irəlilətməli və qlobal tullantıları azaltmalıyıq. Biz həmçinin həssas ölkələrin iqlim dəyişmələrinə dayanıqlılığını artırmağa davam etməliyik. Neft və qaz hasilatçısı olan Böyük Britaniya qlobal istiləşməni 1,5 dərəcəyə qədər məhdudlaşdırmağa dair Paris öhdəliyinə əməl edərək xalqlarımızın və planetimizin gələcəyini təmin edəcək ədalətli enerji keçidi kursunun təyin olunmasının zəruriliyini başa düşür.

COP29-da maliyyə mənbələrinə diqqət yetiriləcək. İqlim dəyişmələri ilə mübarizə üçün milyardlardan trilyardlara keçmək məqsədilə iqlimin maliyyələşdirilməsi üzrə kollektiv kəmiyyət hədəfinə dair konsensusa nail olmaq istiqamətində müsbət nəticə əldə etməliyik. Böyük Britaniya hər bir COP tədbiri zamanı əvvəlki illə müqayisədə daha iddialı hədəflərin qarşıya qoyulması üçün Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri və Braziliya ilə əlaqələndirilmiş şəkildə fəaliyyət göstərmək imkanını alqışlayır. Biz bu tədbirə hazırlıq mərhələsində COP26-nın Qlazqoda keçirilməsi ilə bağlı əldə etdiyimiz təcrübəni Azərbaycanla bölüşməyə hazırıq.

Azərbaycan bütün dünyada yüksək qiymətləndirilən ticarət yolları üzərində yerləşir. Böyük Britaniya Xəzər dənizindən Mərkəzi Asiyaya və Türkiyədən Qara dənizə və Avropaya yeni bağlantıların açılmasına dəstək verməyə davam edəcək. Bugünkü Qlobal Bakı Forumunda Sizin qonaqlarınız BMT-nin Nizamnaməsində təsbit olunmuş ortaq təhlükəsizliyimizi və firavanlığımızı müdafiə edən, həmçinin bu gün bir çox tərəflərdən təzyiqlərə məruz qalan həmin ümumi prinsiplər və dəyərlər barədə düşünə bilərlər.

Azərbaycan öz gələcəyinin keçid mərhələsindədir. Bu dönəmdə Sizin Ermənistanla onilliklərlə davam edən münaqişəyə son qoymağınız üçün tarixi şansınız var. Dünya Sizin dekabr ayındakı birgə bəyanatınızı alqışladı; bu ilin noyabrında Bakıya gələrək sülh sazişi imzalamaq, Cənubi Qafqaz ölkələrinin iqlim və enerji, su və ərzaq təhlükəsizliyi kimi ortaq çağırışlara qarşı birlikdə mübarizə aparmaq öhdəliyini qəbul etmələri çox yaxşı olardı.

Belə fürsətlərin açıq qalacağını və ya yenidən olacağını deyə bilmərik. Bəziləri hamının maraqlarına xidmət edən, əziyyətlə qazanılmış sülh və əməkdaşlıq əvəzinə, dünyanı yenidən silahlı münaqişəyə və rəqabətə sürükləməyi üstün tutur. Dünyanın bu həssas və qeyri-müəyyən dönəmində biz Azərbaycanın sabitliyi və müəyyənliyi təmin edəcək fürsətdən faydalanmasını gözləyirik.

Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələr ortaq maraqlarımız, qarşılıqlı firavanlıq və təhlükəsizlik naminə dərinləşməyə və genişlənməyə davam edir. 2024-cü ilin sonunda COP29-un uğurla keçirilməsi üçün Böyük Britaniya Azərbaycanın yanında olacaq. Ümid edirəm ki, o vaxtadək Siz Ermənistanla davamlı sülhə nail olacaqsınız və biz iki ölkə arasında tərəfdaşlıq, əməkdaşlıq üçün yeni dövrü alqışlaya biləcəyik. Hamınıza məhsuldar müzakirələr arzulayıram.

*Hörmətlə,*

***Rişi SUNAK,***
***Böyük Britaniyanın Baş naziri***

## *BMT-nin nümayəndəsi:* "Azərbaycan qaçqın və məcburi köçkün problemi ilə mübarizədə nümunəvi ölkələrdən biridir"

**Martın 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Qaçqınlar üzrə Ali Komissarının müdafiə məsələləri üzrə köməkçisi Ruvendrini Menikdivela ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK) ilə əməkdaşlıqdan irəli gələn məsələlər, habelə regionda cari vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin humanitar nəticələrinin aradan qaldırılması, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması istiqamətində BMTQAK ilə həyata keçirilən birgə layihələrin əhəmiyyətini qeyd edib.

Qarşı tərəf postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri barədə məlumatlandırılıb.

Vətəndaşlarımızın işğaldan azad olunmuş ərazilərə ləyaqətli qayıdışının təmininə istiqamətlənən "Böyük Qayıdış" Proqramının ölkəmiz üçün əsas prioritetlərdən biri olduğunu qeyd edən Ceyhun Bayramov ölkəmizin BMTQAK ilə bir sıra istiqamətlərdə əməkdaşlığın davam etdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Nazir həmçinin COP29-a hazırlıq işləri ilə bağlı qarşı tərəfi məlumatlandıraraq, bu tədbir çərçivəsində BMTQAK ilə bir sıra birgə tədbirlərin təşkilinin mümkün olduğunu bildirib.

Ruvendrini Menikdivela Azərbaycanın qaçqın və məcburi köçkün problemi ilə mübarizədə nümunəvi ölkələrdən biri olduğunu vurğulayıb, bu istiqamətdə hazırkı postmünaqişə dövründə BMTQAK-ın məcburi köçkünlərin qayıdışı çərçivəsində mümkün dəstəyi göstərməyə hazır olduğunu diqqətə çatdırıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

## "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsi üçün Ev Sahibi Ölkəyə dair Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2023-cü il dekabrın 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsi üçün Ev Sahibi Ölkəyə dair Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2024-cü il*

## "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 704 (Cild I) 2-ci hissəsinə "Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini".

2. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 371 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 511 (Cild I) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"ın 4.4-cü bəndinin "İcraçı orqan" sütununda "Milli Elmlər Akademiyasının" sözləri "Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 485 (Cild I) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. II hissənin 2-ci bəndinin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununa (hər iki halda) "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

3.2. III hissənin 7-ci və 8-ci bəndlərinin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununa "Milli" sözündən əvvəl "Elm və Təhsil Nazirliyi," sözləri əlavə edilsin;

3.3. IV hissə üzrə:

3.3.1. 12-ci və 14-cü bəndlərin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununa "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

3.3.2. 15-ci, 16-cı, 17-ci və 19-cu bəndlərin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununa "Milli" sözündən əvvəl "Elm və Təhsil Nazirliyi," sözləri əlavə edilsin.

4. "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1011 (Cild I) 2.10-cu bəndində "Milli Elmlər Akademiyası" sözləri "Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.7-ci bəndində "Milli Elmlər Akademiyası" sözləri "Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

6. "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 17 iyul tarixli 690 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 699 (Cild I) 1.2-ci və 1.3-cü bəndlərində "Milli Elmlər Akademiyası" sözləri "Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

7. "Azərbaycan Respublikasında geologiya, paleontologiya, mineralogiya və fauna üzrə Təbiət Tarixi Muzeyinin yaradılması Konsepsiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 oktyabr tarixli 294 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1179 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 3.3-cü bənddə "Milli Elmlər Akademiyası nəzdində" sözləri "Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin;

7.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında geologiya, paleontologiya, mineralogiya və fauna üzrə Təbiət Tarixi Muzeyinin yaradılması Konsepsiyası"nın 6.4-cü bəndinin birinci cümləsində "Milli Elmlər Akademiyası" sözləri "Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

8. "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1009 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1370 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.3-cü bənddən "22.2-ci," sözləri çıxarılsın;

8.2. aşağıdakı məzmunda 2.3-5-ci bənd əlavə edilsin:

"2.3-5. həmin Qanunun 22.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir;".

9. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 21-ci hissəsinin "Dövlət orqanının (qurumunun) adı" sütununda "Milli Elmlər Akademiyası" sözləri "Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I) ilə təsdiq edilmiş Əlavə 2 - "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 18.13-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 18.14-cü bənd əlavə edilsin:

"18.14. Milli Azərbaycan Tarixi Muzeyinin direktoru.";

10.2. aşağıdakı məzmunda 20-1-ci hissə əlavə edilsin:

"20-1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üzrə:

20-1.1. Geologiya və Geofizika İnstitutunun direktoru;

20-1.2. Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru.";

10.3. 38.2-ci, 38.3-cü, 38.5-ci və 38.8-ci bəndlər ləğv edilsin.

11. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 2.0.9-cu yarımbəndində "Milli Elmlər Akademiyası" sözləri "Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 mart 2024-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 1001 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"na "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini - gömrük xidməti general-leytenantı" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Aparatının rəhbəri - gömrük xidməti general-mayoru".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 mart 2024-cü il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Seçkilərdə qələbəniz münasibətilə Sizi təbrik etməkdən böyük məmnunluq duyuram. Bu, Sizin Azərbaycana və xalqınıza çox uğurlu xidmətinizin və liderliyinizin təsdiqidir.

Sizinlə Londonda görüşməyimi və ya ən yaxın zamanda Azərbaycana səfər etməyimi səbirsizliklə gözləyirəm.

Müqəddəs Ramazan ayının başlaması münasibətilə Zati-alinizə və xanım Mehriban Əliyevaya ən xoş arzularımı çatdırıram. Sizə və Azərbaycan xalqına Allahdan firavanlıq və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***Baronessa Manzila UDDİN,***
***Böyük Britaniya parlamentinin Lordlar Palatasının və Azərbaycanla dostluq qrupunun üzvü***

## Baş nazir Əli Əsədov Albaniya Prezidenti Bayram Beqay ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 14-də ölkəmizdə səfərdə olan Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə XI Qlobal Bakı Forumunun əhəmiyyəti vurğulanıb, Albaniya Prezidentinin tədbirdə iştirakı yüksək qiymətləndirilib.

İki ölkə arasında münasibətlərin inkişaf dinamikasından məmnunluq ifadə olunub. Azərbaycan və Albaniyanın beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli əməkdaşlıq etdiyi vurğulanıb. Azərbaycanın Albaniyada, Albaniyanın isə Azərbaycanda səfirliklərinin açılması ilə bağlı verilən qərarlar ikitərəfli əlaqələrin yüksək səviyyəsinin təzahürü kimi dəyərləndirilib.

Görüşdə cari ayın əvvəlində Albaniya Baş nazirinin Azərbaycana səfəri çərçivəsində imzalanmış iqtisadi əməkdaşlıq haqqında hökumətlərarası Sazişin ticarət-iqtisadi və investisiyaların təşviqi sahələrində əlaqələrin inkişafına təkan verəcəyinə ümidvarlıq ifadə olunub. Enerji sahəsində əməkdaşlığın müsbət nəticələri və bu kontekstdə TAP layihəsinin əhəmiyyəti xüsusi vurğulanıb, Azərbaycan qazının Avropaya təchizatında Albaniyanın tranzit ölkə kimi rolu yüksək qiymətləndirilib.

Turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi qeyd olunub.

Söhbət zamanı iki ölkə arasında əlaqələrin qarşılıqlı maraq doğuran sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

## Azərbaycanın Baş naziri Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 14-də Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə müasir dünyanı narahat edən məsələlərin müzakirəsi üçün nüfuzlu platforma olan XI Qlobal Bakı Forumunun əhəmiyyəti vurğulanıb. Forumun panellərindən birinin səhiyyə məsələlərinə həsr olunması xüsusilə qeyd edilib. Azərbaycan Respublikası ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında uzunmüddətli səmərəli əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub.

Baş nazir Əli Əsədov Azərbaycanda səhiyyə sistemində aparılan köklü islahatlar barədə məlumat verib. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş dövlət siyasətinin prioritetlərindən biri səhiyyənin inkişafı, əhalinin dünya standartlarına uyğun keyfiyyətli və əlçatan tibbi xidmətlərlə təmin olunmasıdır.

Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən proqram və layihələrin Ümumdünya Səhiyyə Təşkilatının prioritet istiqamətləri və BMT-nin Davamlı İnkişaf Məqsədləri ilə üst-üstə düşdüyü vurğulanıb.

Həmçinin Azərbaycan Respublikası ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Görüşdə Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev də iştirak edib.

## Baş nazir Əli Əsədov BMT-nin İİV/QİÇS üzrə Birgə Proqramının icraçı direktoru ilə görüşüb



**Martın 14-də Baş nazir Əli Əsədov BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu/Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru Vinni Byanyima ilə görüşüb.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib. Görüşdə V.Byanyimanın XI Qlobal Bakı Forumunda iştirakının önəmi qeyd olunub. Azərbaycanın BMT-nin müxtəlif təsisatları, ö cümlədən UNAIDS ilə yaxından əməkdaşlıq etdiyi və onların fəaliyyətini dəstəklədiyi vurğulanıb.

İİV/QİÇS ilə mübarizənin Azərbaycanın milli səhiyyə strategiyasının əsas istiqamətlərindən biri olduğu bildirilib.

Diqqətə çatdırılıb ki, 2006-cı ildən başlayaraq Nazirlər Kabineti tərəfindən hər 5 illik dövr üçün İİV/QİÇS ilə mübarizə üzrə Tədbirlər Proqramı qəbul edilir. Proqramların hazırlanması Ümumdünya Səhiyyə Təşkilatı, UNAIDS və Qlobal Fondun tövsiyələri əsasında və onların dəstəyilə həyata keçirilir.

Qeyd edilib ki, görülən tədbirlər nəticəsində Azərbaycan yoluxma səviyyəsi aşağı olan ölkələr sırasında yer alıb.

Tərəflər həmçinin Azərbaycan Respublikası ilə UNAIDS arasında əməkdaşlıqla bağlı məsələləri nəzərdən keçiriblər.

Görüşdə Azərbaycanın səhiyyə naziri Teymur Musayev də iştirak edib.

# XI Qlobal Bakı Forumu

## Forum işini panel iclaslarla davam etdirib










**Martın 14-də XI Qlobal Bakı Forumu açılış mərasimindən sonra işini "Parçalanmış dünyanın bərpası" mövzusunda panel iclasla davam etdirib.**

AZƏRTAC xəbər verir ki, birinci panel iclasına İsveçrə Beynəlxalq İşlər üzrə Forumun vitse-prezidenti David Cikvadze moderatorluq edib.

O bildirib ki, Azərbaycan Qələbədən sonra prezident seçkilərində çox müdrik seçim edib. Moderator eyni zamanda dünyada gərginliyin olduğu bir vaxtda Azərbaycanda sabitliyin hökm sürdüyünü vurğulayıb.

"Parçalanan dünyanın bərpası istiqamətində səylərimizi əsirgəməyəcəyik. Dünyada münaqişələr canlanmaqdadır. Bütün beyin mərkəzlərini bir araya gətirərək müzakirələr aparmalıyıq. Tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir. XI Qlobal Bakı Forumunda bu mövzular geniş müzakirə olunacaq", - deyə David Cikvadze qeyd edib.

Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti Kerri Kennedi Qlobal Bakı Forumunun yeni üfüqlər açdığını söyləyib. Bildirib ki, dünyanı xilas etmək üçün düşüncə tərzi dəyişməlidir.

O qeyd edib ki, Robert F.Kennedi İnsan Hüquqları Fondu bərabərsizliyə, haqsızlığa qarşı hər zaman səsini ucaldır.

"Biz hüquqların bərabər olmasına nail olmalıyıq, həmçinin yoxsulluğun, bütün bu təlatümlərin öhdəsindən birgə gəlməliyik. Biz güclərimizi birləşdirməliyik", - deyə K.Kennedi əlavə edib.

Panel iclasında çıxış edən Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi, Birləşmiş Millətlər Təşkilatı Baş katibinin keçmiş müavini, Çinin Almaniyadakı sabiq səfiri Vu Honqbo parçalanmış dünyanı bərpa etməyin ən uyğun yolunun bütün dünya insanlarının birləşməsi olduğunu deyib.

"Dünya parçalanır. Bunun qarşısını almağın yollarından biri müxtəliflikdir. Məlumdur ki, bir nəfərin yaratdığı problem yüzlərlə insana sirayət edir. Birləşmiş Millətlər Təşkilatı müsbət istiqamətdə bir sıra tədbirlər həyata keçirir. Ticarətin inkişafı vacib məsələlərdən biridir. Dünyanı bərpa edərək hər kəs bundan bəhrələnməlidir. Çünki yoxsulluq böyük təlatümlərə gətirib çıxara bilər. Mühit təmiz və aydın qurulmalıdır. İqtisadi təşkilatın qarşısında duran vacib məsələlər var. Dünya sülh və əmin-amanlıqla qurulmalıdır. Gələcək üçün bu, vacib amildir", - deyə xüsusi nümayəndə vurğulayıb.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib ki, Azərbaycan Cənubi Qafqaz regionuna sabitlik gətirdi. Azərbaycan-Ermənistan əlaqələrindəki istiləşməyə hamı şahiddir.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan Ermənistanla sülhün bərqərar edilməsində səylərini əsirgəmir. Azərbaycan heç bir parçalanmanın olmaması mühitində daha çox əməkdaşlığı təşviq edir. Azərbaycan öz öhdəliyinin üzərindən layiqincə gəlir. Cənubi Qafqazdakı təcrübəni dünyanın digər bölgələrinə yayılmasına çalışır.

H.Hacıyev qeyd edib ki, hələ də bir çox ölkələr COVID-19-un təsirinin qarşısını tam ala bilməyib. "Azərbaycan peyvəndlərin bərabər paylanması təşəbbüsü ilə çıxış etmişdi. Beynəlxalq təsisatların öhdəliklərini yerinə yetirməmələri qarşımızda duran problemlərdəndir. Beynəlxalq təsisatların, Avropa təşkilatlarının böhran yaşadığını görürük. Azərbaycan təşəbbüsləri ilə parçalanmış dünyanın bərpasına töhfəsini verəcək. Avropa təsisatları acınacaqlı vəziyyətdədir. Azərbaycan Avropa Parlamenti qarşısında heç bir öhdəlik daşımır. Azərbaycana qarşı mənfi hallarla rastlaşırıq", - deyə o əlavə edib.

Serbiyanın sabiq Prezidenti Boris Tadiç isə bildirib: "Yeni münaqişələrin qarşısını almağa çalışmalıyıq. Bütün vaxtımızı faciədə yaşamalı deyil, çıxış yolları axtarmalıyıq".

Təhsilin əhəmiyyətini qeyd edən sabiq prezident siyasətçilərin təlimatlanmasının vacibliyini vurğulayıb.

İspaniyanın sabiq xarici işlər naziri Ana Palasio isə deyib ki, qarşımızda duran əsas prioritetlərdən biri insanların hansı xalqdan, ölkədən olmasına baxmayaraq, azad yaşaması, iqtisadi imkanlardan bəhrələnməsidir. Biz artıq bir-birimizi anlamalıyıq. Fərqliliklər üzə çıxmalıdır.

İclasda çıxış edən BMT Baş Assambleyasının 75-ci Prezidenti, Türkiyə Böyük Millət Məclisinin üzvü Volkan Bozkır diqqətə çatdırıb ki, parçalanan dünyanın yenidən birləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Biz bilməliyik ki, bu parçalanmanın səbəbləri nələrdir. Qarşımızdakı problemlərin həllinə siyasi yollarla xidmət etməliyik. Biz bütün dünyanın bərpası üçün düzgün nizamlanma barədə düşünməliyik.

BMT-nin rolunun yenidən danışılmalı olduğunu deyən Volkan Bozkır qeyd edib: "BMT çox mühüm təsisatdır. Hazırda onu əvəz edəcək başqa bir qurum yoxdur. Onun təsisatları əzmkar şəkildə çalışırlar. Lakin BMT münaqişələrin sülh yolu ilə həllinə heç bir töhfə vermir. Bu isə təsisata olan etimadı itirir".

Ermənistan-Azərbaycan münaqişəsindən də bəhs edən Volkan Bozkır bildirib: "Münaqişələr sülh yolu ilə həll edilməsə, hər bir ölkə fərdi şəkildə yol axtaracaq. Fransa keçmiş Minsk qrupunun üzvü, Azərbaycanın dostu idi. Lakin Fransanın Ermənistana silah-sursat satması bu ölkəyə açıq dəstək idi".

BMT-nin Sivilizasiyalar Alyansının sabiq ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir vurğulayıb ki, hazırda dünyada xaos yaşanmaqdadır. Ksenofobiya, ayrı-seçkilik bizim cəmiyyəti bölür. Həyat, yaşam tərzi köklü şəkildə pisləşib. Addımlarımızı müharibədən daha çox sülhə doğru atmalıyıq. Bu, çox vacib elementdir. Addımlarımızın tərzini dəyişməliyik, daha çox yaradıcı tərəfdən yanaşmalıyıq. Ən önəmlisi isə odur ki, sülhlə bağlı həll yolları gündəmə gətirilməlidir.

Latviyanın sabiq Prezidenti Egils Levits Bakının zəngin keçmişə malik şəhər olduğunu söyləyib. O deyib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməsi üçün bu şəhər düzgün seçilmiş məkandır.

"İnanıram ki, bu mötəbər tədbir iqlim dəyişiklikləri ilə bağlı yeni müzakirələrə nəfəs gətirəcək və uğurla keçiriləcək", - deyə Egils Levits əlavə edib.

Qeyd edək ki, XI Qlobal Bakı Forumuna bir çox ölkələrin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Forumda 70-dən artıq ölkədən 350-dən çox qonaq iştirak edir.

Martın 16-dək davam edəcək forumda COP28-in nəticələri və COP29-a hazırlıq məqsədilə qlobal müzakirələr aparılacaq, yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, bölünmüş dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salınacaq, qarşıda duran çağırışların həlli yolları müzakirə olunacaq, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi problemlərinə toxunulacaq. Eyni zamanda qlobal idarəetmədə hərbi və iqtisadi ittifaqların rolu, regional perspektivlər, Avropa İttifaqı və onun qonşuları ilə münasibətləri, gənclər siyasəti, qlobal çağırışlara qarşı davamlılığı artırmağın yolları, qeyri-bərabərlik, təbii ehtiyatların azlığı və miqrasiya məsələlərinə toxunulacaq, süni intellekt, dronlar və kibersilahlar dövründə yeni təhlükəsizlik nümunələri barədə müzakirələr aparılacaq.

## Müharibə və sülh mövzusunda müzakirələr aparılıb




**Martın 14-də işə başlayan XI Qlobal Bakı Forumunun ikinci panel iclasında "Müharibə və sülh: Realpolitikin geri dönüşü" mövzusunda müzakirələr aparılıb.**

AZƏRTAC xəbər verir ki, panel iclasına Gürcüstanın Baş nazirinin sabiq müavini Eka Tkeşelaşvili moderatorluq edib.

Azərbaycanın idarəçilik, mürəkkəb bir vəziyyətdə manevr etmək bacarığı göstərdiyini deyən Eka Tkeşelaşvili ölkəmizin, eyni zamanda beynəlxalq səviyyədə də öz səylərini əsirgəmədiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan planetin gələcəyi ilə bağlı xüsusi töhfəyə malikdir.

Panel iclasında çıxış edən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü Jelka Tsviyanoviç bildirib ki, Ukrayna və Qəzzada olan müharibələr realpolitikin qayıdışının vacibliyini ortaya çıxarır. "Realpolitikin verdiyi fürsətlərdən yararlanmaq, boşluqları üzə çıxarıb beynəlxalq münasibətləri məqbul istiqamətə çəkməliyik. Beynəlxalq münasibətlər ona dəlalət edir ki, biz öz bacarıqlarımızı, potensial vərdişlərimizi gücləndirməli, təkcə mövcud vəziyyət üçün deyil, gələcək üçün də üfüqləri üzə çıxarmalıyıq. Burada maraqların toqquşması qeyri-sabitliyə yol açır. Beynəlxalq təşkilatlarda siyasəti elə qurmalıyıq ki, orada missiyaların yerinə yetirilməsinə nail olaq. Hazırda cəmiyyət ən çətin taleyüklü dövrünü yaşayır, fərdi və kollektiv seçim arasında qalmışıq. Buna görə narahatlığımızı ifadə edirik. Beynəlxalq aləmdə realpolitikin alətləri işlək olmalıdır, əks halda, hazırkı vəziyyət tənəzzülə səbəb olacaq və həmin tənəzzül daha da dərinləşəcək", - deyə o əlavə edib.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov çıxışında hazırkı beynəlxalq münasibətlər sistemində mövcud böhran və çağırışları anlamaq, habelə onlara cavab vermək üçün birinci növbədə müasir sistemin necə çalışdığını, eyni zamanda öncəki sistemlərdən necə fərqləndiyini düzgün başa düşməyin vacib olduğunu qeyd edib.

İllər öncə qlobal təhdidlərlə mübarizə üçün bir sıra mövcud alətlərin, o cümlədən beynəlxalq təşkilatların bu gün yalnız məhdud sayda ölkənin maraqlarının ifadə olunması ilə selektiv yanaşma nümayiş etdirməsinin sözügedən mexanizmləri qeyri-effektiv etməklə yanaşı, onlara inamın sarsılmasına gətirib çıxardığı vurğulanıb.

Müasir beynəlxalq münasibətlər sisteminin öz milli maraqları, narahatlıqları olan çoxsaylı müstəqil ölkələrdən, yerləşdikləri bölgədə regional aktor, habelə "orta dövlət"ə çevrilən aktorlardan ibarət olduğu reallığının dərk edilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Hazırkı beynəlxalq münasibətlər konyunkturunda mövcud beynəlxalq instrumentlərin özünü doğrultmaması fonunda ölkəmizin regional əməkdaşlığın inkişafına, xüsusilə qonşu dövlətlərlə tərəfdaşlığın möhkəmləndirilməsinə əhəmiyyət verdiyi vurğulanıb.

ABŞ Milli Təhlükəsizlik Şurasının Beynəlxalq təşkilatlar üzrə sabiq baş direktoru Hyu Duqan çıxışında bildirib ki, realpolitikdən irəli gələn idealizm daha çox tələyə oxşayır. Bu, dünyanı avtoritar rejimdə işləməyə məcbur edir.

Latviyanın sabiq Prezidenti Valdis Zatlers isə birtərəfli realpolitikin dəyişməli olduğunun vacibliyini diqqətə çatdıraraq deyib: "Bu, balanslaşdırılmış şəkildə olmalıdır. Realpolitiki balanslı şəkildə istifadə etməliyik".

Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri, Türkiyənin sabiq Baş naziri Binəli Yıldırım uğurla həyata keçirilən Bakı-Tbilisi-Qars layihəsinin İpək yolunun tərkib hissəsi olmaqla yanaşı, realpolitikin nəticəsi olduğunu diqqətə çatdırıb.

Həyata keçirilən layihə nəticəsində regionda savaş əvəzinə iqtisadi əməkdaşlıq yarandığını deyən B.Yıldırım qeyd edib: "Biz bu layihə ilə regiona sabitlik gətirdik. Bu, dünya miqyasında yaxşı bir nümunə ola bilər".

Azərbaycanın 30 il erməni təcavüzündən əziyyət çəkdiyini vurğulayan Binəli Yıldırım deyib: "Azərbaycanla həmrəyliyimizi nümayiş etdirdik. "Bir millət, iki dövlət" prinsipini rəhbər tutaraq əməkdaşlığımızı gücləndirdik. Beləliklə, Azərbaycanın ərazi bütövlüyünün bərqərar olmasında bütün siyasi iradəmizi nümayiş etdirdik. Artıq Qafqaz regionuna sülh, sabitlik və rifah gəlib. Biz də Cənubi Qafqazda sülhün bərqərar edilməsinin tərəfdarıyıq".

Çex Respublikasının sabiq xarici işlər naziri Jan Kavan qloballaşmanın münaqişələrə gətirib çıxardığını və onların bir-biri ilə bağlı olduğunu qeyd edib. Vurğulanıb ki, böyük güclərin bu prosesə qatılması mənfi haldır.

BMT Baş Assambleyasının 67-ci sessiyasının sədri, 2007-2012-ci illərdə Serbiya xarici işlər naziri Vuk Yeremiç bildirib ki, realpolitik hər zaman bizimlə olsa da, müxtəlif zamanda fərqli mənalar daşıyıb.

"BMT ilə bağlı suallar qarşımızda daim durmaqdadır. Biz BMT-ni fəaliyyətsizliyinə görə nə qədər tənqid etsək də, bu, çox mühüm təşkilatdır. Mən onun gələcəyinə inanıram. BMT-nin gücünü artırmalıyıq. Bu da özlüyündə dünyanın bərpasına gətirib çıxaracaq", - deyə V.Yeremiç əlavə edib.

Fransa Senatının üzvü Natali Qule beynəlxalq hüququn işləmədiyini, hər kəsin öz məqsədlərinə görə çalışdığını diqqətə çatdırıb. O, realpolitikin müəyyən lobbiçilik tərəfindən güdüldüyünü də vurğulayıb. N.Qule Fransada Azərbaycana qarşı toksik lobbiçiliyin olduğunu da diqqətə çatdırıb.

## Qlobal Bakı Forumunun üçüncü plenar iclası "Qlobal idarəetməni düzəltmək" mövzusuna həsr olunub

**Martın 14-də işə başlayan XI Qlobal Bakı Forumunun ilk günündə son "Qlobal idarəetməni düzəltmək" mövzusuna həsr olunub.**

AZƏRTAC xəbər verir ki, panel iclası Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumdziyanın moderatorluğu ilə keçirilib.

Tədbirdə çıxış edən İslandiyanın sabiq Prezidenti Olafur Ragnar Grimsson Bakıda olduğu vaxtda çox aydın çağırışlar eşitdiyini söyləyib. O, beynəlxalq ictimaiyyətin cavablarının düzgün səsləndirilməsini təqdirəlayiq hal kimi qiymətləndirib.

BMT-nin parçalanan dünya haqqında düşünmədiyini vurğulayan forum iştirakçısı qeyd edib: "Bizim əsas məqsədimiz indiki vəziyyətdə qarşıda duran çətinlikləri aradan qaldırmaqdır. Pozuntuların, ədalətsizliyin qarşısının alınması üçün tədbirlər görməliyik".

O, Avropa İttifaqının izolyasiya, millətçilik siyasətinin dözümsüzlüyə gətirib çıxardığını da diqqətə çatdırıb.

Avropa Mərkəzi Bankının sabiq prezidenti Jan-Klod Trişe çıxışında hazırda dünyada çox həssas dövr olduğunu deyib. Bildirib ki, bu da böhranların yaranmasına səbəb olur. "Biz hələ də onların fəsadlarını yaşamaqdayıq. Qarşıdakı böhranların öhdəsindən gəlmək üçün biz çox fəal işləməliyik.

BMT Baş Assambleyasının 73-cü sessiyasının prezidenti Maria Fernanda Espinoza isə vurğulayıb ki, bu gün biz iqlim dəyişiklikləri, yoxsulluq, təhlükəsizlik, müharibələrin alovlanması, bərabərsizlik, maliyyə böhranları kimi yeni çağırışlar meydana çıxır. Geosiyasi miqyas da dəyişib. Biz çoxqütblü dünyada yaşayırıq, güclər isə fərqli paylanıb. Hazırda beynəlxalq təsisatlar da tam şəkildə dəyişib. Buna BMT sistemi nümunəsində şahid olmaq mümkündür. Qarşımızda duran əsas məsələlərdən biri pessimizmdir. Biz ağıllı nikbinlik sərgiləməliyik. Həmçinin gələcək üçün yol xəritəsi hazırlamalıyıq.

Nobel Sülh mükafatı laureatı Məhəmməd Yunus dünyanın özü-özünü dağıtdığını və bu sistemin bərpasının təhlükəli olduğunu diqqətə çatdırıb. O deyib: "Dünyanı düzəltmək bizim əlimizdədir. Bunun üçün biz birləşməliyik, yeni iqtisadiyyat formalaşdırmalıyıq".

BMT-nin Qaçqınlar üzrə Ali Komissarının müdafiə məsələləri üzrə köməkçisi Ruvendrini Menikdivela dünyada qaçqın və məcburi köçkünlərin sayının 100 milyondan çox olduğunu, bunun əsasən müharibələr, böhranlar, münaqişələr, fəlakətlər səbəbindən baş verdiyini diqqətə çatdırıb. Əksər qaçqınlar Afrikadan axın edir. Ölkələrini tərk etmək məcburiyyətində qalanların 60 faizi azgəlirli ölkələrdəndir. İlk növbədə qaçqın və məcburi köçkünlərin doğma torpaqlarına qayıtmasına çalışmalıyıq. Qaçqın və məcburi köçkünlərin sayının ilbəil artması beynəlxalq yardımın paylanmasına da mənfi təsir göstərir.

BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösi qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının özü də bir problemə çevrilib. "Təhlükəsizlik Şurası da vəzifələrlə yüklənir. Biz strateji planlar baxımından kasadıq. Bu da təhlükəli vəziyyətə gətirib çıxarır", - deyə o əlavə edib.

İsveçrə Konfederasiyasının sabiq Prezidenti Mişelin Kalmi-Reyin sözlərinə görə, dünyanın dəyişməsi böyük güclərdən asılıdır. "Biz bu gün ikili standartlarla üzləşirik. Böyük güclər hərbi düşüncəli olaraq öz iqtisadi maraqlarını güdür", - deyə sabiq Prezident bildirib.

Mişelin Kalmi-Rey BMT Baş Assambleyasının bir çox problemin həllini tapa bilmədiyini vurğulayaraq deyib: "BMT cari işlərin öhdəsindən gələ bilmir. Bunun həlli üçün biz ümumi razılığa gəlməliyik".

Bununla da XI Qlobal Bakı Forumunun ilk gününün müzakirələri başa çatıb.

# XI Qlobal Bakı Forumu

## "Nizami Gəncəvi Beynəlxalq mükafatı"nın təqdimetmə mərasimi keçirilib

**Martın 14-də Azərbaycan Respublikası Prezidentinin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə işə başlayan XI Qlobal Bakı Forumu çərçivəsində "Nizami Gəncəvi Beynəlxalq mükafatı"nın təqdimetmə mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, tədbirə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqa və İsmayıl Serageldin, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, XI Qlobal Bakı Forumunun iştirakçısı olan nüfuzlu şəxslər qatılıblar.










Avropa Mərkəzi Bankının sabiq prezidenti Jan-Klod Trişe və Münxen Təhlükəsizlik Konfransının sabiq sədri Volfqanq İşinger Qlobal Bakı Forumunun əhəmiyyətini qeyd edib, tədbirin təşkilinə görə Azərbaycana və Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar Qlobal Bakı Forumunda dünyanı narahat edən problemlərin müzakirə olunduğu və onların həlli yolları ilə bağlı fikir mübadilələrinin aparıldığını bildiriblər.

Onlar "Maliyyə böhranından necə çıxmalı" mövzusuna toxunub, mülahizələrini səsləndirib, sabitliyin qorunması üçün maliyyə böhranının aradan qaldırılmasının vacibliyini vurğulayıblar.

Sonra "Nizami Gəncəvi Beynəlxalq mükafatı"nın 2024-cü il üzrə qaliblərinin adı açıqlanıb.

Beynəlxalq mükafata Albaniya Prezidenti Bayram Beqay, Avropa Mərkəzi Bankının sabiq prezidenti Jan-Klod Trişe və Münxen Təhlükəsizlik Konfransının sabiq sədri Volfqanq İşinger layiq görülüblər.

Mükafatçılar təltif olunmalarından fəxr və qürur hissi keçirdiklərini, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin gördüyü nəcib işlərdə ona hər zaman dəstək göstərəcəklərini vurğulayıblar. Qeyd edək ki, "Nizami Gəncəvi Beynəlxalq mükafatı" 2012-ci ildə təsis edilib. Mükafat böyük Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində təbliğ etdiyi ümumbəşəri dəyərləri özündə cəmləşdirən çox görkəmli şəxsiyyətlərə və qurumlara təqdim olunur.

## Prezident İlham Əliyevin XI Qlobal Bakı Forumundakı çıxışı dünya mediasının diqqət mərkəzində olub

**Bakıda keçirilən "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu dünya mediasının diqqət mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, müxtəlif ölkələrin mətbu orqanlarında Azərbaycan Prezidenti İlham Əliyevin forumdakı çıxışından sitatlar verilib.

Rusiyanın "News.ru" nəşri Prezident İlham Əliyevin Fransanın Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinə qeyri-adekvat reaksiyasını pisləməsindən yazıb. Sayt dövlətimizin başçısına istinadla qeyd edib: "Burada beynəlxalq reaksiya haqqında danışarkən mən bir ölkənin mövqeyini təəssüflə qeyd etməliyəm. Bu mövqe beynəlxalq ictimaiyyətin yanaşması ilə ziddiyyət təşkil edir. Bu ölkə Fransadır".

"Vestnik Qafqaza" agentliyi Azərbaycan Liderinin "İndi biz Ermənistanla heç vaxt olmadığımız qədər sülhə yaxınıq. Cənubi Qafqazın müstəqillik tarixində heç vaxt sülh bu qədər yaxın olmayıb" fikirlərini önə çıxararaq, Fransanın regionda sülhün bərqərar olması prosesinə maneə törətdiyini vurğulayıb. Prezident İlham Əliyevin forumda çıxışına həsr olunmuş materialda həmçinin bildirilir ki, rəsmi Bakı ermənilərin birtərəfli qaydada Qarabağa qayıtmaları ilə razılaşmır. Nə qədər ki, Makron erməni revanşizmini dəstəkləyir, Fransa vasitəçi statusuna namizəd ola bilməz və beləliklə, Aİ-nin Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması prosesində iştirakı şansı azalır.

TASS, "RBK" agentlikləri, "Arqumentı i faktı", "Lenta.ru", "Qazeta.ru" və digər nəşrlər Azərbaycan Prezidentinin çıxışında sülhə çağırışların olmasından yazıblar. Dövlətimizin başçısının Azərbaycanın Qarabağ məsələsi öz həllini tapdıqdan sonra sülh prosesini davam etdirməyə hazır olması və indi regionda düşmənçiliyə son qoymaq vaxtının yetişməsi barədə dediklərini oxuculara çatdırıblar.

Dövlətimizin başçısının forumun açılış mərasimindəki çıxışı İran mətbuatının da diqqət mərkəzində olub. Bu ölkənin "Tasnim", İSNA, "Hayat", "Donya-e-eqtesad". "Shahrarnews" saytlarında yayımlanan materiallarda Azərbaycan Prezidentinin regionda sülh və sabitliyin yaradılması istiqamətində iş apardığı qeyd olunur. Dövlətimizin başçısının "İndi biz Ermənistanla heç vaxt olmadığımız qədər sülhə yaxınıq" fikrinə diqqət çəkən media qurumları Azərbaycan Prezidentinin sülh danışıqlarını davam etdirməyə hazır olduğunu bildirdiyini qeyd ediblər.

Məqalələrdə eyni zamanda diqqətə çatdırılır ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən forum rəsmi Bakının sülhməramlı niyyətindən xəbər verir.

Vurğulanır ki, Qlobal Bakı Forumu 2013-cü ildən Beynəlxalq Nizami Gəncəvi Mərkəzinin təşkilatçılığı ilə keçirilir. Onların arasında tanınmış siyasi, mədəniyyət, elm xadimləri var. Forumun işinə 80-dən çox sabiq prezident və Baş nazir qatılıb.

Forumda dünyanı narahat edən problemlər və onlardan çıxış yolları müzakirə olunur. Müasir dövrdə geosiyasi gərginliyin artdığı bir zamanda belə tədbirlər olduqca əhəmiyyətlidir.

Prezident İlham Əliyevin XI Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışı Ukraynanın kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb.

"TCN.ua", "Antikor", "Yevropeyska Pravda", "Kurs Ukraini", "Pravda", "Ren.tv", "Ukr.net" və digər xəbər saytlarında dərc olunan məqalələrdə dövlətimizin başçısının forumun açılışındakı çıxışında Ermənistanla sülh danışıqlarına dair fikirləri yer alıb. Prezident İlham Əliyevin sitatına istinadla qeyd edilib ki, indi Azərbaycan Ermənistanla sülhə heç vaxt görünmədiyi qədər yaxındır. "Cənubi Qafqazda müstəqillik tarixində sülh bu qədər yaxın olmamışdır. Bu da İkinci Qarabağ müharibəsinin nəticəsidir", - deyə məqalələrdə Azərbaycan Prezidentinin fikirlərinə istinadla vurğulanıb.
















Daha sonra dövlətimizin başçısının fikirlərinə istinadla qeyd olunub ki, Bakı İrəvanla sülh prosesini davam etdirməyə hazırdır. Hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində görüşlər bərpa olunub. Azərbaycan sülhün əldə olunmasını istəyir. Azərbaycan tarixi ədaləti və beynəlxalq hüququ bərpa edib. Bu regionda düşmənçiliyə son qoymağın vaxtı çatıb.

Bundan başqa, qardaş Türkiyə mediasında da Prezident İlham Əliyevin forumun açılış mərasimində söylədiyi fikirlərə geniş yer verilib.

Anadolu Agentliyi, "TRT", "Hürriyet", "Haber Türk", "Haber Global", "Sondakika.com", "Akşam" və bir sıra digər media qurumları dövlətimizin başçısının fikirləri əsasında informasiyalar hazırlayıblar.

Anadolu Agentliyində dərc olunan xəbərdə Azərbaycan Prezidentinin bu fikirləri yer alıb: "İndi biz Ermənistanla heç vaxt olmadığımız qədər sülhə yaxınıq. Cənubi Qafqazın müstəqillik tarixində heç vaxt sülh bu qədər yaxın olmayıb".

Azərbaycan Prezidentinin çıxışının geniş işıqlandırıldığı xəbərdə dövlətimizin başçısına istinadla qeyd edilib: "Sonuncu antiterror əməliyyatı zamanı bizim ağır texnika və zirehli maşınlar da daxil olmaqla məhv edilmiş və qənimət olaraq götürülmüş hərbi sursatların dəyəri bir milyard dollara yaxın olmuşdur. İkinci Qarabağ müharibəsi zamanı hərbi qənimətlər və məhv edilmiş texnikanın, sursatın dəyəri 5 milyard dollara yaxın idi", "Biz tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik və indi regionda düşmənçiliyə son qoymaq vaxtı yetişib". Eyni zamanda Prezident İlham Əliyevin tədbir iştirakçılarına Fransanın Azərbaycana qarşı mövqeyi, sanksiya cəhdləri və Evian şəhərində Natəvanın heykəlinə qarşı törədilmiş vandalizm aktları barədə məlumat verdiyi bildirilib.

"TRT" Azərbaycan Prezidentinin çıxışına dair xəbəri "Aliyev: Cənubi Qafqazda sülh bu qədər yaxın olmamışdır" sərlövhəsi ilə yayımlayıb.

Xəbərdə Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsinə aparan proseslər, bundan sonra həyata keçirilən antiterror tədbirləri, Azərbaycan torpaqlarının çoxillik işğalından sonra azad olunması ilə tarixi ədalətin bərpası, bu istiqamətdə uzun illər davam edən uğursuz danışıqlar prosesi, hazırda Azərbaycanın sülh prosesini davam etdirməyə hazır olduğu kimi fikirlər yer alıb.

Məqalənin "Fransanın bütün səyləri boşa çıxdı" yarımbaşlıqlı hissəsində dövlətimizin başçısının fikirlərinə istinadən Fransanın Azərbaycana qarşı nümayiş etdirdiyi qərəzli mövqedən, bu ölkədə Natəvanın heykəlinə qarşı törədilmiş vandalizm aktı və hazırda abidənin Azərbaycanın Mədəniyyət Mərkəzinin həyətinə yerləşdirilməsindən bəhs edilib.

"Hürriyet" qəzetində dərc olunan "Əliyevdən sülh mesajı" sərlövhəli yazıda dövlətimizin başçısına istinadla Azərbaycanın sülh prosesini davam etdirməyə hazır olduğu vurğulanıb, "Hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində görüşlər bərpa olunub və indi biz düşünürük ki, sülhə nail olmaq mümkündür. Biz bunu istəyirik", "...indi regionda düşmənçiliyə son qoymaq vaxtı yetişib" kimi fikirlər oxucuların diqqətinə çatdırılıb.

Məqalə "Sülhə daha yaxınıq", "Düşmənçiliyə son verməyin vaxtı yetişib", "Fransaya reaksiya" adlı yarımbaşlıqlarla yayımlanıb.

Qeyd olunub ki, Azərbaycan Prezidenti 1990-cı illərin əvvəllərində Fransa ilə Azərbaycan arasında münasibətlərin müsbət istiqamətdə inkişaf etdiyini, Fransa hökumətinin İkinci Qarabağ müharibəsinə və antiterror əməliyyatına reaksiyasının tamamilə qeyri-adekvat olduğunu bildirib.

"Haber Türk" saytında yayımlanan xəbərdə Prezident İlham Əliyevin XI Qlobal Bakı Forumundakı çıxışı zamanı hazırda Azərbaycanın Ermənistanla sülhə heç vaxt görünmədiyi qədər yaxın olduğu, Cənubi Qafqazda bərpa edilən ədalət, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, İkinci Qarabağ müharibəsində götürülmüş hərbi qənimətlər, onların dəyərinin beş milyard ABŞ dollarına yaxın olması, rəsmi Bakının regionda ədavətə son qoymaq, sülhə nail olmaq istiqamətində göstərdiyi səylər, Fransanın ölkəmizə qarşı qərəzli münasibəti kimi mövzulara toxunduğu bildirilib.

"Haber Global", "Sondakika.com", "Akşam" saytlarında Anadolu Agentliyinə istinadla dərc olunan yazılarda dövlətimizin başçısının İkinci Qarabağ müharibəsi, bu dövrə qədər uzun illər davam edən danışıqlar prosesi, antiterror tədbirləri, Azərbaycan torpaqlarının uzun illər işğal altında qalması, bölgədə tarixi ədalətin bərpası, Fransada Natəvanın heykəlinə qarşı törədilmiş vandalizm aktı ilə bağlı fikirlər yer alıb.

"Ekonomim", "İHA" və "Beyaz gəzet" portalları isə Azərbaycan Prezidentinin bu fikirlərini oxuculara çatdırıblar: "Bizim ərazi bütövlüyümüzün bərpasına gəldikdə, Fransa öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanı cəzalandırmağa çalışır", "İndi regionda düşmənçiliyə son qoymaq vaxtı yetişib", "Biz 2020-ci ilin sentyabr-noyabr aylarında onlara dərs vermək məcburiyyətində olduq və düşündük ki, bu dərs onlara kifayət edəcək", "Hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində görüşlər bərpa olunub və indi biz düşünürük ki, sülhə nail olmaq mümkündür. Biz bunu istəyirik", "...çünki 1990-cı illərin əvvəlindən Azərbaycan və Fransa arasında münasibətlər müsbət istiqamətdə inkişaf edib", "Lakin Fransa hökumətinin İkinci Qarabağ müharibəsinə və antiterror əməliyyatına münasibəti tamamilə qeyri-adekvat oldu" və sair.

XI Qlobal Bakı Forumunun ilk günü Türkiyənin televiziya kanallarında da geniş işıqlandırılıb.

Prezident İlham Əliyevin forumun açılış mərasimindəki çıxışı həmçinin Gürcüstanın aparıcı informasiya portallarının, radio və televiziyalarının diqqət mərkəzində olub.

"İnterpressnews.ge", "1tv.ge", "realnews.ge", "24news.ge", "interpress.ge", "radiotavisupleba.ge", "ambebi.ge", "newshub.ge" portallarının yaydığı materiallarda Azərbaycan Prezidentinin Qlobal Bakı Forumu, Ermənistanla sülh müqaviləsinin əhəmiyyəti və imkanlarla bağlı fikirləri yer alıb.

"İnterpressnews.ge" portalı Prezident İlham Əliyevin bu fikirlərinə diqqət çəkib: "İndi biz Ermənistanla sülhə heç vaxt görünmədiyi qədər yaxınıq. Cənubi Qafqazda müstəqillik tarixində sülh bu qədər yaxın olmamışdır. Bu da İkinci Qarabağ müharibəsinin nəticəsidir".

Yazıda həmçinin bildirilib ki, Azərbaycan Ermənistanla sülh danışıqlarını davam etdirməyə hazırdır, çünki regionda qeyri-sabitliyə son qoymağın vaxtı yetişib.

"1tv.ge" ictimai televiziyasının yaydığı məlumatda isə deyilir: "Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası həll olunmaz görünən münaqişələrin həlli üçün çoxlu müsbət nəticələr verəcək". Qeyd edilib ki, Cənubi Qafqaz regionunda baş verən dəyişikliklər yerli xarakterli görünə bilər, lakin, əslində, onların daha geniş nəticələri var, çünki son bir ildə əsas geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpası olub. "Bu, həll olunmayan kimi görünən münaqişələrin həlli üçün bir model olaraq istifadə edilə bilər. Cənubi Qafqazın müstəqillik tarixində heç vaxt sülh bu qədər yaxın olmayıb. Bu, İkinci Qarabağ müharibəsinin nəticəsidir", - deyə məlumatda vurğulanıb.

"RealNews.ge" portalı Azərbaycan Prezidentindən sitat gətirərək yazır ki, Fransada Natəvanın heykəlinə qarşı vandalizm aktı ikili standartların nümayişidir.

AZƏRTAC-a istinadla yayılan materialda deyilir: "Bir neçə ay sərf etməli olduq ki, həmin abidəni (Natəvanın vandalizm aktına məruz qalmış heykəlini - red.) Eviandan götürüb Azərbaycanın Mədəniyyət Mərkəzinin həyətinə gətirib orada yerləşdirək. Hazırda Natəvanın abidəsi oradadır.

Dövlətimizin başçısının çıxışına istinadla deyilir: "Bu, suverenliyimizi bərpa etdikdən sonra üzləşdiklərimizin bir nümunəsidir. Bu, ikili standartların göstəricisidir".

Fransanın Ukraynaya ərazi bütövlüyünü bərpa etməyə kömək üçün hərbi qüvvələrini göndərməsi ilə bağlı bəyanatına toxunan Prezident İlham Əliyev vurğulayıb ki, Fransa öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanı cəzalandırmağa çalışır.

Digər portalların Azərbaycan, gürcü və rus dillərində yaydıqları materiallarda ölkəmizin sülh çağırışları, dünya iqtisadiyyatına, mədəniyyətinə verdiyi töhfələr, eyni zamanda Ermənistanla sülh müqaviləsinin imzalanması, regionda sülhün və sabitliyin bərpa olunması üçün gördüyü işlər barədə oxuculara məlumatlar verilir.

Qeyd edək ki, XI Qlobal Bakı Forumuna dair materiallar, həmçinin Misir və Mərakeş portallarında da yayımlanıb.

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Avropa Parlamentinin "Avropa İttifaqı və Ermənistan arasında daha yaxın əlaqələr və Azərbaycanla Ermənistan arasında sülh sazişinə ehtiyac" adlı 2024-cü il 13 mart tarixli qətnaməsinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

**Avropa Parlamenti 2024-cü il martın 13-də qəbul etdiyi qətnamə ilə növbəti dəfə Azərbaycana qarşı olan açıq qərəzini nümayiş etdirib. Görünən odur ki, Avropa xalqlarının problemləri, qarşılaşdıqları çağırışlarla məşğul olmaq əvəzinə Avropa Parlamenti artıq tam şəkildə erməni lobbisinin, azərbaycanofob, islamofob, şovinist və irqçi qüvvələrin qanuni təmsilçisinə çevrilib.**

Avropa Parlamentinin ötən illər ərzində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini sözdə belə olsa tanımaqdan, dəstəkləməkdən inadla imtina etməsinin dəfələrlə şahidi olmuşuq. Lakin ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı aparılan indiki kampaniya Avropa Parlamentinin artıq riyakarlığı və ikiüzlülüyü də bir kənara qoyaraq, Azərbaycana qarşı birmənalı şəkildə hücuma keçdiyini göstərir.



Qətnamədə Azərbaycana qarşı səsləndirilən açıq təhdidlər və tələblər, tabutuna mismar vurulmuş separatçılara göstərilən aşkar dəstək və onları diriltmək cəhdləri, Ermənistanın şərti sərhəddəki hərbi təxribatlarının bilərəkdən görməzdən gəlinməsi, Fransanın Cənubi Qafqazda vəziyyəti gərginləşdirməyə çalışan addımlarının "orduya islahat dəstəyi" kimi qələmə verilməsi və digər bir çox məqamlar məhz bunun sübutudur.

Absurd olan başqa bir məsələ isə bundan ibarətdir ki, Avropa Parlamenti Azərbaycana qarşı bu hücumunu "sülh sazişinə ehtiyac" adı altında pərdələməyə cəhd edir. Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə danışıqların aparıldığı bir vaxtda tamamilə prosesin mahiyyətinə zidd olan bu qətnamə, əksinə, "sülh sazişinə zərbə" kimi xarakterizə olunmalıdır.

Avropa Parlamentinə bildiririk ki, onun belə "dəstəyinə" qətiyyən ehtiyac yoxdur və tövsiyə edirik ki, öz "səylərini" başqa istiqamətlərə yönəltsin.

## XİN: "Avropa Parlamentində qəbul edilmiş qətnamə ölkəmizə qarşı növbəti ikili standartın bariz nümunəsidir"

**"Martın 13-də Avropa Parlamentində qəbul edilmiş "Avropa İttifaqı və Ermənistan arasında daha yaxın əlaqələr və Azərbaycanla Ermənistan arasında sülh sazişinə ehtiyac" adlı qətnamə əsassız və qərəzli olmaqla yanaşı, ölkəmizə qarşı növbəti ikili standartların bariz nümunəsidir".**



AZƏRTAC xəbər verir ki, bu fikir Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Avropa Parlamentinin sözügedən qətnaməsinə dair şərhində yer alıb.

A.Hacızadə qeyd edib ki, Avropa Parlamentində Ermənistan və erməni lobbisinin təsiri altında olan bir sıra dairələr tərəfindən irəlilədilən bu qətnamə "sülhün təşviq edilməsi" kimi təqdim olunmasına və guya Avropa İttifaqı-Ermənistan münasibətlərinə həsr olunmasına baxmayaraq, Azərbaycana qarşı bütün faktların saxtalaşdırıldığı qarayaxma kampaniyasının tərkib hissəsidir.

"Qətnamədə beynəlxalq əlaqələrin mahiyyətinə zidd olaraq siyasi etik normalardan kənara çıxan cəfəng və təhqiramiz ifadələrin, eləcə də Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı açıq pozuntu dolu fikirlərin əks olunması qətnaməni irəli sürmüş Avropa Parlamenti üzvlərinin əsl mahiyyətini izah edir.

Avropa Parlamenti Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə müdaxilə əvəzinə Avropanı bürüyən daha ciddi problemlər, o cümlədən irqi ayrı-seçkilik, islamofobiya, ksenofobiya, ekstremizm və miqrantlara münasibətdə qeyri-insani davranış kimi məsələlərlə məşğul olsa daha faydalı quruma çevrilər.

Avropa Parlamenti üzvlərinin diqqətinə bir daha çatdırırıq ki, bəyan etdiyi dəyərlərlə heç bir əlaqəsi olmayan bu kimi qətnamələr Avropa Parlamentinin bir qurum kimi rolunu tamamilə heçə endirir", - deyə A.Hacızadə vurğulayıb.

# Ermənistan hər zaman buyruq qulu olub

## İndi Paşinyanın ritorikasını dəyişməsi də yeni "tapşırıq"ların nəticəsidir

**Məğlub Ermənistanın üç ildən artıq müddətdə təxribatlara əl atdığını, separatçıların baş qaldırmağa çalışdığını dəfələrlə müşahidə etmişik. Təbii ki, iqtisadi cəhətdən zəif, ordusu məhv edilmiş ölkənin belə addımlar atması həm erməni xislətinin, həm də havadarlarının "silahlandırma" dəstəyinin göstəricisidir.**

Ermənistan baş naziri Nikol Paşinyanın son çıxışı zamanı arxayın-arxayın danışması da bir daha göstərdi ki, Fransa artıq Hayastanı "istədiyi havaya oynadır".

Hər kəsə aydındır ki, Vətən müharibəsindən başlayaraq bu günə kimi üzərinə götürdüyü bütün öhdəliklərdən boyun qaçıran Ermənistan rəsmilərinin sülhlə bağlı çıxışları yeni təxribatlara hazırlanmaq üçün vaxt qazanmaqdan başqa bir şey deyil. Amma Azərbaycan hər şeyin fərqindədir, Ermənistanı da, onun havadarlarını da yaxşı tanıyır. Daim ona-buna sığınan Ermənistan məğlubiyyətini dərk edərək regionda sülhün, təhlükəsizliyin təmin olunmasında yaxından iştirak etməli, revanşist hərəkətlərindən əl çəkməlidir. Əks halda meydanda tək qalan o olacaq.

Milli Məclisin deputatı Vüqar İsgəndərov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyan Vətən müharibəsindən sonra Azərbaycanın təklif etdiyi sülh müqaviləsinin imzalanması



üçün sözdə razılıq bildirsə də, bununla bağlı işlərin görüləcəyini, hətta ötən ilin sonuna kimi sülh sazişinin baş tuta biləcəyini söyləsə də, əməldə bunun əksini göstərib: "Hər kəs görür ki, Paşinyan indiyə qədər üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyib. Bütün bunlar göstərir ki, bu ölkənin həm xarici, həm də daxili siyasətində müstəqillik yoxdur. Ermənistan himayədarlarının, daha doğrusu, ağalarının təklifləri əsasında hərəkət edir, onların tapşırıqlarını icra edir. Ən böyük problem budur".

Deputat qeyd edib ki, Paşinyanın son zamanlar çıxışlarında ritorikasını dəyişməsi həmin tapşırıqların nəticəsidir. O, qeyri-stabil siyasətlə, dediklərinin əksini etməklə, hər gün bir fikir söyləməklə müstəqil qərar qəbul etmək iqtidarında olmadığını açıq-aydın göstərir. Paşinyan kimlərinsə tapşırıqlarını icra edir və bu, Ermənistanın tarixboyu gəldiyi yoldur. Uzun illər Rusiyanın aləti kimi fəaliyyət göstərib, indi də özünə yeni havadarlar tapıb. Bu siyasətin daha da irəliləməsi onu deməyə əsas verir ki, Ermənistan özünü ikinci Ukrayna kimi hazırlayır. Bu isə Ermənistanın gələcəkdə bir dövlət kimi mövcudluğunu sual altında qoyur.

Azərbaycanın öz inkişaf yolunda olduğunu, işğaldan azad etdiyi bölgələri cənnətə çevirdiyini vurğulayan V.İsgəndərov bildirib ki, dövlətimiz xarici siyasətdə milli maraqlara söykənən mövqeyini müəyyənləşdirib. "Ona görə də indiki situasiyaya baxsaq, itirən yalnız Ermənistan olacaq. Daha da irəli getsə, vəziyyət pisləşəcək və bunu indiki Ermənistan hökuməti anlamalıdır", - deyə deputat əlavə edib.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Hayastanda separatizm yenə baş qaldırır

## Fransa bu ölkəni acınacaqlı vəziyyətə sürükləyir

**Ötən il cəmi 23 saata həyata keçirilən antiterror tədbirləri ilə məhv edilən, sentyabrın 28-də özünü buraxdığını elan edərək 2024-cü il yanvarın 1-dən fəaliyyətini tam dayandırdığını bildirən Qarabağdakı qondarma rejim son günlər Hayastanda yenidən baş qaldırmağa cəhd edir.**

Özü-özünü ləğv edən qondarma rejimin nümayəndələri indi də beynəlxalq aləmə çıxmağa çalışırlar. Onlar Ermənistanda fəaliyyət göstərən xarici ölkə səfirliklərinin nümayəndələri ilə görüşməyə təşəbbüs göstərirlər. Bununla da, əslində, özlərinin mövcud olduğunu göstərməyə çalışırlar. Özlərinə bu şəkildə ayrıayrı dövlətlərin, hansısa beynəlxalq qurumların nəzərində status qazanmağa can atırlar ki, guya onlar məcburiyyətdən belə bir addım atıblar.

Yəni erməni xisləti yenidən özünü göstərməyə başlayıb. Tarixin bütün dövrlərində analoji addımlar atan ermənilərin bu addımı təsdiqləyir ki, bir il öncə verilən "bəyanatlar" gözə kül üfürməyə xidmət etməkdən başqa bir şey olmayıb. Artıq İrəvanın Fransa meydanında separatçıların əski parçası yenidən görsənməyə başlayıb. Halbuki iki il əvvəl bu əski parçası tamamilə yığışdırılaraq tarixin arxivinə göndərilmişdi.

İndi yenidən separatçıların "baş qaldırması" onu deməyə əsas verir ki, Nikol Paşinyan hakimiyyəti onların fəaliyyəti üçün şərait yaradır. Əldə edilən məlumatlara əsasən, separatçılar fəaliyyət əhatəsini genişləndirərək Qərb təmsilçiləri ilə də görüşlərə can atırlar. Bütün bunların səbəbkarı isə Fransadır. Erməni lobbisinin təsir gücünə məruz qalan Fransa regionda "hegemonluq" etmək istədiyini açıq-aşkar göstərir. Fransa bu addımları ilə Rusiyanın zəifləməsindən istifadə edərək regiona daxil olmaq və Ermənistan vasitəsilə Cənubi Qafqazda möhkəmlənmək xülyasındadır.

Əslində, E.Makron yaxşı anlayır ki, Azərbaycan qarşısına məqsəd qoyub: sülh müqaviləsi imzalamaqla bölgədə təhlükəsizliyi təmin etmək və yeni reallıqlara uyğun iqtisadi əlaqələrin qurulması istiqamətində real işlər görmək.

Bununla yanaşı, Azərbaycan artıq bəyan edib ki, "Qarabağ problemi" adlı məsələ yoxdur, bu, 2020-ci ildə həllini tapıb və indi regionda yalnız yeni reallıqlar yaranıb. Fransa isə tam əksinə hərəkət edərək separatizmə verdiyi dəstəklə bölgəni yenidən savaş mərkəzinə çevirmək üçün əlindən gələni edir. Əgər rəsmi İrəvan orada baş qaldırmış erməni separatizmini dayandırmasa, Azərbaycanın da görəcəyi tədbirlər var.

Bir sözlə, Ermənistan hökuməti özünü üzdə sülh tərəfdarı kimi göstərir, pərdə arxasında isə separatçılara şərait yaradır. Fransa da bu prosesə dəstək verir. Əlbəttə ki, bu, ermənilərin özləri üçün ağır nəticələrə səbəb olacaq. Ermənistan bununla özünü çox ağır vəziyyətə salır. Əgər Ermənistan qondarma rejimi bu şəkildə diriltmək istəyirsə, onda Azərbaycanın cavabı ağır olacaq. Bu, təkcə Ermənistana deyil, Hayastanı acınacaqlı vəziyyətə sürükləyən Fransaya da dərs olacaq.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*



# Qərbdə islamofobiya tüğyan edir

**"Acınacaqlı haldır ki, hazırda islamofobiya özünü demokratik hesab edən bir sıra Qərb ölkələrinin dövlət siyasətinin tərkib hissəsini təşkil edir. Son bir ildə dünyada baş vermiş bütün antiislam təzahürlərinin 80 faizi bu ölkələrin payına düşür".**




Martın 8-də Bakıda keçirilən "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransın iştirakçılarına ünvanladığı məktubunda Prezident İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyanın bir çox ölkəsində antiislam siyasəti tüğyan edir. Xüsusilə də özünü "humanizm beşiyi" hesab edən Avropada islamofobiya meyilləri kəskin artıb və müsəlman aləminə qarşı aparılan bu çirkin kampaniya getdikcə daha nümayişkaranə formada həyata keçirilir. Gah müsəlmanların dini kitabı "Qurani-Kərim" yandırılır, gah Məhəmməd Peyğəmbərin karikaturası çəkilərək təhqir olunmağa çalışılır və digər bu kimi hallarla insanların dini hissləri ilə oynanılan təxribatlara əl atılır. Dini nifrət zəminində törədilən bu əməllər əsasən Fransa, İsveç, Danimarkada tez-tez baş verir və ən dəhşətlisi də budur ki, həmin ölkələr tərəfindən bu vandal hərəkətlər insan hüquq və azadlıqları ilə əlaqələndirilir, qanuni olduğu bildirilir. Bu ölkələrin rəsmiləri tərəfindən baş verən rüsvayçılıqlara, milyonlarla insanın dini hisslərinin tapdalanmasına riyakarcasına fərqli donda geydirilir, açıq-aşkar dini qızışdırıcılığa hesablanmış islamofob əməllərə sözün əsl mənasında göz yumulur, "münbit" şərait yaradılır.

Sözügedən konfransın iştirakçılarına ünvanladığı məktubunda bununla bağlı dövlət başçısı bildirib ki, Fransa özünün ənənəvi neokolonializm siyasəti ilə bərabər, müsəlmanlara qarşı açıq-aşkar təzyiq və diskriminasiya siyasəti yürüdür, müxtəlif islamofob kampaniyalar təşkil edir. "Dünyəvilik" adı altında sırf müsəlmanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik aktları və siyasi qərarlar qəbul edir. Bu ölkədə məscidlər, müsəlman mədəniyyət mərkəzləri və qəbiristanlıqlar müxtəlif formalarda təhqirlərə məruz qalır, müsəlman vətəndaşlar sıxışdırılır.

### Ermənistanın vandallıqlarına susqunluq nümayiş etdirilir

Azərbaycan dünyada ən çox islamofobiyadan əziyyət çəkən ölkələrdəndir. İstər torpaqlarının 30 illik işğalı dövründə, istərsə də hazırda ölkəmiz antiislam siyasəti ilə üz-üzə qalıb. İşğal illərində Ermənistan tərəfindən Azərbaycana məxsus dini irs vəhşicəsinə dağıdılıb. İşğaldan azad olunmuş ərazilərimizdəki 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 65-i tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınıb. Həmçinin vandal düşmən tərəfindən bu ərazilərdə yüzlərlə müsəlman qəbiristanlığı yerlə yeksan edilib, dini ibadət yerlərimizdə donuz saxlanılaraq, təkcə azərbaycanlıların deyil, bütün islam aləminin dini hissləri təhqir olunub.

Eyni zamanda indiki Ermənistan ərazisində xalqımızın dini-mədəni irsi erməni vandalları tərəfindən tamamilə məhv edilib. XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 300 məscidimiz qeydə alındığı halda, hazırda Ermənistan ərazisində, İrəvan şəhərində yalnız bir məscid - Göy məscid qismən salamat qalıb. Bu məscidin qismən salamat saxlanması isə erməni fitnəsinə görə, dünyanın gözündə pərdə asmaq üçündür.

Bir başqa təəssüfləndirici məqam isə "demokratik Qərb"in Ermənistanın bütün bu vandallıqlarına qarşı susqunluq nümayiş etdirməsidir. İndi Azərbaycana qarşı bir qara qəpiklik dəyəri olmayan qətnamələr qəbul edən, ölkəmizlə bağlı yalan və böhtanlar səsləndirən Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti kimi riyakar qurumlar ayrı-seçkilik, xristian təəssübkeşliyi, islamofobiyadan qaynaqlanan çirkin niyyətlə Ermənistana qarşı murdar əməllərinə görə heç bir qətnamə qəbul etməyib, təzyiqdən bəhs etməyib.

### Azərbaycana qarşı "səlib yürüşü"nə çıxanlar məğlubiyyətə məhkumdurlar

Əksinə, qərəzli Qərb siyasi dairələri neokolonializm siyasəti həyata keçirən Fransanın başçılığı ilə Azərbaycanın torpaqlarını işğaldan qurtarmasına, suverenliyini təmin etməsinə görə ölkəmizə qarşı sözün əsl mənasında "səlib yürüşü"nə çıxıblar. Korrupsioner siyasətçilərin yuvası halına gəlmiş Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası kimi islamofobiya siyasəti yürüdən qurumların əli ilə qərəzli qətnamələr qəbul etməkdən tutmuş kampaniya şəklində erməni yalanlarını tirajlamağa qədər hər cür çirkinliklər edirlər. Təbii ki, bu antiislam, anti-Azərbaycan siyasətinə Makron hökuməti yön verir. Həmçinin Paris açıq şəkildə separatizmə, hələ də ölkəmizə qarşı ərazi iddiası güdən təcavüzkar Ermənistana dəstək verməklə, onu silahlandırmaqla beynəlxalq hüquqa tapdaladığını da ortaya qoyur.

Ancaq Azərbaycan milli, dini maraqlarına təhdid olan bütün qüvvələrlə istənilən platformada layiqli mübarizə aparmağa qadirdir. Bunu bütün dünya Bakının Fransanı küncə sıxışdıraraq, onun neokolonialist, irqçi, antisemitizm, islamofob, türkofob, azərbaycanofob siyasətini dünyada ifşa etməsinin fonunda əyani görüb, şahidi olub.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 137

QƏRAR

Bakı şəhəri, 12 mart 2024-cü il

## "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli, "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2012-ci il 14 mart tarixli 600 nömrəli, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2013-cü il 4 iyul tarixli 936 nömrəli, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 18 iyul tarixli 213 nömrəli, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 24 avqust tarixli 233 nömrəli, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı tədbirlər və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 6 noyabr tarixli 326 nömrəli və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1360-VQD nömrəli Qanununun tətbiqi və "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 21 dekabr tarixli 421 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2386 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli, "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2012-ci il 14 mart tarixli 600 nömrəli, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2013-cü il 4 iyul tarixli 936 nömrəli, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 18 iyul tarixli 213 nömrəli, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 24 avqust tarixli 233 nömrəli, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı tədbirlər və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 6 noyabr tarixli 326 nömrəli və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1360-VQD nömrəli Qanununun tətbiqi və "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 21 dekabr tarixli 421 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2386 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 812 (Cild I) ilə təsdiq edilmiş "Malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 164 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 813 (Cild I) ilə təsdiq edilmiş "Gömrük orqanlarının elektron məlumat sistemindən istifadə Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 815 (Cild I) ilə təsdiq edilmiş "Gömrük işində informasiya sistemlərindən, informasiya texnologi-yalarından və onların təminat vasitələrindən istifadə Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 19 sentyabr tarixli 207 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 933 (Cild I) ilə təsdiq edilmiş "Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 oktyabr tarixli 228 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1010 (Cild I) ilə təsdiq edilmiş "Ayrı-ayrı gömrük əməliyyatı və ya gömrük proseduru ilə bağlı gömrük orqanının icazəsinin verilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 oktyabr tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1011 (Cild I) ilə təsdiq edilmiş "Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

7. "Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 oktyabr tarixli 230 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1012 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 31 oktyabr tarixli 252 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1033 (Cild I) ilə təsdiq edilmiş "Malların təkrar ixrac gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 dekabr tarixli 308 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1372 (Cild I) ilə təsdiq edilmiş "Təbii fəlakətlər və digər fövqəladə hallar zamanı zəruri olan malların və nəqliyyat vasitələrinin, canlı heyvanların, tez xarab olan malların, radioaktiv maddələrin, kütləvi informasiya məqsədləri üçün materialların, Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının ünvanlarına göndərilən və bu qəbildən olan başqa malların gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 316 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1380 (Cild I) ilə təsdiq edilmiş "Gömrük rəsmiləşdirilməsi başa çatmamış mallardan və nəqliyyat vasitələrindən istifadə edilməsi və onlar barəsində sərəncam verilməsinə dair Şərtlər və məhdudiyyətlər"in "Qeyd" hissəsi ləğv edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1381 (Cild I) ilə təsdiq edilmiş "Gömrük ödənişləri üzrə güzəştlər verilərək şərti buraxılmış mallar barəsində sərəncam verilməsi Qaydası"nın "Qeyd" hissəsi ləğv edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 fevral tarixli 25 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 194 (Cild I) ilə təsdiq edilmiş "Gömrük ödənişlərinin qaytarılması Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 fevral tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 195 (Cild I) ilə təsdiq edilmiş "Mallardan dövlətin xeyrinə imtina edilməsi Qaydası"nın "Qeyd" hissəsi ləğv edilsin.

14. "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 725 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 fevral tarixli 72 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 25 iyun tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 773 (Cild I) ilə təsdiq edilmiş "Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların buraxılışının dayandırılması, buraxılışın dayandırılma müddətinin uzadılması, qəbul edilən qərarlar barədə ərizəçiyə və bəyannaməçiyə məlumat verilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1027 (Cild I) ilə təsdiq edilmiş "Malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 230 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1028 (Cild I) ilə təsdiq edilmiş "Səlahiyyətli iqtisadi operator statusunun verilməsi, müvəqqəti dayandırılması və ləğv olunması Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1029 (Cild I) ilə təsdiq edilmiş "Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış malların götürüldüyü hallar və bunun Qaydası"nın "Qeyd" hissəsi ləğv edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 232 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1030 (Cild I) ilə təsdiq edilmiş "Gömrük ekspertizasının aparılması Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 233 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1031 (Cild I) ilə təsdiq edilmiş "Malların son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 2 sentyabr tarixli 244 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 9, maddə 1124 (Cild I); 2024, № 1, maddə 74) ilə təsdiq edilmiş "Malların müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 sentyabr tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 9, maddə 1127 (Cild I) ilə təsdiq edilmiş "Gömrük orqanlarına təqdim edilmiş malların məhv edilmə halları və Qaydası"nın "Qeyd" hissəsi ləğv edilsin.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 3 oktyabr tarixli 286 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1207 (Cild I) ilə təsdiq edilmiş "Təminatdan istifadə etməklə gömrük borcunun ödənilməsinin təmin edilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1223 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 fevral tarixli 85 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 30 oktyabr tarixli 318 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1235 (Cild I) ilə təsdiq edilmiş "Rüsumsuz ticarət mağazalarının yaradılması və onların fəaliyyətinin tənzimlənməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

26. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 yanvar tarixli 3 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 53 (Cild I) ilə təsdiq edilmiş "Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 54 (Cild I) ilə təsdiq edilmiş "Malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

28. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 55 (Cild I) ilə təsdiq edilmiş "Malların beynəlxalq və daxili tranzit xüsusi gömrük prosedurları altında yerləşdirilərək daşınması Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

29. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 yanvar tarixli 17 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 66 (Cild I) ilə təsdiq edilmiş "Gömrük təmsilçiliyi, o cümlədən gömrük brokeri fəaliyyətini tənzimləyən Qaydalar"ın "Qeyd" hissəsi ləğv edilsin.

30. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 fevral tarixli 34 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 189 (Cild I) ilə təsdiq edilmiş "Malların xaricdə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

31. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 319 (Cild I); 2024, № 1, maddə 93) ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

32. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 89 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 320 (Cild I) ilə təsdiq edilmiş "Gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin qüvvəyə minmiş qərarına əsasən müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi malların və nəqliyyat vasitələrinin dövlət mülkiyyətinə keçirilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

33. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 951 (Cild I) ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

34. "Neft-qaz sahəsində fəaliyyətin və qeyri-dövlət sektorunun Meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 56 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 354 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

35. "Dövlət tibb müəssisələrində əlilliyi olan şəxslər üçün dövlət büdcəsi hesabına həyata keçirilməyən tibbi xidmətlərin növləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 24 iyul tarixli 321 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1343 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

36. "Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 24 iyul tarixli 322 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1344 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

37. "İşaxtaran və işsiz şəxslərin qeydiyyata alınması Qaydası"nın təsdiq edilməsi və "İşsizlərin qeydiyyata alınması Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 22 yanvar tarixli 14 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 iyul tarixli 327 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1349 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

38. "Məşğulluq sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 avqust tarixli 350 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1457 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

39. "Əlilliyi olan şəxslərin iş yerlərinin standartları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 sentyabr tarixli 380 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1534 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

40. "Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 sentyabr tarixli 400 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1554 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

41. "İnfrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarət Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 sentyabr tarixli 405 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1559 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

42. "Yeni iş yeri və ya boşalan iş yeri barədə məlumatların elektron informasiya sisteminə daxil edilməsi Qaydası və Forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 sentyabr tarixli 411 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1565 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

43. "Əmək birjalarının və əmək yarmarkalarının təşkili və fəaliyyəti Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 sentyabr tarixli 412 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1566 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

44. "Məşğul şəxslər barədə məlumatların əldə olunması, reyestrə daxil edilməsi, reyestrin aparılması və ondan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 19 sentyabr tarixli 415 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1569 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

45. "Qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarət tədbirlərinin keçirilməsi və əlaqələndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 96 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 357 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

46. "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin Standartları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 97 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 358 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

47. "Özünüməşğulluğun təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 639 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

48. "Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 500 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1601 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

49. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər üçün onların yaşadığı fərdi evlərin uyğunlaşdırılması ilə bağlı xərclərin minimum məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 520 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1621 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

50. "Dövlət reabilitasiya müəssisələrinin təşkili və fəaliyyəti Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 25 may tarixli 149 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 528 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

51. "İnfrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 noyabr tarixli 340 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1263 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

52. "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1530 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 136 **QƏRAR** Bakı şəhəri, 12 mart 2024-cü il

## “Azərbaycan Respublikası Prezidentinin “Yaşayış minimumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2004-cü il 29 dekabr tarixli 170 nömrəli, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2005-ci il 7 fevral tarixli 192 nömrəli, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 415-IVQD nömrəli Qanununun tətbiqi haqqında” 2012-ci il 4 sentyabr tarixli 697 nömrəli, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1004-IVQD nömrəli Qanununun tətbiqi barədə” 2014-cü il 11 avqust tarixli 242 nömrəli, “Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında” 2016-cı il 22 iyun tarixli 940 nömrəli və “Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2018-ci il 11 yanvar tarixli 1784 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2407 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikası Prezidentinin "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 29 dekabr tarixli 170 nömrəli, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 7 fevral tarixli 192 nömrəli, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 415-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2012-ci il 4 sentyabr tarixli 697 nömrəli, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1004-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2014-cü il 11 avqust tarixli 242 nömrəli, "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" 2016-cı il 22 iyun tarixli 940 nömrəli və "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2018-ci il 11 yanvar tarixli 1784 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2407 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 191 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 744 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 6 aprel tarixli 101 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 469 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 198.1.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslərin əmlak vergisi məqsədləri üçün Bakı şəhərində yerləşən binalara tətbiq edilən əmsallar"ın 3-cü hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 noyabr tarixli 464 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1952 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka krediti, o cümlədən güzəştli ipoteka krediti üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması Qaydası"nın "Qeyd" hissəsi ləğv edilsin.

4. "Dəstək tədbirlərində iştirak edəcək ixracatçıların seçilməsi üçün müsabiqənin təşkili və keçirilmə Qaydası"nın və "Alıcı missiyasında iştirak edəcək xarici şəxslərin müəyyən edilməsi Meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 31 oktyabr tarixli 470 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2183 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) 3-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 139 **QƏRAR** Bakı şəhəri, 12 mart 2024-cü il

## “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 may tarixli 190 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 671 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 3.2.13-cü yarımbəndində "müsabiqələrin keçirilməsi və müqavilələrin" sözləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmaların keçirilməsi və satınalma müqavilələrinin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 214 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 949 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının Yüksək Texnologiyalar Parkında istehsal olunan məhsullar üçün dövlət sifarişlərinin verilməsi Qaydası"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.7-ci bəndin birinci cümləsində "tenderlərdə (sorğularda)" sözləri "satınalmalarda" sözü ilə əvəz edilsin;

2.2. 2.8-ci bənddə "güzəştli düzəliş" sözləri "satınalma güzəşti" sözləri ilə əvəz edilsin;

2.3. 2.10-cu bənddə "Tenderlər (sorğular)" sözləri "Satınalmalar" sözü ilə əvəz edilsin;

2.4. 2.14-cü bənddə "dövlət satınalmaları" sözləri "satınalmalar" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 142 **QƏRAR** Bakı şəhəri, 13 mart 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın 1.4-cü və 1.6-cı bəndləri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 143 **QƏRAR** Bakı şəhəri, 13 mart 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın 5.22-ci bəndində qeyd olunan hesablama qaydasında "32.6" rəqəmləri "34.8" rəqəmləri ilə, "15.6" rəqəmləri "16.7" rəqəmləri ilə, "7.2" rəqəmləri "7.7" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 140 **QƏRAR** Bakı şəhəri, 13 mart 2024-cü il

## “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında bakalavrların hazırlanmasına çəkilmiş xərclərin hesablanması Qaydası”nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1010-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 535 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 dekabr tarixli 2375 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında bakalavrların hazırlanmasına çəkilmiş xərclərin hesablanması Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli 140 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında bakalavrların hazırlanmasına çəkilmiş xərclərin hesablanması QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin (bundan sonra - Əsasnamə) 10-7-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında (bundan sonra - Akademiya) bakalavrların hazırlanmasına çəkilmiş xərclərin hesablanması qaydasını müəyyən edir.

1.2. Əsasnamənin 10-5-ci və 10-6-cı maddələrinə uyğun olaraq, tam orta təhsil və ya orta ixtisas təhsili əsasında ali təhsilin bakalavriat səviyyəsinə əyani təhsilalma formasında qəbul ediləcək şəxslərlə daxili işlər orqanlarında xidmətkeçmə haqqında müqavilə bağlanılır. Daxili işlər orqanlarında xidmətkeçmə haqqında müqavilədə bu şəxslərin daxili işlər orqanlarına xidmətə könüllü daxil olması, təhsili başa vurduqdan sonra 7 (yeddi) il müddətində daxili işlər orqanlarında xidmət keçmək vəzifəsi, habelə təhsili başa vurduqdan sonra daxili işlər orqanlarında xidmət keçmək istəməyən, yaxud həmin müddətdə öz arzusu ilə daxili işlər orqanlarında xidmətdən çıxan şəxslərin Akademiyada onların hazırlanmasına çəkilmiş xərclərin əvəzini ödəmək öhdəliyi nəzərdə tutulur.

### 2. Əvəzi ödənilməli olan xərclərin təsnifatı

2.1. Akademiyada bakalavrların hazırlanmasına çəkilmiş əvəzi ödənilməli olan xərclər birbaşa və dolayı xərclər olmaqla aşağıdakılardan ibarətdir:

2.1.1. birbaşa xərclər:

2.1.1.1. rütbə maaşının məbləği;

2.1.1.2. rütbə maaşı üzrə Akademiya tərəfindən aidiyyəti üzrə ödənilən məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və digər icbari ödənişlərin məbləği;

2.1.1.3. tələbə təqaüdlərinin məbləği;

2.1.1.4. ərzaq təminatı xərcləri;

2.1.1.5. xüsusi geyim forması xərcləri;

2.1.1.6. yataq və yumşaq inventar xərcləri;

2.1.2. dolayı xərclər:

2.1.2.1. bir kursant üzrə müəllimlərin əməyin ödənişi xərcləri və digər müavinətlər;

2.1.2.2. digər dolayı xərclər (dəftərxana və təsərrüfat, mətbəə, kommunal, telekommunikasiya və poçt rabitəsi, istehlakyönümlü müxtəlif xidmətlərin, maşın və avadanlıqların alınması xərcləri).

2.2. Akademiyada bakalavrların hazırlanmasına çəkilmiş əvəzi ödənilməli olan xərc hər tədris ili bakalavrın hazırlanmasına çəkilmiş xərclərin məcmusunu təşkil edir:

$$\text{ƏÖX} = \text{ÇX1} + \text{ÇX2} + \text{ÇX3} + \text{ÇX4}$$

burada:

ƏÖX - əvəzi ödənilməli xərc;
ÇX - çəkilmiş xərc (tədris illəri üzrə).

### 3. Əvəzi ödənilməli olan xərclərin hesablanması qaydası

3.1. Akademiyada bakalavrların hazırlanmasına çəkilmiş xərclər bu Qaydanın 2-ci hissəsi ilə müəyyən edilmiş xərc istiqamətləri üzrə hər ilin sentyabr ayında ötən tədris ili üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən təsdiq edilmiş xərc kalkulyasiyası əsasında müəyyən edilir.

3.2. Akademiyada bakalavrların hazırlanmasına çəkilmiş xərclərin hesablanması bilavasitə həmin şəxsin təhsil aldığı illər üzrə bu Qaydanın 3.1-ci bəndinə əsasən təsdiq edilmiş xərc kalkulyasiyası əsasında aşağıdakı düstur üzrə aparılır:

$$\text{ÇX} = \text{RMX} + \text{İÖX} + \text{TTX} + (\text{ƏTX}+\text{XGFX}+\text{YYİX})/\text{BKS} + (\text{MƏÖXDM}+\text{DDX})/\text{TAS} \times \text{Ə}$$

burada:

ÇX - çəkilmiş xərc;
RMX - rütbə maaşı xərci;
İÖX - rütbə maaşı üzrə Akademiya tərəfindən aidiyyəti üzrə ödənilən məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və digər icbari ödənişlərin məbləği;
TTX - tələbə təqaüdlərinin məbləği;
ƏTX - ərzaq təminatı xərci;
XGFX - xüsusi geyim forması xərci;
YYİX - yataq və yumşaq inventar xərcləri;
MƏÖXDM - müəllimlərin əməyin ödənişi xərcləri və digər müavinətlər;
DDX - digər dolayı xərclər;
BKS - bakalavr təhsili alan kursantların sayı;
TAS - təhsil alanların cəmi sayı;
Ə - əmsal. Ə = bakalavr təhsili üzrə müəllimlərin akademik saatlarının miqdarı / müəllimlərin akademik saatlarının cəmi miqdarı.

3.3. Ötən tədris ili üzrə xərclərin hesablanmasında tədris ilinə düşən aylar üzrə müvafiq illərin büdcə göstəriciləri və faktiki xərclər əsas götürülür.

### 4. Yekun müddəalar

4.1. Əsasnamənin 10-5-ci maddəsində göstərilən şəxs təhsilini başa vurduqdan sonra daxili işlər orqanlarında xidmət keçmək istəmədiyi halda, yaxud təhsili başa vurduqdan sonra 7 (yeddi) il müddətində öz arzusu ilə daxili işlər orqanlarında xidmətdən çıxdıqda həmin şəxsə xidmətin sonuncu günü 30 (otuz) gün müddətində onun hazırlanmasına çəkilmiş xərclərin ödənilməsi öhdəliyi barədə yazılı bildiriş təqdim olunur.

4.2. Yazılı bildirişdə tutulmalı olan xərclərin tərkibi və məbləği, habelə bu məbləğin ödənilməsi üçün xəzinə (bank) hesabının nömrəsi göstərilməlidir.

# ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu beynəlxalq əhəmiyyətli tədbirə evsahibliyi edir





Martın 14-də Bakıda UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türkiyənin UNESCO üzrə Milli Komissiyası, eləcə də ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə "Türk dünyasının tarixi və mədəni irsinin öyrənilməsi və qorunub saxlanması - UNESCO nöqteyi-nəzərindən" mövzusunda beynəlxalq konfrans işə başlayıb.

Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva iştirak edib.

AZƏRTAC xəbər verir ki, konfransda mədəniyyət naziri Adil Kərimli, Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev, TÜRKSOY-un Baş katibi Sultan Rayev, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev, UNESCO-nun Türkiyə Milli Komissiyasının sədri professor Öcal Oğuz, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun rəhbəri Dərya Örs, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə açılış nitqi ilə çıxış ediblər, UNESCO Baş Konfransının prezidenti Simona-Mirela Miçulesku isə videomüraciətlə tədbir iştirakçılarını salamlayıb.

Mədəniyyət naziri Adil Kərimli çıxışında qeyd edib ki, türk mədəni irsinin qorunması üçün vahid mexanizm formalaşdırılmalıdır. O vurğulayıb ki, türk dünyası böyük bir ailədir: "Biz dövləti təmsil edən qurumlar olaraq bütün çağırışlara cavab verməli, türk mədəni irsinin qorunması üçün vahid mexanizm formalaşdırmalıyıq".

Sonra TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev çıxış edərək bildirib ki, türk dövlətləri özləri də zəngin mədəni irslərinin siyahısını yaratmalıdırlar: "Bu gün Bakıda "Türk dünyasının tarixi və mədəni irsinin öyrənilməsi və qorunub saxlanması - UNESCO nöqteyi-nəzərindən" mövzusunda keçirilən beynəlxalq konfrans çox vacibdir".

UNESCO Baş Konfransının prezidenti Simona-Mirela Miçulesku konfrans iştirakçılarına videomüraciətində qeyd edib ki, mədəni irsin qorunması münasibətlərin inkişafına töhfə verir: "Biz anlamalıyıq ki, qlobal mədəni maraqlara xidmət edirik və gələcəyimizi bunun əsasında qurmalıyıq".

Çıxış edən TÜRKSOY-un Baş katibi Sultan Rayev Azərbaycanın 30 il işğal altında qalmış torpaqlarında dini, mədəni və tarixi abidələrin dağıdıldığını deyib, bu gün Azərbaycan dövlətinin mədəni irsin qorunması istiqamətində gördüyü işlərin təqdirəlayiq olduğunu vurğulayıb.

Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun rəhbəri Dərya Örs və Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev çıxışlarında böyük türk dünyasının mədəni irsinin qorunmasının vacib olduğunu vurğulayıblar. Qeyd olunub ki, türk mədəniyyətinin dünyada tanıdılması istiqamətində görülən işlər türk dünyası çərçivəsində həyata keçiriləcək layihələrə dəstək üçün stimul olacaq.

Həmçinin iştirakçılar UNESCO-nun Türkiyə Milli Komissiyasının sədri professor Öcal Oğuz, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadənin çıxışlarını dinləyiblər. Qeyd olunub ki, türk dünyası olaraq böyük bir coğrafiyanı əhatə edən türk dilinin BMT-nin 7-ci rəsmi dili kimi qəbul olunmasına çalışmalıyıq. Türkdilli xalqlar olaraq heç bir tərcüməçiyə ehtiyac olmadan ünsiyyət qurmağı bacarmalıyıq.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli çıxışında Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinin qeyd edildiyi cari ildə həyata keçirilən tədbirlərdən söhbət açıb.

Türkiyə Elmlər Akademiyasının prezidenti Muzaffer Şeker çıxışında mövzunun aktuallığını vurğulayıb.

Daha sonra iştirakçılar Azərbaycan Milli Elmlər Akademiyasının bütün türk dünyasının mədəni irsi sayılan "Divanü lüğat-it-türk"ün 950 illik yubileyi münasibətilə təşkil etdiyi sərgi ilə tanış olublar.

Konfransın ilk günündə fasilələrlə dörd sessiya keçirilib. Birinci sessiya Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayevin moderatorluğu ilə türk dünyasının mədəni irsinin qorunması üzrə milli strategiyalar və yanaşmalar, ikinci sessiya Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulovanın moderatorluğu ilə mədəni irsin qorunması, sənədləşdirilməsi və təbliği üzrə türk təşkilatının əməkdaşlığı, üçüncü sessiya Türk Dil Qurumunun prezidenti Osman Mertin moderatorluğu ilə mədəni irsin qorunması və təbliği üçün innovativ yanaşmalar və zəruri işlər, sonuncu sessiya isə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Xüsusi tapşırıqlar üzrə səfiri - UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının Baş katibi Seymur Fətəliyevin moderatorluğu ilə mədəni irsin qorunması sahəsində milli komissiyaların əməkdaşlığı mövzusuna həsr edilib.

Sessiyalar zamanı Türk Dövlətləri Təşkilatının, UNESCO üzrə Milli komissiyaların, UNESCO-nun mədəni irs departamentlərinin, yerli qurumların nümayəndələri, eləcə də müxtəlif türk dövlətlərindən ekspertlər təqdimatlar ediblər.

Konfransda həmçinin bəyanat işlənib hazırlanıb. Konfransın bağlanış mərasimində sözügedən bəyanat qəbul ediləcək.

Qeyd edək ki, iki gün davam edəcək konfransın ikinci günündə Mədəni İrsin Qorunması/Mühafizəsi üzrə Milli komissiyaların layihələr əsaslı əməkdaşlığı mövzusunu əhatə edən sessiyanın, o cümlədən "dəyirmi masa" müzakirələrinin keçirilməsi nəzərdə tutulub. Sözügedən tədbir vasitəsilə Bakıda bir araya gələn təşkilat rəhbərləri Azərbaycan Milli Xalça Muzeyində sərgilənən türk geyimləri, xalçaları və ornamentlərini izləyəcək, İçərişəhəri (Qız qalası və Şirvanşahlar Sarayı Kompleksini) ziyarət edərək ölkəmizin mədəni irsi ilə daha yaxından tanış olacaqlar.

# UNEC yeni təşəbbüsə start verib

Yerli televiziyalara müsahibəsi zamanı Prezident İlham Əliyev ölkənin gələcək inkişafı ilə bağlı milli ideyaların yaranması məqsədilə siyasətçilər, politoloqlar, elm adamları və ziyalıların qarşısına tapşırıq qoyaraq, ictimai müzakirələrin aparılmasının vacibliyini bildirib: "Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir. Biz əsas vəzifəni bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır.

Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik. Ona görə gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar həlledici olacaq, təbii ki. Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır".

UNEC-də dövlət başçısının verdiyi tapşırığa uyğun olaraq, martın 14-də "Gələcək Özümü Gələcək?" mövzusunda ilk ictimai müzakirə keçirilib. Gələcəyin mədəni, elmi, ideoloji hədəflərinə həsr olunmuş ilk müzakirə "Gələcək əsr deyil, əsərdir!" başlığı ilə aparılıb.

İctimai müzakirələr fərqli iştirakçılarla davamlı olaraq keçiriləcək və müzakirələr "DAHA TV" yutub kanalında yayımlanacaq.

# YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib

**Martın 14-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının inzibati binasında qanvermə aksiyası keçirilib.**

Aksiya YAP Mərkəzi Aparatı və Səhiyyə Nazirliyinin Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankının birgə təşkilatçılığı ilə baş tutub. Qanvermə aksiyasına Mərkəzi Qan Bankını təmsil edən tibbi heyət cəlb olunub.

Mərkəzi Qan Bankının nümayəndəsi Namirə Abbasova Yeni Azərbaycan Partiyasının bu təşəbbüsünün humanist addım kimi mühüm əhəmiyyət daşıdığını qeyd edib. Onun sözlərinə görə, mütəmadi olaraq təşkil edilən belə aksiyaların məqsədi talassemiya, irsi qan və digər profilli xəstəliklərdən əziyyət çəkən insanlara dəstək verməkdir.

Namirə Abbasova qeyd edib ki, qana həmişə ehtiyac var: "Çünki qanı heç bir dərman vasitəsi əvəz edə bilməz. İnsanlar ildə bir neçə dəfə qan verə bilərlər. Qanvermənin bir çox faydaları var. Bu, təzyiq xəstələri üçün xeyirlidir, eləcə də infarkt riskini aşağı salır. Ən əsası, insanlar bununla qana ehtiyacı olanlara yardım edirlər. Yeni Azərbaycan Partiyası qanvermə aksiyalarına hər zaman dəstək olur. Budəfəki təşəbbüsünə görə də partiyanın Mərkəzi Aparatına və əməyi keçən hər kəsə təşəkkürümüzü bildiririk".

Qeyd edək ki, aksiyada partiyanın Mərkəzi Aparatının əməkdaşları da daxil olmaqla 300-dən çox YAP üzvü iştirak edib.

***"Azərbaycan"***

# Azərbaycanla Əlcəzair arasında əlaqələrin daha da dərinləşdirilməsi üçün atılacaq addımlarla bağlı fikir mübadiləsi aparılıb

**Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Əhməd Attaf Prezident Əbdülməcid Tebbunun adından Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Əmirbəyov ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, bu barədə Əlcəzairin Xarici İşlər və Xaricdəki Milli İcma Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, görüşdə iki ölkə arasında münasibətlərin dinamikası yüksək qiymətləndirilib. Eyni zamanda dinamik şəkildə inkişaf edən ikitərəfli əlaqələrin gələcəkdə daha da dərinləşdirilməsi üçün atılacaq addımlarla bağlı fikir mübadiləsi aparılıb. Əməkdaşlığın daha geniş sahələrə və istiqamətlərə şaxələndirilməsinin, xüsusən də iqtisadi sahədə dərinləşdirilməsinin vacibliyi vurğulanıb.

Söhbət zamanı diqqətə çatdırılıb ki, bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü qeyd olunur və bu addımlar da həmin tarixi hadisə ilə eyni vaxta təsadüf edir.

Tərəflər öz regionlarında baş verən son hadisələri də müzakirə edib, bu yaxınlarda Əlcəzairin evsahibliyi etdiyi Qaz İxrac Edən Ölkələr Forumunun (GECF) 7-ci Zirvə toplantısının nəticələri kontekstində enerji keçidi məsələsi ilə bağlı aspektlər üzrə fikir mübadiləsi aparıblar.

Nazirliyin açıqlamasında eyni zamanda Azərbaycanın bu ilin noyabrında evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) barədə məlumat verilib.

# Bir sıra qanunlara dəyişikliklər ediləcək



**Martın 14-də Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda "Dərman vasitələri haqqında" qanunda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) müzakirə edilib.**

Komitə sədri Əhliman Əmiraslanov ötən il "Dərman vasitələri haqqında" qanuna edilən dəyişikliklərdən söz açaraq onların əhəmiyyətindən və icrası sayəsində əldə olunan nailiyyətlərdən danışıb. Əhliman Əmiraslanov qeyd edib ki, artıq dərman vasitələrinin qeydiyyatı, ekspertizası prosesi asanlaşdırılıb, dərmanların keyfiyyətinə, onların qiymətlərinin optimallaşdırılmasına nəzarət ciddi şəkildə artırılıb.

Qanun layihəsi barədə ətraflı məlumat verən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qeyd edib ki, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununda bir sıra yeni anlayışlar təsbit edilib. Bu dəyişikliklərin məntiqi davamı olaraq müzakirəyə çıxarılan layihədə qüvvədə olan 14 qanuna bəzi ifadə və terminlərin uyğunlaşdırılması və dəqiqləşdirilməsi məqsədilə 36 dəyişiklik təklif olunub. Bildirilib ki, layihədə Səhiyyə komitəsinin profilinə uyğun rəy verəcəyi "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Onkoloji yardım haqqında" və "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" qanunlara "həkim reseptləri", "dərman vasitələri", "normativ-texniki sənəd" və bu qəbildən olan bir sıra söz və ifadələrin müvafiq olaraq "resept", "dərman və tibb vasitələri", "texniki normativ hüquqi akt" sözləri ilə əvəz edilməsi təklif olunub.

Eyni zamanda "Əhalinin sağlamlığının qorunması haqqında" qanuna təklif olunan yeni 36-1-ci maddədə klinik protokolun anlayışı, hazırlanması, onların elektron bazasının yaradılması kimi hüquqi təmzimləmələr təsbit olunub.

Sənədin müzakirəsində deputat Məlahət İbrahimqızı və Müşfiq Məmmədlinin fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Azərbaycan ilə ABŞ arasında dini-mədəni sahədə münasibətlərə dair fikir mübadiləsi aparılıb

**Martın 14-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə ABŞ-nin Azərbaycandakı səfiri Mark Libbi ilə görüşüb.**



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Şeyxülislam A.Paşazadə Azərbaycanda din-dövlət münasibətlərinin yüksək səviyyəsi, dinlərarası əməkdaşlıq və məzhəblərarası anlaşma mühiti barədə ətraflı məlumat verib. O, Azərbaycanda müxtəlif din və məzhəb daşıyıcılarının bir ailənin üzvləri kimi dinc yanaşı yaşadıqlarını, ölkəmizin tolerant dini həyatı, nümunəvi multikultural həyat modeli ilə gündəmdə olmasını diqqətə çatdırıb, dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyət istiqamətləri barədə söz açıb. Dünya miqyasında dinlərarası dialoq müstəvisində Azərbaycanın ön yerlərdə olmasının əsas səbəbinin məhz bu örnək təcrübə və heç şübhəsiz ki, dövlətimizin apardığı müdrik siyasət, insan həmrəyliyinə xidmət edən ideyaları olduğunu xüsusi vurğulayıb.

Azərbaycandakı dini konfessiya nümayəndələrinin ötən il ABŞ-yə səfərini xatırladan Şeyxülislam A.Paşazadə bu ölkənin müxtəlif din ardıcılları ilə yüksək səviyyədə münasibətlərin mövcudluğunu yüksək dəyərləndirdiyini diqqətə çatdırıb. QMİ sədri Azərbaycanın bu il evsahibliyi edəcəyi VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və COP29 tədbirlərini xatırladaraq, hər iki qlobal tədbir çərçivəsində dünya dini liderlərinin bir araya gələcəyi panel və zirvə görüşləri barədə məlumat verib.

ABŞ səfiri M.Libbi bu görüşün müsəlmanlar üçün müqəddəs olan ramazan ayına təsadüf etməsindən məmnunluğunu bildirib, Azərbaycanın dini-mənəvi həyatı ilə yaxından tanış olmaq üçün bu görüşə xüsusi əhəmiyyət verdiyini diqqətə çatdırıb.

Səfir M.Libbi fəaliyyətdə olduğu qısa müddətdə Azərbaycandakı dini həyatla bağlı gəldiyi qənaətlərini bölüşərək deyib ki, ölkədə dini konfessiyalar arasında dostluq münasibətlərinin mövcudluğunda, habelə dinlərarası dialoq prosesində dini lider olaraq Şeyxülislamın müstəsna rolu var. O, həmçinin Azərbaycanla Ermənistan arasında sülhün əldə olunmasında dini liderlərin rolunun mühüm olduğuna toxunub.

Şeyxülislam A.Paşazadə təəssüflə qeyd edib ki, uzun onilliklər ərzində erməni kilsəsi ilə sülh yönündə danışıqlarda iştirak edib. Lakin Azərbaycan dünya birliyi tərəfindən tanınan ərazilərini BMT qətnamələrinə əsasən işğaldan azad etdikdən sonra erməni kilsəsi yalnız revanşist mövqe nümayiş etdirir, bölgədə sülh, xalqlar arasında dinc yanaşı yaşamaq ideyasını rədd edir, nifrət çağırışları ilə çıxış edir. Bu əsnada Şeyxülislam A.Paşazadə ABŞ səfirini azad olunmuş torpaqlarımıza səfər edərkən erməni vandalizminin nəticələrinə diqqət yetirməyə çağırıb. Bildirib ki, bu dağıntıları törədən, məscidləri, hətta kilsələri dağıdan Ermənistan Azərbaycan barədə böhtan və qarayaxmalar yayır: "Bu kimi məsələlərə dair ABŞ kimi böyük dövlətdən həqiqətlərin yanında olmasını gözləməyimiz təbiidir".

ABŞ səfiri bölgədə sabitlik və suverenliyin ən yaxşı qarantı, tərəqqi və çiçəklənmənin təməli olaraq sülhün əldə olunmasının hamının maraqlarına cavab verdiyi fikrində olduğunu diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə ABŞ arasında dini-mədəni sahədə münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Qardaşlıq və səmimi dostluq

## Azərbaycan və Qazaxıstan arasındakı münasibətlərin bünövrəsidir

**Azərbaycan getdikcə dünyanın diqqət mərkəzində olan dövlətlərdən birinə çevrilir və bu səbəbdən bizimlə əməkdaşlığa meyil göstərən ölkələrin sayı sürətlə artmaqdadır. Amma belə ölkələrin sırasında türk dövlətlərinin, o cümlədən Qazaxıstanın xüsusi yeri və çəkisi var.**



Xəbər verildiyi kimi, Qazaxıstanın dövlət başçısının ölkəmizə səfəri çərçivəsində Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış etmişlər. Azərbaycan Prezidenti bəyanatında Qazaxıstanın Azərbaycan üçün qardaş ölkə olmaqla yanaşı, həm də strateji tərəfdaş və müttəfiq olduğunu bildirmişdir. Səfər zamanı həmçinin Ali Dövlətlərarası Şuranın birinci iclası çərçivəsində qarşılıqlı fəaliyyətin müxtəlif aspektləri ətraflı müzakirə olunmuş, qarşılıqlı iqtisadi-ticari fəaliyyətin böyük inkişaf potensialı və nəqliyyat-tranzit məsələlərinin perspektivlərindən danışılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev belə hesab edir ki, iki ölkənin qarşılıqlı fəaliyyəti neft-qaz sahəsində əməkdaşlığa ciddi təsir göstərir. Artıq yeni konkret layihələr müəyyənləşdirilmişdir: "Biz paralel istiqamətlər üzrə irəliləyirik. Bu gün diskussiyalar çərçivəsində qeyd edildi ki, Trans-Xəzər nəqliyyat marşrutunu meydana, deyərdim ki, dünya nəqliyyat-logistika spektrinə çıxaran indiki geosiyasi şərait möhkəm bazaya malikdir".

Hər iki ölkədə dəmir yolları, aeroportlar, avtomobil yolları, dəniz limanları daxil olmaqla irimiqyaslı nəqliyyat layihələri həyata keçirilir. Artıq Qazaxıstan beynəlxalq arenada müdrik siyasətə, düzgün seçilmiş strategiyaya və dövlətin inkişafına yönəlmiş çox böyük nüfuza malikdir. Bütün bunların fonunda Qazaxıstan Prezidentinin İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın misilsiz tarixi Qələbə əldə etməsini dövlət suverenliyinin bərpa olunması kimi qiymətləndirməsi xüsusi vurğulanmalıdır: "Qazaxıstan xalqı bununla bağlı böyük sevinc hissi keçirib. Biz bu mövzuda danışmışıq. Mən Sizə təbrik məktubu ünvanlamışam. Zənnimcə, bu, uzun illər ərzində Sizin dövlət suverenliyinin bərpasına yönəlmiş və son nəticədə tarixi həqiqətin bərpası ilə nəticələnən səylərinizin qanunauyğun yekunudur".

Qazaxıstan Prezidenti Ali Dövlətlərarası Şuranın birinci iclasında mühüm məsələlərin müzakirə olunduğunu diqqətə çatdıraraq bildirmişdir ki, hazırda dünyada nəqliyyat-logistika imkanlarına çıxış uğrunda mübarizə kəskinləşir. Bu, strateji sahədir. Sevindirici haldır ki, həm Qazaxıstan, həm də Azərbaycan təbii tərəfdaşlar kimi bu sahədə sıx qarşılıqlı fəaliyyət göstərirlər. Rəqəmsallaşma, süni intellektin yaradılması, Xəzərin dibi ilə optik-lif rabitə xəttinin qurulması kimi unikal mövzular da müzakirə mövzularıdır.

Qazaxıstanla Azərbaycan arasındakı iqtisadi əlaqələr dərinləşdikcə ikitərəfli mədəni əlaqələr də genişlənir. İki qardaş ölkənin prezidentlərinin Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak etmələri buna əyani misaldır. Cənab Tokayev belə hesab edir ki, biz qardaş xalqlarıq, müttəfiqik, strateji tərəfdaşıq: "Bunlar təkcə sözlər deyil, həm də ölkələrimizin hökumətlərinin görəcəyi böyük iş həcmləridir, çünki razılaşmalar çox ciddidir, çox böyükdür və şübhəsiz, onlar iqtisadiyyatlarımızın inkişafına impuls verəcək ki, bu da çox vacibdir. Ona görə də dövlətlərimiz arasında əməkdaşlığın gələcəyinə böyük nikbinliklə baxıram".

Ümumiyyətlə, hər iki dövlət arasında mədəni-humanitar sahədə əlaqələrin inkişafına xüsusi diqqət yetirilir. Azərbaycanda Qazaxıstan mədəniyyəti günləri böyük uğurla keçib. Qazaxıstanda da Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi gözlənilir. Astanada Heydər Əliyevin və Sumqayıtda Qazaxıstanın məşhur maarifçisi Axmet Baytursınovun adlarının küçələrə verilməsi qürurlu faktlardır. Qazaxıstanın Füzulidə inşa etdiyi mərkəz isə qazax xalqı adından Azərbaycana möhtəşəm hədiyyədir. Azərbaycan Prezidenti azad olunmuş Füzuli şəhərində Uşaq Yaradıcılıq Mərkəzinin yaradılmasını cənab Tokayevin şəxsi təşəbbüsü olduğunu bildirmiş, onu Qazaxıstan ilə Azərbaycan arasında dostluq və qardaşlıq mərkəzi kimi dəyərləndirmişdir.

İki dövlət başçısının Şuşaya səfərini isə Qarabağa şahanə səyahət kimi qəbul etmək olar. Prezidentlər burada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllələbaran edilmiş heykəllərinə baxmışlar. Dövlət başçıları daha sonra Bülbülün ev-muzeyində, Cıdır düzündə və XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş üç yaşayış binasından ibarət "Yasəmən" hotelində olmuşlar. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa ilə tanışlıq ali qonaqda dərin təəssüratlar doğurmuşdur.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Münasibətlər yüksələn xətlə inkişaf edir

## Azərbaycan-Qazaxıstan əlaqələrinin inkişafı türk dünyasının maraqlarına uyğundur

**"Azərbaycan Mərkəzi Asiya ölkələri, o cümlədən regionun türk dövlətləri ilə münasibətlərə mühüm əhəmiyyət verir. Bu baxımdan Azərbaycan və qazax xalqları arasında münasibətlərin yüksək səviyyədə olması təqdirəlayiqdir".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib. Deputat bildirib ki, son illər Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə, bu regionun dövlət başçılarının isə Azərbaycana səfərləri müntəzəm xarakter alıb. Bu isə təbii olaraq ölkələrarası əlaqələrin inkişafına, yeni əməkdaşlıq imkanlarının yaranmasına gətirib çıxarıb.

Azərbaycanın sıx, tarixi əlaqələrə malik olduğu türk dövlətlərindən biri də Qazaxıstandır. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ölkəmizə dövlət səfəri də əlaqələrimizin yüksək səviyyəsinin təzahürüdür. Prezident İlham Əliyevin Qazaxıstana son səfəri 2023-cü il noyabrın 2-də olub. Dövlətimizin başçısı Türk Dövlətləri Təşkilatının "Türk əsri" çağırışı altında Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə iştirak edib. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev isə ötən il noyabrın 24-də Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə işgüzar səfərdə olmuşdu. Dövlət başçılarımızın sıx münasibətləri ölkələrimiz arasında əlaqələrə mühüm töhfə verir, ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişafına və əlaqələrin daha da genişlənməsinə xidmət edir. Ümumiyyətlə, Azərbaycan və Qazaxıstan prezidentlərinin son illər qarşılıqlı yüksəksəviyyəli səfərləri ikitərəfli münasibətlərə müsbət təsirini göstərib. Bu baxımdan Qazaxıstan Prezidentinin ölkəmizə budəfəki rəsmi səfəri də iki qardaş dövlət arasında müttəfiqlik münasibətlərini daha da gücləndirəcək.

P.Kərimzadə qeyd edib ki, martın 11-də dövlət başçılarının iştirakı ilə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclasının keçirilməsini tarixi hadisə hesab etmək olar. "Çünki bu iclas əlaqələrimizin gələcək inkişafı baxımından mühüm müzakirə platforması oldu. Eyni zamanda Qazaxıstan rəsmi olaraq COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı dəstəyini ifadə etdi. Bütövlükdə türk dünyasının ümumi maraqları Azərbaycan və Qazaxıstanı ortaq məxrəcə gətirən ən mühüm amillərdən biridir. Dost Qazaxıstan qısa müddətdə nüfuzlu beynəlxalq təşkilata çevrilən Türk Dövlətləri Təşkilatının (TDT) əsasını qoyan ölkələrdən biridir. Qazaxıstan Mərkəzi Asiyada böyük coğrafiyaya malikdir, zəngin təbii resursları və əmək ehtiyatları ilə TDT-nin institusional qurum kimi möhkəmlənməsinə, funksionallığının artmasına, regional və qlobal proseslərə təsir imkanlarının genişlənməsinə davamlı töhfələr verir. Qazaxıstan TDT-də birləşən bütün ölkələrlə xoş məramа əsaslanan dinamik siyasi-iqtisadi münasibətlər qurub. Bu ölkənin rəsmiləri TDT-nin qərarlarının icrasının yüksək səviyyədə təmin olunmasına davamlı səylər göstərirlər", - deyə o əlavə edib.



Müsahibimiz vurğulayıb ki, son vaxtlar türk dövlətləri arasında keyfiyyətcə yeni əməkdaşlıq münasibətlərinin qurulmasının şahidi oluruq. Xəzər-Qara dəniz hövzələri regionunda geniş coğrafiyada yerləşən türk dövlətləri arasında birliyin möhkəmlənməsində Azərbaycan da xüsusi rol oynayır. Prezidentlərin mətbuata bəyanatı zamanı dövlət başçımız qeyd edib ki, beynəlxalq strukturlarda, ilk növbədə BMT və Türk Dövlətləri Təşkilatında birgə fəaliyyət müzakirə olunub: "Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyəti gələcəkdə də möhkəmləndirməyin zəruri olmasına dair vahid fikrə gəldik. Çünki bu təşkilat yaxın, dost, doğma ölkələri birləşdirir, həmçinin böyük potensiala, ən başlıcası inkişaf potensialına malikdir".

Deputat qeyd edib ki, iki ölkə mühüm qlobal və regional layihələrin reallaşmasında da önəmli rol oynayır: "Bu baxımdan Orta dəhliz layihəsi xüsusi vurğulanmalıdır. Prezident İlham Əliyevin dediyi kimi, Qazaxıstandan keçməklə Çin Xalq Respublikasından Azərbaycana qədər yol qət edən konteyner qatarı Trans-Xəzər nəqliyyat dəhlizinin artıq reallığa çevrilməsi, onun özlüyündə böyük dərəcədə regional əməkdaşlığın səviyyəsini müəyyən etməsinin rəmzlərindən biridir. Çünki qonşularla yaxşı münasibət olmadan tranzit ölkə olmaq mümkün deyil".

Pərvin Kərimzadə qazax xalqının Vətən müharibəsi zamanı Azərbaycana dəstək nümayiş etdirdiyini bildirərək əlavə edib ki, işğaldan azad olunmuş Füzuli şəhərində Qazaxıstan şirkəti tərəfindən inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi dostluğumuzun daha bir nümunəsidir. Hər iki dövlət başçısı martın 12-də bu mərkəzin açılışında iştirak etdi. Həmçinin Qazaxıstan Prezidentinin qədim Şuşa şəhərinə səfər etməsi də çox qürurvericidir.

Beləliklə, Azərbaycan-Qazaxıstan münasibətləri yüksələn xətlə inkişaf edir. Bu münasibətlər nəinki ölkələrimizin, bütün türk dünyasının maraqlarına uyğundur. Çünki bütövlükdə türk dünyasının güclənməsi prosesi gedir ki, burada ölkələrimizin arasında əməkdaşlığın davamlı olaraq genişləndirilməsi mühüm amildir. Qazaxıstan Prezidentinin dövlət səfəri zamanı imzalanan sənədlər isə münasibətlərimizi gələcəkdə daha da gücləndirəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Görüş yeri dəyişmir

## Dünyanın problemləri Bakıda müzakirə olunur

**Bakı daha bir əhəmiyyətli tədbirə evsahibliyi edir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumudur. "Gülüstan" sarayında keçirilən forumda təkcə qlobal əhəmiyyət kəsb edən müharibə və sülh mövzuları deyil, həm də iqlim dəyişiklikləri, sağlamlıq, pandemiya, yeni texnologiyalar məsələləri müzakirə edilir.**




Məlumat üçün bildirək ki, forum ilk dəfə 2013-cü il mayın 7-8-də keçirilmişdir. O zaman Cənubi Qafqaz Forumu adlanan beynəlxalq tədbirin açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etmişlər. Forumda qadın məsələləri, dinlərarası və mədəniyyətlərarası dialoq, regionda gedən proseslər, Qarabağın işğalı, eləcə də bölgədəki digər münaqişə ocaqları ilə bağlı vəziyyət müzakirə olunmuşdur. İki gün davam edən foruma İordaniya kraliçası xanım Nur, BMT Baş katibinin xüsusi müşaviri Nafis Sadek, Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl və bir sıra ölkələrin sabiq dövlət və hökumət başçıları, ümumilikdə dünyanın 40-dan çox ölkəsindən 200-ə yaxın tanınmış ictimai-siyasi xadim qatılmışdır. Həmin tədbirdən sonra davamlı olaraq hər il Azərbaycan bu foruma evsahibliyi edir. Foruma ildən-ilə artan marağın bir səbəbi də təbii ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qlobal problemlərin həll yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran beynəlxalq platformaya çevrilməsidir.

Qeyd edək ki, budəfəki tədbirdən bir gün öncə Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri - Latviyanın sabiq prezidenti Vayra Vike-Freyberqanı və İsmail Serageldini, eləcə də keçmiş dövlət və hökumət başçılarını, mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir. Xanım Vayra Vike-Freyberqa İlham Əliyevi prezident seçkisində qalib gəlməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, COP29-a evsahibliyi etməsi münasibətilə təbrik etmiş, Azərbaycanın dünyada "yaşıl enerji" sahəsində də qlobal lider olduğunu demiş, builki forumda 68 ölkədən gələn 400-dən çox qonağın olduğunu diqqətə çatdırmışdır. Nizami Gəncəvi Mərkəzinin digər həmsədri İsmail Serageldin isə XI Qlobal Bakı Forumunun yeni uğurlara imza atacağına ümidvar olduğunu bildirmiş, Azərbaycanın COP29-a sədrlik və bu sessiyaya evsahibliyi prosesində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin öz dəstəyini verməyə hazır olduğunu söyləmişdir.

Dünən işə başlayan XI Qlobal Bakı Forumunda COP28-in nəticələri və COP29-a hazırlıq məqsədilə qlobal müzakirələr aparılır. Yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələlərinə və sülhün təmin olunması üçün perspektivlərə, bölünmüş dünyada dayanıqlığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salınır. Həmçinin qarşıda duran problemlərin həlli yolları müzakirə olunur, dünyanı sarsıdan münaqişələr, meqatəhdidlər, iqlim, qida və nüvə təhlükəsizliyi məsələləri, eləcə də qlobal idarəetmədə hərbi və iqtisadi ittifaqların rolu, regional perspektivlər, Avropa İttifaqı və onun qonşuları ilə münasibətləri, gənclər siyasəti, qlobal çağırışlara qarşı davamlığı artırmağın yolları, qeyri-bərabərlik, təbii ehtiyatların azlığı və miqrasiya məsələlərindən, süni intellekt, dronlar və kibersilahlar dövründə yeni təhlükəsizlik nümunələrindən danışılır.

Bəs nə üçün tədbir "Parçalanmış dünyanın bərpası" adı ilə keçirilir? Bu sualın cavabını BMT Baş katibinin siyasi məsələlər üzrə müavini Qay Rayder belə vermişdir: "Qlobal məsələləri sürətlə həll etməliyik. BMT Baş katibi dəfələrlə bəyan edib ki, bu, iqtisadiyyat və bir çox şeyə ziyan vurur. Nə qədər ki, parçalanmış dünyada olacağıq, bu proseslər davam edəcək. Ona görə də bunu aradan qaldırmaq üçün səy göstərməliyik. BMT-nin bu gün 193 üzvü var. Biz atılan addımlarda yenilik etməliyik. Bizim gələcəyimiz üçün nəzərdə tutulan danışıqlar davam edir". Albaniya Prezidenti Bayram Beqay da çıxışında "Parçalanmış dünyanın bərpası"na toxunmuşdur: "Gələcək çiçəklənən, sülh içində olan Avropadan keçir. Biz qonşuluq siyasətinin davam etdirilməsinə həm ölkəmizdə, həm də ölkəmizdən kənarda hazırıq. Artıq vaxt yetişib, dostluq, əməkdaşlıq yolunda irəliləməliyik. Parçalanmış dünyanın bərpası üçün körpülər salmalıyıq. Bu da sülhü təşviq edə bilər".

Bakı Forumu əhəmiyyətinə və əhatəsinə görə dünyada nüfuzlu tədbirlərdən sayılır. Bu barədə forumda çıxış edən Prezident İlham Əliyev belə demişdir: "Düşünürəm ki, Qlobal Bakı Forumu Davos Dünya İqtisadi Forumu və Münxen Təhlükəsizlik Konfransı qədər vacibdir". Amma Beynəlxalq Qlobal Bakı Forumunu adıçəkilən forumlardan fərqləndirən cəhətlər də var. Davos Forumunda yalnız iqtisadi, Münxen Forumunda isə təhlükəsizlik məsələləri müzakirə olunur. Bakı Qlobal Forumu isə beynəlxalq gündəmdə olan siyasi, iqtisadi, humanitar və digər məsələləri əhatə edir. Ona görə də Bakı Forumu bu dəfə də qlobal məsələlərin müzakirə edildiyi beynəlxalq tədbir kimi dünyanın diqqət mərkəzindədir.

Ümumiyyətlə, Cənubi Qafqazda həyata keçirilən əksər qlobal layihələrin müəllifi və ev sahibi Azərbaycandır. Bu o deməkdir ki, ölkəmiz beynəlxalq problemlərin həllini çözmək üçün ideal məkandır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransa münaqişə ocaqlarının çoxalmasında maraqlıdır

**"Fransa Prezidenti Emmanuel Makronun yürütdüyü siyasət ölkəsini dünyada rüsvay edir. Makron planetin istənilən nöqtəsində baş verən hadisəyə münasibət bildirməyi özünə borc bilir, amma onun fəaliyyəti danışmaqdan uzağa getmir. Bununla belə Makron qanlı toqquşmaları qızışdırır və insan ölümlərindən sanki qürur duyur. Bu, Parisin indiki hakimiyyətinin xislətini, insan ölümlərinə və müharibəyə meyilli simasını nümayiş etdirir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov bildirib. Fransanın dünyada etimadını itirdiyini deyən deputat Parisin Azərbaycan üçün ikitərəfli münasibətlərdə məqbul hesab ediləcək ölkə kimi hörmət və etibarını da itirdiyini xatırladıb. Bildirib ki, Makron üçün hansısa ölkənin mənafeyi və sabitliyi yox, şəxsi biznes və gəlirlərini artırması, münaqişə ocaqları yaratmaqda, silah sataraq burada biznesini inkişaf etdirmək maraqlıdır. Bundan başqa, az qala hər gün Rusiya-Ukrayna müharibəsinə münasibət bildirən, dünyanı Ukraynaya dəstək göstərməyə çağıran Makronun öz ölkəsinin Ukraynaya yardımı gülünc rəqəmlərdə ifadə olunur. Belə görünür ki, 2 ildir davam edən müharibədə Fransa Ukraynaya normal yardım belə etməyib. Makron ancaq Ukraynanı boşboğazlıq edərək silahlandırmaqla məşğuldur.

Deputatın sözlərinə görə, Fransa ötən il dünyada silah ixrac edən ikinci dövlət olub: "Bunun da səbəbi Makrona yaxın olan silah sənayesi şirkətlərinin müxtəlif bölgələrdə qanlı qarşıdurmalara rəvac verərək sürətli silahlandırmanı təmin etmələridir. Fransa Prezidenti indi də Moldovada missiya yaradır. Makron Ermənistanda da missiyanın yaradılmasına nail olub, bu ölkəyə silah satır, Fransa şirkətlərinin lisenziyası əsasında Hindistan tərəfindən istehsal olunan silahlar Ermənistana satılır. Amma bu dövr ərzində Ermənistanın durumu daha da pisləşib".

Aydın Hüseynov Fransanın imperializm və müstəmləkəçilik siyasətinə toxunaraq qeyd edib ki, bu ölkə iki əsrə yaxındır Yeni Kaledoniya xalqını əsarətdə saxlayır, bu xalq ağır müstəmləkəçilik siyasətindən əziyyət çəkir. Burada yaşayan kanak və digər etnik xalqlar müstəqillik mücadiləsi aparırlar. Təəssüf ki, Fransa hökuməti onların səsini eşitmək istəmir və Yeni Kaledoniyanın - kanakların institusional gələcəyinə dair irticaçı siyasət yürüdür. Kanak xalqının dekolonizasiya və öz müqəddəratını təyinetmə prosesinə imkan vermir.

"Makron və onun hökuməti üçün "milli maraq" Yeni Kaledoniyanın qəti olaraq fransız olmasıdır. Onların nəzərində bu, Hind-Sakit Okean kimi tanınmış və getdikcə həlledici zonaya çevrilən regionda iqtisadi və strateji aktivliyi təmin edir. Hökumət bununla da neokolonial təkəbbürü və kanak xalqına hörmətsizliyi davam etdirməyə haqq qazandırır", - deyə müsahibimiz qeyd edib.

Azərbaycan xalqının böyük mütəfəkkiri Xurşidbanu Natəvanın heykəlinə qarşı fransızların vandal davranışlarına da toxunan Aydın Hüseynov qeyd edib ki, Natəvanın heykəlinə qarşı baş vermiş bu mənəvi soyqırımı Fransa hakimiyyətinin mənfur və əsl vəhşi obrazının ifadəsidir. Bu ölkə dünyada humanizmə və maddi dəyərlərə qarşı iyrənc və murdar əməlləri ilə bəşəriyyətin maddi-mənəvi abidələrinin qatili olmasını nümayiş etdirir.

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

## Ermənistan hələ də Qərbin direktivlərini icra edir

### Sülh müqaviləsinin imzalanmaması üçün süni maneələr yaradılır

**"Ermənistanda separatçılara yenidən meydan verilməsi yalnız Paşinyan iqtidarının iradəsi ilə mümkündür. Görünən odur ki, rəsmi İrəvan artıq "Qarabağ erməniləri"ndən və keçmiş xunta rejiminin "funksionerləri"ndən siyasi alət kimi həm daxildə revanşist kəsimin dəstəyinin qazanılması, həm də Azərbaycana qarşı təsir rıçağı kimi istifadə etmək istəyir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, Ermənistan hələ də nəzarətində saxladığı anklav və qeyri-anklavlardan ibarət 8 kəndin qaytarılması, habelə sülh müqaviləsinin imzalanması üçün heç bir əngəlin qalmaması fonunda süni maneələr formalaşdıraraq dayanıqlı sülhün yolverilməzliyi barədə Qərbin, xüsusən Parisin direktivlərini icra edir. Məlumdur ki, Paşinyan iqtidarı həm antiterror tədbirləri zamanı, həm də sonrakı dövrdə bir müddət öncəyə qədər Qarabağ iqtisadi rayonundan könüllü şəkildə köçən erməniəsilli sakinlərə, yaxud Ermənistan vətəndaşlarına münasibətdə təmkinli davranır və bu da ümumi sülh prosesində özünün müsbət təsirini göstərirdi. Hətta 2023-cü ilin 20 sentyabr tarixində Prezident İlham Əliyev antiterror əməliyyatlarında zəfərimizlə əlaqədar xalqa müraciətində də qeyd etmişdi: "Ermənistan bu dövr ərzində - dünən, bu gün deyə bilərəm ki, gözlənilmədən siyasi səriştə göstərib və biz bunu qiymətləndiririk. Bunu önəmli amil kimi görürük və hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr eyni zamanda Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək". Deputat qeyd edib ki, Fransanın pozuculuq fəaliyyəti, Emmanuel Makronun "Daşnaksütyun" partiyasının, yaxud ASALA terror təşkilatının rəhbəri kimi davranaraq İrəvanı sülhdən yayındırması prosesi demək olar prosesləri yarımçıq qoyub. Ümumiyyətlə, 30 illik münaqişə tarixində proseslərin gedişatını təhlil etdikdə çoxsaylı təkzibedilməz faktlar onu deməyə əsas verir ki, vasitəçilik missiyası altında pərdələnən Qərb Azərbaycan və Ermənistan arasında münaqişəli vəziyyətə, habelə Azərbaycan ərazisində separatizmin mövcudluğuna regiona təsir rıçağı kimi baxır və mümkün qədər beynəlxalq hüququn normalarında əksini tapan prinsiplərə zidd olan həmin status-kvonu qorumağa çalışırdı. "İşğal dövründə başda Fransa və ABŞ olmaqla, çoxsaylı beynəlxalq hüquq subyektləri münaqişənin həllini yox, dondurulmasını arzu edir, işğal və təcavüzdə ehtiva edən situasiyada xalqlar arasında etimad quruculuğu, Azərbaycan ərazisində erməni qoşunlarının qaldığı, separatçı rejimin mövcud olduğu bir şəraitdə kommunikasiya xətlərinin açılmasına, ticari əlaqələrin bərpa edilməsinə çağırışlar edirdilər. Bu məsələdə Qərb əlaqələrin normallaşmasına nail olmaqla Ermənistanın qələbəsinin davamlılığını qorumaq, Azərbaycanı isə bu reallıqla barışdırmaq istəyirdi", - deyə deputat əlavə edib.

B.Məhərrəmov bildirib ki, Prezident İlham Əliyevin Vətən müharibəsi və antiterror tədbirlərindəki müstəsna zəfərlərinin ardınca Ermənistan və ən əsası İrəvanın Qərbdəki havadarları işğal və separatizm rıçaqlarından məhrum olublar və bununla da özünü beynəlxalq ictimaiyyət adlandıran, 30 ildir vasitəçilik nağılları danışan qlobal subyektlərin iç üzü açılıb. Ötən dövr ərzində məhz bu beynəlxalq subyektlər müxtəlif müstəvidə Azərbaycan əleyhinə kampaniyalara başladılar, hətta BMT Təhlükəsizlik Şurasında ölkəmizi təcavüzkar kimi qələmə verməyə çalışdılar. Eyni zamanda Azərbaycan daxilində Qərbin maliyyə dəstəyi ilə formalaşan QHT və media subyektləri milli maraqlarımız əleyhinə aktivləşdirildi. Lakin Azərbaycan bu istiqamətdə də təzyiqləri neytrallaşdırmağa və qarşısını almağa, o cümlədən Fransa xüsusi xidmət orqanlarının timsalında xarici və yerli casus şəbəkəsini ifşa edərək zərərsizləşdirməyə nail oldu. Belə olan halda bu gün Ermənistan və havadarları keçmiş xunta rejiminin funksionerlərinə regionda siyasi və əməliyyat şəraitinə nəzarət edən, şərti sərhədlər boyu bütün strateji yüksəkliklərdə möhkəmlənən, döyüş qabiliyyəti və peşakarlığını davamlı şəkildə artıran, arsenalını sürətlə ən müasir silah, sursat və texnologiya ilə yeniləməkdə olan Azərbaycana qarşısında istifadə edə biləcəyi yeganə element kimi baxırlar.

Deputat qeyd edib ki, Azərbaycanın hərbi-siyasi imkanları ilə yanaşı, həm də mövqeyi beynəlxalq hüquqa əsaslanır: "Ermənistanın 2022-ci ilin oktyabrı və 2023-cü ilin mayında rəqəmlərdə ifadə etdiyi Azərbaycanın ərazi bütövlüyü hələ də bu ölkənin qanunsuz nəzarətində olan kəndləri də əhatələyir. Habelə əgər İrəvan heç bir əsas olmadan ləyaqətli qayıdış hüququndan danışırsa, separatizmə məhz bu çərçivədə don geyindirmək istəyirsə, yanılır. Azərbaycan öz ərazisindən heç bir erməniəsilli sakinin çıxarılmasında maraqlı olmayıb, əksinə, Xankəndi və ətraf ərazilərdə yaşayan, Ermənistan pasportu daşıyan insanlar özləri etnik separatizmin, milli nifrət hissinin daşıyıcıları olaraq Azərbaycanın yurisdiksiyası altında yaşamağa razı olmamış, hakimiyyət orqanlarının müxtəlif formalarda çağırışlarına məhəl qoymayaraq könüllü formada Qarabağı ləyaqət və təhlükəsizlikləri təmin olunmaqla tərk ediblər. Amma bu gün hələ də öz doğma yurduna qayıda bilməyən qərbi azərbaycanlılar barədə eyni şərait yaradılıbmı? Qərbi Azərbaycanın demək olar ki, bütün mahallarında yaşayan soydaşlarımız soyqırımı əlamətləri təhdidi altında, məhz azərbaycanlı olduqlarına görə Ermənistanın dövlət siyasətinə çevrilmiş etnik təmizləmənin nəticəsində öz yurd-yuvalarından işgəncələr altında qovulmuş, bu gün də onların geri dönüşü üçün İrəvan faktiki olaraq perspektiv qoymamaqdadır. Belə olan halda əgər Qarabağdan könüllü şəkildə köçən sayı şişirdilmiş ermənilərin məsələsi gündəmə gəlirsə, ondan daha öncə 300 mindən artıq qərbi azərbaycanlının haqları müzakirə olunmalıdır".

B.Məhərrəmov vurğulayıb ki, Ermənistan və ya havadarları Qərbi Azərbaycan irsinin məhv edilməsi, soydaşlarımızın öz yurdlarına qayıtmasını mümkünsüz edən situasiyaya aydınlıq gətirmədən Azərbaycan və Ermənistan arasında bu yöndə heç bir məsələ müzakirə oluna bilməz. Ona görə də Paşinyan hakimiyyəti separatçı rejimin tör-töküntülərinə İrəvana meydan verilməsinin ağır nəticələri barədə düşünməli, qərbi azərbaycanlıların haqlarının bərpası üçün Azərbaycan dövləti tərəfindən bütün mümkün tədbirlərin görüləcəyini yaddan çıxarmamalıdır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Separatçıları Avropaya göndərən Ermənistanın avantüraları nəticə verməyəcək

**"Qondarma rejim Ermənistanda yenidən baş qaldırmağa çalışır. İrəvana sığınan erməni separatçı rejimin tör-töküntüləri bu məqsədlə Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyanın rəhbərliyi ilə "Artsax üzrə beynəlxalq komitə" də yaradıblar. Ermənilər 44 günlük müharibədə darmadağın edilən ideyalarını yenidən gündəmə gətirmək və Qərbdən maliyyə vəsaiti almaq niyyəti ilə ağıllarına gələn bütün üsullara əl atırlar. Lakin unudurlar ki, Azərbaycanın qətiyyəti qarşısında onların cəhdləri heç bir nəticə verməyəcək".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, separatçıların əsas məqsədi İrəvana köçən ermənilərin Qarabağa qayıdışını təmin etməkdir: "Ona görə də yaratdıqları "komitə" ilə Qərbin müxtəlif siyasi xadimləri ilə intensiv görüşlər keçirirlər. Separatçılar həm də maliyyə vəsaitləri əldə etmək istəyirlər. Çünki vaxtilə onlara pul yatıran kilsə və diaspor təşkilatları artıq vəsait ayırmır. Yəni qondarma qurumun mövcud maliyyə mənbələri kəsilib. Əlacı kəsilən separatçılar belə olan halda Qarabağ kartından istifadə etmək üçün Qərbə üz tuturlar".

Arzu Nağıyevin sözlərinə görə, xarici işlər naziri olduğu vaxtlarda Ermənistanın, eləcə də qondarma qurumun bir işinə yaramayan Oskanyan indi nəsə əldə edəcəyinə ümid edir: "Hələ o vaxt qurduğu əlaqələrindən istifadə edərək separatçı rejim üçün maliyyə mənbələrini işə salmağa çalışır. Yaratdığı "komitə" ilə görüşlərə qatılan bu şəxs müxtəlif ölkələrdə yerləşmiş erməni lobbisi ilə yaxın əlaqələr qurur. Lakin belə separatçı şəxsləri qəbul edən rəsmilər anlamalıdırlar ki, onların bu davranışı Azərbaycanın suverenliyinə təhdid kimi qəbul edilə bilər.

Deputat onu da bildirib ki, Paşinyan hökuməti İrəvana sığınan ermənilər üçün "qaçqın" statusunu təmin etməyə çalışır. Ona görə də dəfələrlə qondarma etnik təmizləmə məsələsini qaldırıblar. Lakin bütün dünyaya məlumdur ki, Ermənistana köçən və vaxtilə Qarabağ ərazisində yaşayan ermənilər heç bir qaçqın statusuna malik deyillər. Çünki onların böyük əksəriyyəti Ermənistan pasportundan istifadə edirlər.

Arzu Nağıyev yekunda vurğulayıb ki, Ermənistanın belə absurd cəhdləri heç bir nəticə verməyəcək: "Əgər avantürist cəhdləri ilə nə isə əldə etmək mümkün olsaydı, bunu 30 il ərzində bacarardılar. Azərbaycan Ordusu Ermənistanın illər boyu qurduğu istehkamları cəmi 44 günün içində darmadağın etdi. Cəmi 23 saat ərzində isə separatçı rejimi tarixin zibilliyinə yolladı. Odur ki, Vardan Oskanyanın timsalında ölkəmiz əleyhinə qərəzli və təxribatçı addım atan bütün qüvvələr məğlubiyyətə məhkumdur".

***N.QAFARZADƏ, "Azərbaycan"***

## Ermənistan havadarlarının sifarişlərini yerinə yetirməklə regional əməkdaşlıq imkanlarını itirir

**Ermənilər xislətlərinə uyğun türk dünyasının milli bayramları, Novruz çərşənbələri ərəfəsində təxribat törətməklə, qəfil hücumlar təşkil etməklə xalqımızın bayram ovqatını pozmağa, necə deyərlər, yanan tonqallara soyuq su çiləməyə, soydaşlarımızı yurd-yuvalarından perik salmağa çalışmışdılar. Ermənistan silahlı qüvvələri bölmələrinin elə bu il martın 11-də saat 12:10-da Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Tovuz rayonunun Əsrik yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kvadrokopter vasitəsilə kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərməsi söylədiklərimizin bariz nümunəsidir.**

Deyirlər dəyirman bildiyini edir, çax-çax baş ağrıdır. Azərbaycan işğaldan azad edilmiş ərazilərdə bərpa-tikinti və quruculuq işləri ilə 30-32 il əvvəl elindən-obasından didərgin salınan insanların ata-baba yurdlarına qayıdışını təmin etdiyi bir vaxtda ermənilər təxribatla məşğul olurlar. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən aldığımız məlumata görə, bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan pilotsuz uçuş aparatı xüsusi texniki vasitələrlə zərərsizləşdirilib.

Xatırladaq ki, 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərindən sonra Qarabağda kök salmış separatçı rejim tamamilə ləğv olundu. Bu, Bakı ilə İrəvan arasında gərginliyin azaldılmasına müəyyən töhfə verdi və sülhün yeganə reallıq olduğunu müəyyənləşdirdi. Bir neçə ay Ermənistanla Azərbaycan arasında heç bir gərginlik yaşanmadı. Lakin bu sakitlik uzun çəkmədi, Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə açılan atəş nəticəsində hərbi qulluqçumuz yaralandı. Atəş Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən açılmışdı. Zəngilan istiqamətində ermənilərin törətdikləri təxribata cavab olaraq fevralın 13-də keçirilən "Qisas" əməliyyatının nəticələri Ermənistan üçün ağır oldu: bir əsgərimizin yaralanmasına qarşı 4 erməni hərbçisi məhv edildi, biri yaralandı.




Görünən odur ki, İrəvan üçün maraqlı olan nə qədər insan itkisi verməsi yox, öz çirkin maraqlarının necə təmin edilməsidir. Ekspertlərin fikrincə, təcrübəyə əsasən Bakının adekvat addımlarının ağır nəticələrinin olacağını bildikləri halda təxribata əl atmaları isə hədəfin hərbi yox, siyasi olduğunu deməyə əsas verir. Çünki hadisədən dərhal sonra Ermənistan Xarici İşlər Nazirliyi açıqlamasında Azərbaycanı "danışıqları pozmaqda", "sərhəddə eskalasiya yaratmaqda" ittiham etməyə cəhd etdi. Ermənistanın bu iddiaları bölgədə heç nəyi dəyişdirməsə də, Avropa strukturlarında "Qisas" əməliyyatını "Azərbaycanın hücumu" olaraq göstərməyə və bundan Bakıya qarşı təzyiq kimi istifadə etməyə imkan yarandığını düşündülər.

Vətən müharibəsindən sonra bir neçə ay davam edən sakitlik məhz rəsmi Bakının hərbi-diplomatik səylərinin nəticəsi idi. Lakin Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində, eləcə də Ermənistan silahlı qüvvələri bölmələrinin bu il martın 11-də günün günorta çağı Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Tovuz rayonunun Əsrik yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kvadrokopter vasitəsilə kəşfiyyat uçuşları həyata keçirməyə cəhd etməsi göstərir ki, Ermənistanın konstruktiv hərbi vəziyyəti davam etdirməyə siyasi iradəsi çatmır.

Əslində, Ermənistanın belə təxribatlara əl atması gözləniləndir. Hindistan və Fransa kimi dövlətlərin son zamanlar Ermənistanı sürətlə silahlandırması, Avropa İttifaqının (Aİ) Ermənistandakı missiyasının genişləndirilməsi istiqamətində səyləri, habelə Fransa Milli Jandarmının xarici missiyalarının komandiri, briqada generalı Uilyam De Meyerin Ermənistana gedərək binoklla Azərbaycana - işğaldan azad edilən ərazilərə tərəf baxması təsadüfi deyil. Bütün bunların gözlənilən nəticələri göz qabağındadır. Maraqlıdır ki, həmin vaxtlarda xarici KİV-də, o cümlədən İrəvan mediasında Ermənistanın sərhəddə əməliyyat həyata keçirərək siyasi arenada uğur qazanacağı iddia edilirdi...

Bütün bunlar deməyə əsas verir ki, təxribatlar qəsdən və planlı şəkildə törədilir. Qarşı tərəf vəziyyəti bilərəkdən gərginləşdirməyə çalışır və hiss olunur ki, bundan sonra da Cənubi Qafqazdakı geosiyasi mübarizə fonunda bu kimi təxribatların davam etməsi ehtimalı qaçılmazdır.

Maraqlıdır ki, Ermənistanın baş naziri Nikol Paşinyan mətbuata açıqlamalarında, müxtəlif dairələrdə çıxışlarında İrəvanın Bakı ilə sülh müqaviləsini imzalamağa hazır olduğunu bildirir. Onun sözlərinə görə, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin arxitekturası və prinsipləri razılaşdırılıb, İrəvanın bu sənədi imzalaması üçün siyasi iradəsi var.

Görünən odur ki, Paşinyan kənar güclərin, o cümlədən ABŞ-nin, Fransanın, Avropa İttifaqının (Aİ) təsiri altındadır. Adıçəkilən ölkələrin hər biri İrəvana təzyiq göstərərək öz maraqlarını təmin etməyə çalışırlar. Onların bir çoxu, xüsusilə Qərb oyunçuları regiondakı təsir güclərini artırmağa çalışırlar və bunun üçün gərginliyin yaranmasına, güclənməsinə səy göstərirlər. Ermənistan isə lazımi siyasi iradə ortaya qoya bilmədiyindən kənar güclərin təhrikinə məruz qalır. Bununla da Ermənistan bölgədə süni gərginlik yaratmaqla, üçüncü tərəflərin sifarişlərini yerinə yetirməklə, ən başlıcası onlara inanmaqla, əslində, "oturduğu budağı baltalayır", regional əməkdaşlıq imkanlarını itirir.

***Rəhman SALMANLI, "Azərbaycan"***





# Mədəniyyət





Ustadlarımız

# Muğamın zirvəsində

**Sənət elə bir aləmdir ki, burada kimin necə görünəcəyini, yaradıcılıq zirvəsinə çatmaqdan ötrü hansı yollardan keçəcəyini heç kəs təxmin edə bilmir. Bəzən ayrı-ayrı insanlar onları sənətin yüksək pilləsinə aparıb çıxaracaq çox parlaq istedada malik olur. Amma öz istedadına etinasızlığı səbəbindən Tanrı vergisini təhsilin, davamlı öyrənmənin gücü ilə cilalamaması üzündən bu parlaqlıq yavaş-yavaş sönüb yoxa çıxır. Bir gün həmin istedaddan daha heç nə qalmır.**

Elələri də olur ki, zəngin bir təhsil yolu keçir, davamlı öyrənir, zəhmətə qatlaşır, öz üzərində daim çalışıb sənətdə peşəkar kimi yetişir. Belələri böyük rəğbətə layiqdirlər. Bununla belə həmin əzmkarlığın, özünüinkişafın arxasında fitri istedad görünməyəndə həssas nəzərlər bu yoxluğu onların sənətində həmişə duyub hiss edə bilirlər.

Qədim xanəndəlik ənənələrinin layiqli davamçılarından olan Xalq artisti Hacıbaba Hüseynov xüsusi təhsil yolu keçməsə də, fitri istedadı onu muğam sənətinin əsl ustadı zirvəsinə yüksəltmişdir. O, ifaçılıq mədəniyyətinin parlaq nümunələrini yaratmışdır.

## Çəmbərəkənddən başlanan ömür

Düz 105 il əvvəl - 15 mart 1919-cu ildə Bakının qədim Çəmbərəkənd məhəlləsində dünyaya gəlmiş mərhum xanəndə Hacıbaba Hüseynova musiqi təhsili almaq qismət olmamışdı. Onu peşəkar sənətə gətirən, bir də ömrünün ahıl çağlarında Azərbaycan musiqisinin parlaq təmsilçilərindən biri kimi beynəlxalq səhnələrə aparıb çıxaran yollar isə sırf təsadüflərlə bağlı olmuşdu. Bu təsadüflər mərhum sənətkara cəmi 4-cü sinfə qədər oxumağa macal verməmişdi. Ömrünün müəyyən hissəsini dənizdə, qayıqlardan yükboşaltma işində, sonra gəmi təmiri zavodunda tornaçı dəzgahının arxasında keçirmişdi, yalnız bir neçə onillikdən sonra bütün ruhu ilə bağlı olduğu sənət dünyasına gəlib çıxmışdı. Amma bütün bu təsadüflərin içində bir sirr vardı ki, bu da Hacıbaba Hüseynovun fitri musiqi istedadı idi. O, ömrü boyu öz istedadının qayğısına qalırdı. Oxuyub, baxıb, dinləyib, sınayıb öyrənməkdən, sənət dəryasının dərinliklərinə baş vurmaqdan əsla yorulmur, bu bacarığı tələbələrinə də ötürməyə çalışırdı.

Onun istedadı təkcə musiqi sahəsində deyildi. Hacıbaba Hüseynov xanəndə olduğu qədər həm də gözəl şair, qəzəlxan, böyük müəllim, tələbələrinin sevimli ustadı idi. O, inanclı bir ailədə böyümüşdü, hələ uşaq ikən həyatın sərt dəyişiklikləri dövründən keçmişdi.

Elə təhsilini yarımçıq qoymağının da səbəbi hələ yaşının erkən çağlarından inandığı dəyərlərə bağlılığından, prinsiplərinə sadiqliyindən irəli gəlirdi. Çox sonralar xatirələrində yazırdı ki, dördüncü sinfi bitirib beşinciyə keçmək ərəfəsində məktəblərinin komsomol təşkilatı katibi əlində bir dəstə kitabça sinfə girir. Onlara sovet məktəbliləri olduğunu xatırladır və "Allahsızlar cəmiyyəti"nə üzv olmalarının vacibliyini bildirir. Bu izahdan sonra əlindəki kitabçaları bir-bir şagirdlərə paylamağa başlayır. Onlardan birini də 14 yaşlı Hacıbabaya verir. Həmin gündən bu yeniyetmə məktəbdən uzaqlaşır.

## Dənizçi oğlu

Atası Hüseynəli kişi dənizçi idi. Məktəbdən çıxandan sonra Hacıbaba atasının yanında çalışmağa başlayır, yük daşıyır. Amma sinifdən, məktəb partasından uzaq düşsə də, oxumaqdan uzaq düşmür, kitablar onun ən yaxın dostuna çevrilir. Onların köməyi ilə bu istedadlı gənc biliyini, savadını durmadan artırır. Eyni zamanda musiqi istedadını inkişaf etdirməyindən, eşitdiyi mahnıların sözlərini dərhal öyrənməyindən, zümzümə etməyindən də qalmır. Bu istedadına bələd olan adamların xahişi ilə nə vaxtsa məhəllələrindəki dini mərasimlərdə növhələr dediyi, mərsiyələr oxuduğu vaxtlar da olmuşdu. Onda sənayeləşmə yenicə başlamışdı. Atası uzaqgörən adam idi, hiss edirdi ki, oğlu mütləq bir sənətin sahibi olmalıdır. Ona görə də Hacıbabanı Paris Kommunası adına Gəmi Təmiri Zavodunun nəzdindəki fabrik-zavod məktəbinə qoyur. Gələcəyin məşhur xanəndəsi burada tornaçı ixtisasına yiyələnir. Təhsilini başa vurandan sonra da elə zavodda qalıb işləməyə başlayır. Hacıbaba Hüseynov o kəslərdən idi ki, məşğul olduğu hər işdə mükəmməlliyə çalışır, kamilliyə can atırdı. Bu, məşğul olduğu tornaçı peşəsinə yanaşmasından da hiss olunurdu. Yaşı çox deyildi, amma bu qısa müddətdə zavodun ən səriştəli tornaçılarından biri kimi ad çıxarmışdı.

İşi musiqidən kənar sahədə olsa da, ondan uzaq düşməmişdi. İmkan tapan kimi bu sənətin incəliklərini öyrənir, bacarıqlarını təkmilləşdirirdi. Onda müharibə dövrü idi, çox ağır günlər yaşanırdı. İnsanlar cəbhədəki doğmalarının intizarını çəkirdilər, evlərə qara xəbərlər gəlirdi. Sabah nə baş verəcəyini kimsə bilmirdi. El-obada toylar, şənliklər çox olmazdı. Amma ara-sıra toy şənlikləri yenə təşkil edilirdi. Bəzən yaralanıb cəbhədən qayıtmış gənclərə toy büsatı qurulurdu. Bəzən ailələr bir neçə ay sonra cəbhəyə yola düşəcək övladlarına toy edirdilər ki, arzu-kamları qəlblərində qalmasın. Musiqiçi dostları belə toy məclislərinə hərdən Hacıbaba Hüseynovu da aparırdılar. Xüsusilə qohumu qarmonçalan Teymur Dəmirovla toylara tez-tez gedirdi. O, heç bir musiqi təhsili almadan nağarada ifa etməyi mükəmməl öyrənmişdi. Elə toylara da əvvəllər nağaraçı kimi gedir, yalnız yaxşı səsinin olduğunu bilənlər ondan xahiş edəndə hərdən bir-iki ağız da oxuyardı. Onun üçün sənətdə çox böyük meyarlar vardı. Zülfi Adıgözəlov, Seyid Şuşinski, Xan Şuşinski kimi ustadların iştirak etdiyi məclisdə oxumağı qəti qəbul etmirdi. Hətta onların öz ifaları ilə necə dəyərlər möhürünü vurduqları mahnıları artıq özü böyük sənətkar kimi şöhrət tapdığı vaxtlarda da repertuarına salıb oxumağı doğru sanmazdı.

## Əhməd Bakıxanovla tanışlıq

Azərbaycanın daha bir görkəmli müğənnisi Sara Qədimovanın bacısı ilə ailə həyatı qurmuşdu. 1945-ci ildə - müharibə başa çatandan sonra Sara xanım onu məşhur pedaqoq, tarzən Əhməd Bakıxanovla tanış edir. Bu tanışlıq Hacıbaba Hüseynovun sənət taleyində çox böyük rol oynayır. Əhməd Bakıxanovun dəvəti ilə gənc Hacıbaba onun ansamblında çalışmağa başlayır, görkəmli sənərkarların yanında musiqinin sirlərinə daha dərindən vaqif olurdu.

Heyrətamiz dərəcədə güclü hafizəsi ona klassik ədəbiyyat nümunələrini tez bir zamanda əzbərləməyə, əruzun incəliklərini mənimsəməyə imkan verirdi. Cavanlıqdan özü də şeirlər, qəzəllər, müxəmməslər yazır, davamlı mütaliənin köməyi ilə yaradıcılığını mükəmməlləşdirirdi. Məhəmməd Füzuli, Seyid Əzim kimi klassiklərimiz əsrlərin o üzündən görkəmli sənətkarın zəkasına işıq salan çıraqlar, yol göstərən ustadlar idi. O, Əhməd Bakıxanovu da ömrünün sonuna qədər özünün ustadlarından sanırdı.

1962-ci ildə Hacıbaba Hüseynov Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Məktəbində muğamatdan dərs deməyə başlayır və burada ömrünün sonuna qədər - düz 30 il pedaqoji fəaliyyətlə məşğul olur. Bu illərdə hər biri Azərbaycan musiqisi tarixinin parlaq simaları olan Nəzakət Məmmədova, Qədir Rüstəmov, Səxavət Məmmədov, Zaur Rzayev, Teymur Mustafayev, Sabir Əliyev, Bilal Əliyev, Zabit Nəbizadə və başqa belə tanınmış sənətkarlarımız Hacıbaba Hüseynovdan dərs almışlar. Amma onun sinfində tələbə kimi iştirak etmədən də Hacıbaba müəllimdən öyrənən çoxlu sayda xanəndə vardı. Məsələn, Ağaxan Abdullayev, Alim Qasımov kimi sənətkarlar Hacıbaba Hüseynovun ifalarından ciddi şəkildə təsirlənmişdilər. Bir zaman ustadların ifalarını, söhbətlərini dinləyərək, yazdıqlarını oxuyaraq öyrənən Hacıbaba müəllim artıq özü Azərbaycan musiqi sənətinin sanballı ustadlarından idi. O, "Rast" muğamının "Üşşaq", "Hüseyni", "Novruzi ravəndə" və digər muğamlarda olan "Şah Xətai" şöbələrinin ilk ifaçılarından sayılırdı. Onun təşəbbüsü ilə "Bayatı-Şiraz" muğamının "Dilrüba" şöbəsi dərsliyə əlavə olunmuşdur.

## Mötəbər körpü

Hacıbaba Hüseynov bir çox musiqi tədqiqatçılarımızın da haqlı olaraq qeyd etdikləri kimi, muğam sənətimizin dünəni ilə bu günü və gələcəyi arasında çox mötəbər bir körpü idi. O, klassik muğam irsimizin təşəkkül tapıb formalaşdığı əsrarəngiz dövrlə gələcək arasında çox vacib rabitə qurmağı bacaran sənətkarlarımızdandır. Həmişə maraqlı söhbətlər, müzakirələr mühitinə, savadlı insanlarla ünsiyyətə can atan Hacıbaba Hüseynov son dərəcə müdrik, dərin bir insan idi. Klassik ədəbiyyat incilərimizi güclü hafizəsində yaşadan ustad sənətkar 300-dən artıq qəzəli, müxəmməsi, rübaisi, qoşmaları ilə özü də Azərbaycan ədəbiyyatı xəzinəsinə bir-birindən gözəl töhfələr vermişdir. Hacıbaba Hüseynovun qələmindən çıxan poeziya nümunələri bu gün də ayrı-ayrı xanəndələrimizin repertuarında yer tutaraq sevgi ilə oxunur, dəyərli bir irsi yaşadır.



Görkəmli sənətkarın bəstəkarlıq qabiliyyəti də güclü idi. Bəstəkarlıq səriştəsindən istifadə edərək o, uşaqlıq illərində, gəncliyində, yeniyetməlik çağlarında eşitdiyi hansısa unudulmuş melodiyaları, ayrı-ayrı təsnifləri bərpa etməyi bacarırdı. Onları müasirləşdirərək daha gözəl hala salır, köhnəlmiş sözləri dəyişir, yeri gələndə öz yaradıcılığından və ya digər şairlərdən uyğun gələn misralar əlavə edir, bir-birindən gözəl yeni musiqi lövhələri yaradaraq dinləyicilərin könlünü oxşayırdı.

Ömrünün ahıl çağlarında xanəndə bir-birinin ardınca xarici ölkələrə qastrol səfərlərində də olmuşdu. 1989-cu ildə Azərbaycanın böyük bir musiqiçi və ziyalı heyəti ilə İraqa, 1990-cı ildə Türkiyənin Adana şəhərinə getmişdi. 1991-ci ildə isə 1 ay ərzində Belçikanın Brüssel, Fransanın Paris, Marsel, Lyon, Monpelye şəhərlərində, İsveçrədə, Hollandiyada qastrol konsertləri vermişdi. 1992-ci ildə isə on iki nəfərlik musiqiçi heyəti ilə İrana 2 aylıq qastrol səfəri uğurla baş tutmuşdu.

Hacıbaba Hüseynov 1993-cü il oktyabrın 24-də Bakıda vəfat etmişdir.

Görkəmli muğam ustadının sənətini xalqımız və dövlətimiz daim yüksək qiymətləndirmişdir. O, Azərbaycan Respublikasının Əməkdar artisti və qısa müddətdən sonra Xalq artisti adına layiq görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2019-cu ildə Hacıbaba Hüseynovun 100 illik yubileyi yüksək səviyyədə qeyd edilmişdir.

Hacıbaba Hüseynov elə sənətkardır ki, bütün nəsillərin təmsilçiləri onun ifalarını böyük sevgi ilə dinləyir, yüksək dəyərləndirirlər. Ustad sənətkarın dinləyiciləri sırasında yeni nəslin nümayəndələrini görmək çox gözəldir. Bu, ona dəlalət edir ki, əsl sənət də, sənətkar da əbədiyaşardır. Hacıbaba Hüseynov da öz sənəti ilə bu əbədiyaşarlığın rəmzinə çevrilib.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

Yeni nəşr

# Nərimanov rayonunda "Fenomen" kitabının təqdimatı keçirilib

**Nərimanov Rayon İcra Hakimiyyəti tərəfindən hazırlanan, Vətən müharibəsində qazanılan böyük Zəfərə həsr olunmuş "Fenomen" kitabının təqdimatı keçirilib.**



Tədbirdə Nərimanov rayon rəhbərliyi, millət vəkilləri, politoloqlar, incəsənət xadimləri, müharibə iştirakçıları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlayan tədbirdə "Fenomen" kitabına həsr edilmiş videoçarx nümayiş olunub.

Tədbiri giriş nitqi ilə açan Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Elgin Həbibullayev Qarabağ zəfərinin unikallığı, Prezident İlham Əliyev fenomeninin tariximizdə və taleyimizdəki önəmi barədə söz açaraq, mürəkkəb bir dönəmdə qazanılan parlaq qələbənin nəinki Azərbaycan, həmçinin dünya hərb və diplomatiya salnaməsinin ən böyük hadisələrindən biri olduğunu bildirib. Əminlik ifadə edib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Qarabağda aparılan böyük quruculuq işləri növbəti fenomenə çevriləcək və bu haqda da kitablar və əsərlər yazılacaq.

Tədbirdə çıxış edənlər bildiriblər ki, kitabda Vətən müharibəsi zamanı baş verən hadisələr çox orijinal üslubda - dünya tarixindən gətirilən paralellər vasitəsilə oxucuya çatdırılır. Mühüm tarixi faktların və təhlillərin yer aldığı nəfis tərtibata malik "Fenomen" kitabının ictimaiyyət tərəfindən böyük maraqla qarşılanacağı söylənilib.

Tədbir bədii hissə ilə yekunlaşıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Teatr xadimləri

# Azərbaycan səhnəsinin ilk və təkrarolunmaz Məcnunu

**Sarabski Hüseynqulu Rzayevin səhnə adı idi. Azərbaycan teatr tarixində də bu adla qaldı. Tərcümeyi-halına gəlincə, o, məşhur "Köhnə Bakı" əsərində yazıb: "Mən bakılıyam. 1879-cu ildə Bakının İçərişəhər adlanan hissəsində, Yeddilər məhəlləsinin məscidi sayılan Giley məscidi yaxınlığındakı evimizdə doğulmuşam. Bu ev ana babam məşədi Rəhim Hüseyn oğlunun mülki idi. Atam dənizdə işləyirdi"...**



Hüseynqulunun yazdığı kimi, atası Məlik gəminin qara fəhlələrindən idi. Nə qədər ağır zəhmətə qatlaşsa da, ailəsini kasıblıq, gün-güzəran qayğılarından qurtara bilmirdi. Bir gün isə dəniz onun fəlakətinə çevrildi. Atanın faciəli ölümündən sonra ailənin, iki kiçik uşağın yükü ananın çiyinlərinə düşdü. Varlıların evində xidmətçilik etdi. Hüseynqulu da kiçik yaşlarından ağır işlərdə çalışmaq məcburiyyətində qaldı.

Ancaq anası dolanışıq qayğıları içərisində də oğlunun təhsilini unutmadı. Hüseynqulunun anası eşitmişdi ki, Anaqız adlı qadın molla bir abbasıya Quranı öyrədir. Oğlunu onun yanına apardı. Hüseynqulu əvvəl çox sevinirdi. Ancaq sonra sevinci qüssəyə döndü: "Molla mənə 5 ay dərs keçdi, lakin mən heç bir kəlmə belə yadda saxlaya bilmirdim... 5 aydan sonra onlar mənə mollanın yanından çıxmağa icazə verdilər".

Bundan sonra məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən maliyyələşən və kasıblar üçün nəzərdə tutulan rus dilində axşam kurslarına getməyə başladı.

Musiqiyə uşaqlıqdan həvəsi böyük idi. Elə o vaxtlardan məlahətli səsi ilə seçilirdi. Sonralar qələmə aldığı xatirələrində yazırdı: "Məhərrəmlik vaxtında dini havalar oxuyar, mərsiyə deyər, münacat çəkər, eyni zamanda el şənliklərində, toyda-bayramda muğamlara, mahnılara qulaq asar, öyrənərdim".

İlk dəfə teatr tamaşasına baxmağa gedəndə on iki yaşındaydı. Həmin tamaşanın - həvəskarların ifasında "Xan Sarabi" adı ilə səhnələşdirilmiş Mirzə Fətəli Axundovun "Sərgüzəşti-Vəziri-Xani-Lənkəran" komediyasının təəssüratını ömrü boyu unutmadı. O gün səhnənin, aktyorluq sənətinin sehrinə düşdü. Səhnə adını da "Xan Sərabi"nin təsiri ilə götürdü və Azərbaycan teatr sənətinin unudulmaz Sarabskisi oldu.

O, bu sənətə çox çətin bir dövrdə gəldi. Çoxu aktyorluğun kişiyə yaraşmadığını deyir, səhnəyə çıxanları qınayır, həqarət edirdi. Səhnəyə ilk dəfə 1902-ci ildə Nəriman Nərimanovun "Dilin bəlası" pyesində Rəsul rolunda çıxdı.

1903-cü ildən həvəskar artistlərin təşkil etdiyi dram cəmiyyətlərinin işində iştirak etdi. 1906-cı ildə təşkil olunan "Nicat" Maarif Cəmiyyətinin işində uzun illər fəal iştirak edən Hüseynqulu Sarabski 1908-ci ildən cəmiyyətin nəzdində "Müsəlman Opera truppası"nın yaradıcılarından biri və solisti oldu.

Hüseynqulu Sarabskini operaya gətirən Henrix Heynenin "Əlmənsur" pyesində ərəb səyyahı rolunda çıxış edərkən oxuduğu "Hicaz" muğamı oldu. Gənc, istedadlı aktyorun həmin ifası o zaman Azərbaycanın və Şərqin ilk operası olan "Leyli və Məcnun" üzərində işləyən dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin diqqətini çəkdi. Üzeyir bəy Hüseynqulu Sarabskini öz operasında baş rola - Məcnun roluna dəvət etdi.

1908-ci il yanvarın 25-də "Leyli və Məcnun" operasında Məcnun rolunu ifa etdi. Bu obraz Hüseynqulu Sarabskinin yalnız yaradıcılığında deyil, həyatında müstəsna rol oynadı. Aktyor olduğu üçün ona rişxənd edənlərin münasibəti dəyişdi. Hüseynqulu Sarabski illər sonra o günləri yada salaraq yazırdı ki, vaxtilə onu barmaqla göstərənlər, ona tənə ilə baxanlar indi onu Məcnun deyə çağıraraq alqışlayır, hörmətlə qarşılayırdılar. O, Məcnun rolunu 30 ildən artıq müddətdə 400 dəfə oynadı.

Hüseynqulu Sarabskinin adı Üzeyir bəy Hacıbəylinin opera və operettalarında - "Leyli və Məcnun"da Məcnun, "Əsli və Kərəm"də Kərəm, "Şeyx Sənan"da Şeyx Sənan, "Şah Abbas və Xurşidbanu"da Şah Abbas, "Rüstəm və Söhrab"da Söhrab, "O olmasın, bu olsun"da Sərvər, "Ər və arvad"da Mərcan bəy, "Arşın mal alan"da Əsgər, Müslüm Maqomayevin "Şah İsmayıl"ında Şah İsmayıl, Zülfüqar Hacıbəyovun "Aşıq Qərib"ində Aşıq Qərib rollarının ilk ifaçısı kimi milli opera tariximizə yazılıb.

O, rejissor kimi bir çox opera, operetta və dram tamaşalarına quruluş vermiş, Azərbaycan Dövlət Konservatoriyasında, Asəf Zeynallı adına Bakı musiqi məktəbində muğam sənətindən dərs demişdir.

Xalq artisti fəxri adına 1932-ci ildə layiq görülmüş, 1938-ci ildə "Qırmızı əmək bayrağı" ordeni ilə təltif edilmişdir. 1934-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü, 1938-ci ildə isə Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

XX əsr milli musiqi mədəniyyətimizin tarixində özünəməxsus yer tutan görkəmli aktyor, opera müğənnisi, rejissor, pedaqoq, tanınmış teatr xadimi Hüseynqulu Sarabski 1945-ci il fevralın 16-da vəfat etmişdir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# "Qılınc və qələm" romanı özbək dilində




**Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Səid Ordubadinin özbək dilində çap olunan "Qılınc və qələm" tarixi romanının təqdimatı keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə Azərbaycan Mədəniyyət Mərkəzinin Nizami Gəncəvi yaradıcılığının "Gəncədə doğan günəş" adlı kitab sərgisi ilə tanış olublar.

Tədbirdə çıxış edən Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin kafedra müdiri və Nizami Gəncəvi adına Beynəlxalq Elmi-Tədqiqatlar Cəmiyyətinin sədri Nurbay Cabbarov romanın özbək dilində nəşrini Özbəkistan ədəbi həyatı üçün tarixi hadisə kimi qiymətləndirib. "Ötən müddət ərzində Özbəkistanda Azərbaycan Mədəniyyət Mərkəzinin apardığı sistemli iş nəticəsində Azərbaycan yazıçılarının əsərləri, habelə dahi N.Gəncəvi haqqında yazılan bədii, elmi-tədqiqat əsərlərinin tərcümə və çapı həyata keçirilib. Bu sahədə boşluqlar tam şəkildə aradan qaldırılıb. Görülən işlərin uğurlu və ardıcıl şəkildə reallaşması üçün Azərbaycan, Özbəkistan və Türkiyənin tanınmış ədəbiyyatşünaslarının iştirakı ilə Nizami Gəncəvi adına Beynəlxalq Elmi-Tədqiqatlar Cəmiyyəti yaradılıb", - deyə professor əlavə edib.

Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetin prorektoru, professor Sultan Nurmatov Özbəkistan və Azərbaycan ədəbi əlaqələrinin qədim köklərindən söz açaraq, ədəbi əlaqələrin yüksək səviyyəyə çatdığını söyləyib. O qeyd edib ki, son on ildə Azərbaycan ədəbiyyatına dair yüzlərlə nəşr özbək dilinə tərcümə olunub.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov oxucuların azərbaycanlı müəlliflərin əsərlərinə böyük maraq göstərdiyini bildirib. O, 2021-ci ilin Prezident İlham Əliyevin sərəncamı ilə "Nizami Gəncəvi ili" elan olunduğunu və bu məqsədlə Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə Özbəkistanda dahi mütəfəkkirin "Xəmsə" əsərinin, Nizami Gəncəvi əsərlərində türkçülüyə dair özbək alimlərinin monoqrafiyasının nəşr edildiyini vurğulayıb.

"Qılınc və qələm" tarixi romanının özbək dilinə tərcüməçiləri alimlər Nazira Aliyeva, Muhsin Hamidov və Rustam Komilovdur, nəşrin redaktoru və "Ön söz"ün müəllifi isə Abdulla Uluqovdur.

# Avstriya Milli Kitabxanasında Novruz şənliyi keçirilib

**Avstriyada geniş oxucu kütləsinə malik və əsasən diplomatik korpusun fəaliyyətindən bəhs edən "Society" dərgisinin təşkilatçılığı ilə ölkənin Milli Kitabxanasında Novruz bayramı münasibətilə tədbir keçirilib.**



Bayram şənliyinə Novruzun milli bayram kimi qeyd olunduğu ölkələrin nümayəndələri qatılıblar. Tədbirdə ölkəmizi Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi təmsil edib. Burada həm də Vyanada akkreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, Avstriya ictimaiyyətinin nümayəndələri, yerli media, Şərq mədəniyyəti və musiqisinə maraq göstərən insanlar iştirak ediblər.

Bayram şənliyində 10-dan çox ölkənin hər biri ayrıca guşədə Novruzla bağlı adət-ənənə, kitab və broşürlər, suvenir və şirniyyatlar təqdim ediblər. Azərbaycan guşəsində xalqımızın əziz bayramı Novruz barədə materiallarla yanaşı, Azərbaycana səyahət üçün məlumatlandırıcı kitabçalar, eləcə də mədəniyyətimiz, tariximiz, mətbəximiz, musiqi və adət-ənənələrimiz barədə materiallar təqdim olunub. Xüsusi ekranda isə Azərbaycana həsr edilmiş videoçarxlar nümayiş olunub.

Kulinariya bölməsində isə ölkələr öz milli mətbəxlərini təqdim ediblər. Burada da tədbir iştirakçıları Azərbaycanın milli təamlarına qonaq ediliblər.

Tədbirin bədii hissəsində Azərbaycan, Qazaxıstan, İraq, İran və Əfqanıstan musiqiçiləri səhnəyə çıxıblar. Görkəmli xanəndə, Xalq artisti Mənsum İbrahimovun rəhbərlik etdiyi "Qarabağ" muğam qrupu Novruz bayramı münasibətilə xüsusi proqramla çıxış edib. Azərbaycan ifaçılarının təqdimatı böyük marağa və alqışlara səbəb olub və tədbirin aparıcısı proqramdankənar əlavə mahnıların ifasını xahiş edib.

Konsertdə Azərbaycan Dövlət Rəqs Ansamblının solistləri milli rəqslərimizlə proqramı davam etdiriblər.

# Xərçəngi əbədi məğlub etmək üçün yeni müalicə üsulu axtarılır

**Xərçəng dünyanın ən təhlükəli xəstəliklərindən hesab edilir. İnsan orqanizmində anormal hüceyrələrin böyüməsi ilə başlayıb sürətlə digər orqanlara yayılan xərçəng ürək-damar xəstəliklərindən sonra dünyada ən çox insan ölümünə səbəb olan xəstəlikdir. Genetik meyil, tütün və spirtli içkilərdən istifadə, radiasiya, kanserogen və kimyəvi maddələr, müxtəlif viruslar, pis qidalanma vərdişləri və havanın çirkliliyi xərçəng xəstələrinin artmasının əsas səbəblərindəndir.**



Kimyaterapiya, radiasiya və cərrahiyyə əməliyyatları xərçənglə mübarizənin standart müalicə formalarıdır. Lakin kimyaterapiya və radiasiyanın yan təsirlərindən biri də zədələnmiş hüceyrələrlə yanaşı, sağlam hüceyrələri də məhv etməsidir. Elm adamları uzun illərdir xərçəngi əbədi olaraq məğlub etmək üçün onun təsirli müalicə üsulunu tapmağa çalışırlar. Mütəxəssislər xərçənglə mübarizədə peyvəndin böyük vədlər verdiyini bildirirlər. Bu problemin mümkün həlli sağlam hüceyrələrin bədxassəli hüceyrələrə çevrilməsinin qarşısını ala biləcək xərçəng əleyhinə peyvəndin yaradılmasıdır.

## 2030-cu ilə qədər 30 xərçəng növünə qarşı peyvənd istehsal ediləcək

Xərçəng peyvəndlərinin digər müalicə üsullarının təsir etmədiyi bədxassəli hüceyrələri potensial olaraq məhv edə, şişin böyüməsini və ya yayılmasını dayandıra biləcəyi təxmin edilir. Peyvəndlərin əsas məqsədi immunitet sisteminin xəstəliyə səbəb olan faktorları tanımasına imkan vermək və orqanizmin onlara qarşı adekvat müdafiəsini təmin etməkdir. Xərçəng peyvəndi immun hüceyrələrinə şiş hüceyrəsinin necə göründüyünü "öyrədir", onların aşkarlanmasına və zərərsizləşdirilməsinə şərait yaradır.

Koronaya qarşı inkişaf etdirdikləri "mRNA" əsaslı peyvəndi xərçəngə qarşı da inkişaf etdirməyə çalışan "BioNTech" şirkəti dəri, bağırsaq, uşaqlıq yolu, prostat və ağciyər xərçəngi də daxil olmaqla 30 xərçəng növünə qarşı klinik araşdırmalarını davam etdirir. Mütəxəssislər "mRNA" texnologiyasının koronavirusları məhdudlaşdırdığı kimi, xərçəng hüceyrələrinə hücum etmək üçün necə yenidən proqramlaşdırıla biləcəyini izah ediblər. Vaksin virusları müəyyən edən kodu daşımaq əvəzinə xərçəng antigenləri, yəni şiş hüceyrələrinin səthini deşən zülallar üçün genetik təlimatları ehtiva edir və bu şəkildə xərçənglə mübarizə aparır. Lakin şişləri meydana gətirən xərçəng hüceyrələri müxtəlif zülallarla örtülə bilir, bu da sağlam toxuma deyil, bütün xərçəng hüceyrələrini hədəf alan bir peyvəndin hazırlanmasını olduqca çətinləşdirir.

Sınaq testləri zamanı peyvənd III və IV mərhələdə olan dəri xərçəngi xəstələrində terapevtik dərmanlarla birlikdə istifadə edilib. Nəticədə dəri xərçənginin təkrarlanma və ölüm riskini 44 faiz azaltdığı müşahidə edilib. Məlumata görə, vaksin 4 dozada 44 pasiyentə vurulub. Nəticələrə əsasən, pasiyentlərin 59 faizində şişlərin həcminin 30 faiz kiçilməsi müşahidə edilib. Xəstələrin 95 faizində isə şişlərin böyüməsi dayanıb.

Şirkət qurucuları 2030-cu ilə qədər xərçəngin müalicəsi üçün peyvənd istehsalının mümkün olacağını deyirlər. Onlar hər bir xəstədə xərçəng hüceyrəsi lokalizasiyasının fərqli olduğu üçün fərdi müalicə sayəsində yaxın illərdə kimyaterapiyaya da ehtiyac olmayacağını iddia edirlər. Bundan əlavə, "BioNTech" rəsmiləri 2026-cı ilə qədər ilk xərçəng peyvəndlərinin təsdiqlənərək bazara çıxarılmasına böyük ümid bəslədiklərini bildirirlər.

## Onkoloji xəstəlik həyatın sonu deyil

Mövzu ilə bağlı qəzetimizə fikirlərini bildirən Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimli deyir ki, son illər bütün dünyada olduğu kimi, Azərbaycanda da onkoloji xəstələrin sayında artım müşahidə edilir: "Bunun səbəbi həm də əhalinin artmasıdır. Demoqrafik göstəricilərə əsasən, əhalimizin sayı 10 milyon 300 mini ötüb. Buna görə də yalnız onkoloji deyil, ümumiyyətlə, bütün xəstəliklərə yaxalananların sayı artıb. 2022-ci ilin statistikasına əsasən, həmin il 62 min 385 onkoloji xəstə qeydiyyata alınıb. 2021-ci ildə isə bu göstərici 58 min 948 nəfər olub. Onu da qeyd etmək lazımdır ki, 62 min 385 xəstədən 22 min 349 nəfəri 5 ildən artıqdır yaşayanlardır".

A.Kərimli qeyd edir ki, kişilər arasında daha çox ağciyər traxeya və prostat vəzisinin, qadınlar arasında isə uşaqlıq boynu və süd vəzisinin xərçənginə rast gəlinir: "Süd vəzisi xərçənginə vaxtında diaqnoz qoymaq üçün 40 yaşdan yuxarı qadınlar hər il mamoqrafiyadan keçməlidirlər. 45-50 yaşdan yuxarı kişilər isə hər il rentgen müayinəsindən keçməli, uroloqa müraciət etməli və qan testləri verməlidirlər. Ən kiçik şübhə yaranarsa belə müayinədən keçmək və hər şeyin qaydasında olduğundan əmin olmaq lazımdır".

Əhali arasında bu xəstəliklə bağlı ciddi qorxu və təşvişin olduğunu söyləyən onkoloq bildirir ki, xərçəng də digər xəstəliklər kimi sağalmaq qabiliyyətinə malikdir: "Bu xəstəlik bir çox onkoloji xəstənin düşündüyü kimi həyatın sonu deyil. Əgər xəstəlik erkən mərhələdə aşkar edilsə, düzgün diaqnoz qoyulsa və müvafiq müalicə taktikası seçilsə, bunun digər xəstəliklərdən demək olar ki, fərqi yoxdur və tam müalicəsi mümkündür. Xüsusən onkoloji xəstəliklərdə ən önəmli faktor xəstənin motivasiyasının və əhvali-ruhiyyəsinin yüksək olmasıdır".

A.Kərimlinin sözlərinə görə, dünyada və ölkəmizdə əsasən uşaqlıq boynu xərçəngi üçün peyvəndləmə aparılır: "Yaxşı nəticə əldə etmək üçün peyvəndləmənin 9-13 yaşlarda oğlan və qızlarda aparılması tövsiyə olunur. Profilaktik məqsədlə digər yaşlarda da peyvənd olunmaq olar. Yüksək vəsait tələb etdiyi üçün xərçəngə qarşı peyvəndləməni səhiyyə müəssisələri həyata keçirə bilmir. Kütləvi hal alması üçün dövlət proqramı qəbul edilməlidir. Hazırda isə HPV peyvəndini hər bir şəxs könüllü şəkildə əldə edərək dövlət və özəl xəstəxanalarda vurdura bilər".

İnsanların maarifləndirilməsi və düzgün həyat tərzinin təbliği bir çox xəstəlikdə olduğu kimi, xərçənglə mübarizədə də önəmlidir. Bunun üçün mütəxəssislərin tövsiyələrini dinləmək, vaxtlı-vaxtında müayinə olunmaq, xəstəliyə tutulduqda isə psixoloji sağlamlığı qorumaq lazımdır.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




# Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Ümumdünya Böyrək Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib

**Akademik Mirməmməd Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanasında Ümumdünya Böyrək Gününə həsr olunmuş elmi-praktik konfrans keçirildi.**



Xatırladaq ki, 14 Mart Ümumdünya Böyrək Günüdür. Bu gün bütün dünyada 2006-cı ildən etibarən hər il rəsmi şəkildə qeyd edilir. Bu günün qeyd olunmasında əsas məqsəd insanları böyrək xəstəlikləri haqqında problemlərlə tanış etmək və böyrək problemi olan insanların vaxtında həkimlərə müraciət etməsi üçün məlumatlandırmaqdır.

Akademik Mirməmməd Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanasının direktoru Fariz Babayev jurnalistlərə açıqlamasında Ümumdünya Böyrək Gününün qeyd edilməsinin bu sahədə informasiya və maarifçilik istiqamətində atılan çox mühüm addım olduğunu diqqətə çatdırdı. Bildirdi ki, ölkəmizdə anadangəlmə irsi böyrək xəstəlikləri, böyrək çatışmazlığı olan insanların öz sağlamlığına daha məsuliyyətli yanaşması üçün şərait yaradılıb, yəni bunlarla bağlı geniş imkanlar mövcuddur: "Təsadüfi deyil ki, ölkəmizin səhiyyə sahəsində böyrək xəstəliklərinin profilaktikası problemlərinin həllindən, urologiyanın inkişafından söz düşəndə ilk növbədə mərhum akademik Mirməmməd Cavadzadə yada düşür. Səhiyyənin bu sahəsində hemodializ, mürəkkəb böyrək əməliyyatları məhz onun elmi axtarışları sayəsində, misilsiz xidmətlərinin zəhməti nəticəsində həyata keçirilib. Klinikamız 1966-cı ildən fəaliyyətə başlayıb. Yarandığı gündən burada dünya urologiyasının və nefrologiyasının bütün nailiyyətləri tətbiq olunmağa başlanılıb".

Fariz Babayev qeyd etdi ki, hər il ölkəmizdə bu təqvim günü qeyd olunur və bu, təqdirəlayiq haldır: "Belə tədbirlərin keçirilməsi Azərbaycanın səhiyyə sahəsində, həmçinin yaxşı kadrların hazırlanmasında mühüm əhəmiyyət kəsb edir".

Ümumdünya Böyrək Gününə həsr olunmuş elmi-praktik konfransda çıxış edən TƏBİB-in Tibbi təhsil və innovasiyalar departamentinin rəhbəri Teymur Mirzəbəyli bildirdi ki, böyrək xəstəliyi Azərbaycanda geniş yayılıb: "Ölkəmizdə 2023-cü ildən bu günə qədər 21 xəstəyə böyrək köçürülməsi əməliyyatı həyata keçirilib".

Teymur Mirzəbəyli deyib ki, böyrək xəstəlikləri cəmiyyətimizdə əsas sosial problemlərdəndir. Bu səbəbdən də "Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı" çərçivəsində 43 adda dərman vasitəsi, 35 adda tibbi sərfiyyat materialı və ləvazimat xəstələrə təqdim edilib. TƏBİB-in Tibbi təhsil və innovasiyalar departamentinin rəhbəri bildirib: "Bu günə qədər ölkəmizdə 37 orqan transplantasiyası həyata keçirilib. Onlardan 21-i böyrək transplantasiyası olub. Hazırda 4 mindən çox aktiv dializ proseduru alan xəstə var. Bütün bunlar icbari tibbi sığortanın xidmətlər zərfi çərçivəsində aparılan orqan transplantasiyası əməliyyatlarıdır".

Elmi-praktik konfransda çıxış edən TƏBİB-in Davamlı tibbi inkişaf şöbəsinin müdiri Emil İsgəndərov dedi: "Hazırda 88 ölkə bu günü qeyd edir. Həmin prosesə qoşulan ölkələr tədricən artmaqda davam edir".

Emil İsgəndərov dedi ki, bu günün həm elm, həm də təhsil sahəsində böyük əhəmiyyəti var, eyni zamanda əhali arasında böyrək xəstəliklərindən əziyyət çəkən şəxslər arasında da maarifçiliyi özündə əks etdirir. "Hazırda Yer üzündə 850 milyondan çox insan böyrək xəstəliklərindən əziyyət çəkir. 2019-cu ildə 3,1 milyondan çox insan məhz bu xəstəlik səbəbindən dünyasını dəyişib. Azərbaycanda da bu xəstəliklərdən əziyyət çəkənlərin sayı çoxdur".

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Niderlandda islam və miqrasiya əleyhdarı seçkilərdə qalib gəlsə də, baş nazir olmayacaq

**İfrat sağçı Azadlıq Partiyasının lideri Gert Vilders bildirib ki, o, bundan sonra hökumət başçısı olmağa cəhd etməyəcək. 2023-cü ilin noyabrında keçirilən seçkilərdə Vildersin siyasi qüvvəsi ən çox səs toplasa da, koalisiya hökuməti yarada bilməyib.**



Tez-tez "niderlandlı Tramp" adlandırılan Vilders islam, miqrasiya, ölkənin Aİ-yə üzvlüyü və Ukraynaya hərbi yardımın əleyhdarı kimi tanınır.

Srağagün Vilders deyib ki, onun baş nazir təyin edilməsi koalisiyadakı potensial tərəfdaşlar tərəfindən dəstəklənmir. Azadlıq Partiyasının seçkilərdə aldığı səslər isə təkbaşına hökumət yaratmaq üçün kifayət etmir.

Azadlıq Partiyasının parlamentdə 37 yeri var (bu, onun üçün rekord nəticədir), lakin səs çoxluğu əldə etmək üçün 76 mandat lazımdır.

Niderlandda siyasi həyat ənənəvi olaraq dağınıqdır, çünki 60 mindən çox səsə malik istənilən partiya parlamentdə yer ala bilər. Əslində, bu ölkədə koalisiya hökuməti norma halını alıb.

Vilders "X"də (əvvəllər tviter) yazıb: "Yalnız koalisiyanın bütün üzvləri məni dəstəkləsəydi, baş nazir ola bilərdim. Bu, baş vermədi. Mən sağçı bir kabinetin formalaşmasını istəyirəm. Vətənimə və seçicilərimə olan məhəbbət mənim şəxsi vəziyyətimdən daha vacibdir".

## Bu ölkədə uzun danışıqlar ənənə halını alıb

60 yaşlı Vilders daha üç sağçı siyasi partiya ilə koalisiya hökuməti qurmaq üçün danışıqlar aparmağa çalışıb. Lakin Niderlandın ictimai yayım kanalı NOS-un məlumatına görə, bu qüvvələr yalnız o halda koalisiya yaratmağa hazır idilər ki, onların liderlərindən heç biri yeni kabinetdə vəzifə tutmasın.

Onların hökumətə kimin rəhbərlik edə biləcəyi ilə bağlı kompromis əldə edib-etmədikləri bəlli deyil.

Dünən ölkə parlamentində cari vəziyyətlə bağlı müzakirələr başlayıb.

Qeyd edək ki, Niderlandda koalisiya hökumətinin yaradılması prosesi adətən çox uzun çəkir: orada iştirak etmək niyyətində olan hər bir partiya var gücü ilə seçki manifestinin məzmununu razılaşmaya yerləşdirməyə və nazir postları uğrunda mübarizə aparmağa çalışır.

Xatırladaq ki, baş nazir Mark Rüttenin son hökumətinin formalaşması 271 gün çəkib. Əksər analitiklər yeni kabinetin 2024-cü ilin ortalarına qədər formalaşacağına inanmırlar.

Hələlik isə ölkəyə vəzifəsini tərk etdikdən sonra NATO blokuna başçılıq etmək istəyən Mark Rütte rəhbərlik edir.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Milli Məclisin deputatı Elman Məmmədova əzizi

**BƏXTİYAR ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi

**ŞAMİL QARAXANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun baş həkimi və kollektivi institutun direktoru Aynur Poluxovaya atası

**ƏLİ PƏNAH OĞLU HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi keçmiş iş yoldaşları şair-publisist

**ZEYNAL VƏFANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi UNEC Ağsaqqallar Şurasının sədri, məsləhətçi-professor, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü

**ƏLİ PƏNAH OĞLU HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4300**
**Sifariş 563**

**Qiyməti 60 qəpik**